Xalqın qəzeti!

# Xalq qəzeti

№ 97 (30213) 11 may 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ulu öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

(ardı 2-ci səhifədə)

## Prezidentin Heydər Əliyev manifesti və ya Şuşa ruhumuzun təntənəsi



Səhifə ⇨ 7

## Azərbaycan sülh istəyirsə, deməli, ona nail olacaq



Səhifə ⇨ 14

## Azərbaycan "Bir kəmər, bir yol" layihəsini fəal dəstəkləyib




Səhifə ⇨ 15

## Sülh danışıqlarının marşrutu: Brüssel – Moskva

Səhifə ⇨ 16

# Vaşinqtondan sonra nəzərlər Brüsselə dikilib

Səhifə ⇨ 14

## Türk dövlətləri birliyinin iqtisadi qüdrəti yüksəlir



Səhifə ⇨ 15

## Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biridir



Səhifə ⇨ 18

## Ermənistan Qərbdə siyasi müttəfiqlər axtarır



Səhifə ⇨ 18

## Ermənistanda siyasi çəkişmələr güclənir



Səhifə ⇨ 14

## Mina terroru – gözəgörünməz müharibə kabusu



Səhifə ⇨ 17

## Türk dünyasının mədəniyyət paytaxtında möhtəşəm təntənə

Səhifə ⇨ 13

## ABŞ-da defolt dağıdıcı ola bilər

Səhifə ⇨ 18

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



**(əvvəli 2-ci səhifədə)**

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin xatirəsini dərin hörmətlə yad etdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

**AZƏRTAC**

## Şuşada 17 binadan ibarət yaşayış kompleksinin təməli qoyulub



**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşa şəhərində 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq.

Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Dövlətimizin başçısı Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**

## Dövlət Xidmətləri Mərkəzində yenidənqurma və təmir aparılır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə başlanılması ilə bağlı tədbirdə iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verildi.

Qeyd edək ki, Şuşada Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə Prezident İlham Əliyevin tapşırığına əsasən başlanılıb. Burada keçmiş poçt binasında və onun yerləşdiyi ərazidə əsaslı təmir işləri aparılacaq. Dördmərtəbəli binanın əsaslı təmirindən sonra burada "ASAN xidmət" və "DOST xidməti" mərkəzləri, KOB evi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (poçt, rabitə qovşağı) filialının fəaliyyət göstərməsi nəzərdə tutulur.

**AZƏRTAC**

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri

## Şəhərdə 23 binadan ibarət yaşayış kompleksi tikilir





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.**

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır.

Diqqətə çatdırıldı ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Bu kompleksdəki mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Mənzillərin bir hissəsi isə Şuşada çalışan işçilərin xidməti istifadəsi üçün nəzərdə tutulub. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

**AZƏRTAC**

## Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin açılışı



**Mayın 10-da Şuşada Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma küçələrdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Heydər Əliyev küçəsinin uzunluğu 1751 metr, eni isə yol yatağına uyğun olaraq 10-14 metr aralığında dəyişir. 8 Noyabr küçəsinin uzunluğu 2912 metr, eni 10 metrdir. Bu küçələr də müasir səviyyədə yenidən qurulacaq, bütün zəruri infrastruktur yaradılacaq.

**AZƏRTAC**



# Heydər Əliyev yolu Azərbaycanı uğurlara qovuşdurur

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

– Əziz bacılar və qardaşlar.

Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bildiyiniz kimi, 2023-cü il mənim sərəncamımla “Heydər Əliyev İli” elan olunmuşdur. İlin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır.

Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır.



İl başlayandan ulu öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır. Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır.

Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə – 1969–82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər.

Heydər Əliyev 1982–87-ci illərdə Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi daim Azərbaycana öz diqqətini, qayğısını göstərirdi. Məhz bu qayğı və diqqət nəticəsində Azərbaycan o illərdə də uğurla inkişaf edirdi. Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır.

Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar. Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu. Baxmayaraq ki, siyasi fəaliyyətdən kənarda qalıb, amma ulu öndər hər zaman Azərbaycanın maraqları ilə yaşayırdı, ürəyi Azərbaycanla bir döyünürdü və xalqımız üçün ağır günlərdə – 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Mən onun yanında idim, o günü yaxşı xatırlayıram, həm faciəvi gün idi, eyni zamanda, qürurverici bir gün idi. Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdır, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı.

Bu tarixi çıxışdan sonra, – çünki Sovet İttifaqının dağılmasına hələ iki ilə yaxın bir vaxt var idi, heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı iki ildən sonra dağılacaq, yəni, bu bəyanat böyük cəsarət tələb edirdi, əsl vətənpərvərlik tələb edirdi, – təbii ki, bu bəyanatdan sonra Sovet İttifaqının repressiv maşını Heydər Əliyevə qarşı geniş hücuma keçmişdir və onun Moskvada qalması artıq mümkün deyildi. Bir neçə aydan sonra – 1990-cı ilin iyul ayında o, Moskvadan Bakıya gəlmiş, ancaq ovaxtkı Azərbaycan rəhbərliyi onu da ona çox görmüşdür. Onun faktoru, güclü lider olması görünür ki, onları yaman narahat edirdi və faktiki olaraq, ona edilən təzyiqlər nəticəsində o, doğulduğu şəhərə - Naxçıvana getmiş və orada yaşamağa başlamışdır.

Naxçıvanın da ağır günləri davam edirdi, Naxçıvan tam blokadada idi. Naxçıvanın, ümumiyyətlə, gələcəkdə yaşaması ilə bağlı çox böyük təhlükələr var idi. Ermənilər necə ki, Qarabağı ələ keçirməyi planlaşdırırdılarsa, eləcə də Naxçıvanı da ələ keçirməyi planlaşdırırdılar. Naxçıvanı işğal etmək onların planlarının tərkib hissəsi idi. Heydər Əliyev Naxçıvanı qorudu, işğaldan qorudu. Erməni düşmənlər yerinə otuzduruldu və Naxçıvan çətin də olsa, blokada şəraitində də olsa yaşayırdı, əyilmədi, sınmadı, ayaqda qaldı.

Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. Azərbaycan hakimiyyəti - həm kommunist, həm dırnaqarası demokrat hakimiyyəti hər vəchlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı.

Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdır. Heydər Əliyev uzun illər ərzində xidmət etdiyi Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdır və faktiki olaraq müstəqilliyə gedən yol Naxçıvandan başlamışdır.

Eyni zamanda, Azərbaycanın müasir siyasi sistemi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb olmuşdur. Çünki Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır, ovaxtkı antimilli iqtidara qarşı müxalifət kimi. Bu partiyanın – Yeni Azərbaycan Partiyasının yaranması bütövlükdə bütün Azərbaycanda böyük əks-səda vermişdir. Azərbaycanın müxtəlif bölgələrindən partiyaya üzv olmaq istəyənlərin axını müşahidə edilirdi və qısa müddət ərzində Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrilmişdir və bu gün də bu, belədir.

Azərbaycanın isə Qarabağ kimi problemi, əfsuslar olsun ki, öz həllini tapmırdı. Hakimiyyətdə olanlar ancaq şəxsi mənafeyi düşünürdülər, talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC–Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün, bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yaşamışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər. Torpaqlar əldən gedirdi, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilmişdir. Şuşa alınmaz qaladır. Bunu hər kəs bilir. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC–Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır. Ondan sonra faciələrimiz daha da artdı. Şuşa işğal olunandan sonra Laçının taleyi də demək olar ki, böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu və beləliklə, Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı.

Məhz bu ağır dövrdə ovaxtkı hakimiyyət qardaş qanını axıtdı, vətəndaş müharibəsinə start verdi, təki hakimiyyətdə qalsın və öz talançılıq fəaliyyətini davam etdirsin. Xalq isə ayağa qalxdı, xalq Heydər Əliyevi tələb edirdi, ancaq Heydər Əliyevin simasında nicat yolu görürdü. O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev, demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi. Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax, budur. Yəqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz - o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq.

Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha göstərdi. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi. AXC–Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Çünki bizim torpaqlarımız işğal altında idi, ancaq ovaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində dünyada elə bir təsəvvür var idi ki, sanki Azərbaycan təcavüzkardır. Yəni, böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etmişlər.

Aydın idi ki, ölkənin gələcəyi yalnız xarici sərmayə hesabına mümkün ola bilər. Çünki xəzinə boş idi, inflyasiya min faizlərlə ölçülürdü, sənaye iflic vəziyyətdə idi, hətta neft-qaz sənayesi də faktiki olaraq iflic vəziyyətdə idi. Belə bir vəziyyətdə xarici investorları ölkəyə gətirmək, onları inandırmaq böyük siyasi məharət tələb edirdi. 1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin kontraktı” növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Azərbaycan dövləti “Əsrin kontraktı”nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün “Əsrin kontraktı”nın icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır, bunu da biz kontrakt imzalayarkən şərt kimi qoymuşduq. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da bizə böyük əlavə üstünlük verir.

Əlbəttə ki, daxili və xarici düşmənlər – onlar da başa düşürdülər ki, Azərbaycan artıq inkişaf yoluna qədəm qoyub. Onlar öz çirkin əməllərindən əl çəkmək fikrində deyildilər. “Əsrin kontraktı” imzalanandan iki həftə sonra Azərbaycanda dövlət çevrilişinə cəhd edildi. Yenə də Heydər Əliyev amili, xalqın ona inamı bu cəhdin qarşısını aldı. Yüz mindən çox insan Azadlıq meydanına toplaşaraq öz Liderinə dəstəyini göstərmişdir və hərbi çevrilişdə əli olan ünsürlər pərən-pərən oldular. Vəziyyət təzə-təzə sabitləşirdi, 1995-ci ilin mart ayında ikinci dövlət çevrilişinə cəhd. Artıq digər qanaddan gələn zərbə yenə də gənc dövlətimizi sarsıtdı. Yenə də xalq ulu öndərin ətrafında birləşərək o cəhdə də imkan vermədi. 1996-cı ildə sabitliyi pozmaq üçün əlavə cəhdlər göstərildi, onların da heç bir nəticəsi olmadı və yalnız ondan sonra ölkəmizdə, sözün əsl mənasında, sabitlik yaranmışdır. O vaxtdan bu günə qədər biz sabitliyi qoruyuruq.

Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Bu gün dünyanın bir çox yerlərində sabitlik pozulub, müharibələr, münaqişələr, toqquşmalar baş verir, o, ölkələri geriyə atır. Ona görə hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var. Sabitlik üçün isə güclü lider lazımdır. Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir.

Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər.

Heydər Əliyev öz xalqına sıx bağlı olan bir adam idi. Məhz onun təşəbbüsü ilə Azərbaycan dilinin qorunmasına dair önəmli addımlar atılmışdır, müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycan dilinin qorunması milli kimliyimizin qorunması deməkdir. Azərbaycan dili çox zəngin dildir. Dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili Ana dilidir. Məhz ulu öndərin təşəbbüsü ilə Ana dilimizin qorunması istiqamətində atılan addımlar bu gün də davam etdirilir və bu, daim davam etdirilməlidir.

Heydər Əliyevin ordu quruculuğu sahəsində çox böyük xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində nizami ordu yaradılmışdır. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız məhdud idi, orduya lazımi qədər vəsaitin ayrılması mümkün deyildi. Çünki ölkə qarşısında duran problemlər çox ciddi idi və bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı, ağır vəziyyətdə yaşayırdı. Neft Fonduna yığılan birinci vəsait yenə də Heydər Əliyevin təşəbbüsü ilə məhz keçmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına istiqamətləndirildi. Birinci qaçqın şəhərciyi məhz o vəsaitlə inşa edilmişdir. Vəsaitin qıtlığına baxmayaraq, ordu quruculuğu üçün çox ciddi addımlar atılmışdır.

Bu gün Azərbaycan Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrilib. Xatırlatmaq istəyirəm, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfrans keçirilmişdi. Məhz o illərdə bu gün “Orta Dəhliz” dediyimiz layihənin bünövrəsi qoyuldu – Avropa-Qafqaz-Asiya. Yəni, bu dəhlizin Azərbaycan ərazisindən keçməsi o illərdə şərtləndirildi. Halbuki bəziləri bunu istəmirdilər. Əfsuslar olsun, bu gün də elələri var ki, Azərbaycanı bu strateji layihədən kənarda qoymaq istəyirlər, amma onların arzuları gözlərində qalacaq.

Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə “Əsrin kontraktı”, 1996-cı ildə “Şahdəniz” qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır. Bütün bu işlərin təməli o illərdə qoyulub. Mən bütün bu layihələrin iştirakçısı kimi bunu çox yaxşı bilirəm. O vaxt Azərbaycanın neft-qaz potensialı ilə bağlı bir çox uydurmalar, bir çox şayiələr gəzirdi, hələ bu gün də var. Amma həyat onu göstərir ki, biz nə demişiksə, hər bir sözümüz həyatda öz əksini tapıb.

Yəni, ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan ulu öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq.

Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. İndi bir daha demək istəyirəm ki, dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq.

Azərbaycanda bütün azadlıqlar təmin edilir. Azərbaycan demokratik ölkədir. Azərbaycanda insanlar azad yaşayırlar. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu da dünyada bir nümunədir və bunu təkcə mən yox, bir çoxları, yəni, bu məsələ ilə yaxından məşğul olan ekspertlər, siyasətçilər, dövlət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri qeyd edirlər. Bu unikal ab-hava bu gün ölkəmizi gücləndirir. Bax, bu gün durduğum Şuşa şəhərinin mərkəzində bunu bir daha demək istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına biz bu gün burada dayanmışıq. Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir.

Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir, elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax, bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir, qanunlar qəbul edilir, dinimizə qarşı çirkin əməllər törədilir, “Qurani-Kərim” yandırılır və buna da biganə yanaşırlar. Yəni, mən bu sözləri söyləməklə bir daha demək istəyirəm ki, bizdə mövcud olan ab-hava unikaldır. Bu, bizim həyat tərzimizdir və eyni zamanda, bu, bizim siyasətimizdir, bu, bizim gücümüzdür. Bu gün belədir, bundan sonra da belə olacaq. Ancaq belə olan halda, biz bundan sonra da rahat yaşaya bilərik, öz gələcəyimizi özümüz qura bilərik.

Ölkəmizin beynəlxalq nüfuzu, görün, nə qədər yüksəlib. Bu gün beynəlxalq təşkilatlarda Azərbaycanın hörməti artır. Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına 4 ilə yaxın biz rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik. Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı. Bu gün Avropa üçün Azərbaycan çox önəmli ölkəyə çevrilib. Biz Avropa İttifaqına üzv ölkələrin üçdəbiri – doqquz ölkə ilə strateji tərəfdaşıq. Yəni, beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Biz beynəlxalq müstəvidə bizə lazım olan bütün sənədləri, qətnamələri qəbul etdirə bilmişik və bu, İkinci Qarabağ müharibəsinin uğurla aparılması üçün də öz rolunu oynamışdır. Çünki biz həqiqəti sübut etmişik. Biz yalnız həqiqəti sübut etməyə çalışırdıq və ona nail olduq ki, bu, bizim torpağımızdır. Bax, durduğum torpaq Azərbaycan torpağıdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işimizlə bu hüquqi və siyasi bazanı yarada bilmişik.

*(ardı 4-cü səhifədə)*

# Heydər Əliyev yolu Azərbaycanı uğurlara qovuşdurur

(əvvəli 3-cü səhifədə)

İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni, bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir. Bizə bəzən dərs verməyə can atan bəzi ölkələrdə bu, 100 faizdir, bəlkə də çox. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq. Amma heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan-Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun. Heç kimə imkan verməmişik və verməyəcəyik, bunu təmin etmək üçün iradəmiz də yerindədir, gücümüz də yerindədir.

Bununla paralel olaraq, son 20 il ərzində ulu öndərin yolu ilə gedərək sosial sahədə böyük irəliləyiş olub, maaşlar, pensiyalar müntəzəm olaraq qaldırılır, keçmiş məcburi köçkünlər üçün şəhərciklər salınıb, 300 mindən çox keçmiş məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. İndi isə onlar üçün biz, bax, Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Laçında, Xocavənddə, Hadrutda, Ağalıda, Talışda, Suqovuşanda evlər inşa edirik və inşa edəcəyik. Mən qeyd etdiyim kimi, son günləri Qarabağda və Zəngəzurda keçirmişəm, bizim siyasətimizin, qəbul edilmiş qərarların təzahürləri artıq hər yerdə görünür. Bu, böyük xoşbəxtlikdir. Müharibədən cəmi iki il yarım keçəndən sonra artıq biz keçmiş köçkünlərimizi iki kəndə qaytarmışıq. Qeyd etdiyim kimi, 10 kəndin bünövrəsi, bax, bu son günlərdə qoyulubdur. Bütün şəhərlərin Baş planları tərtib edilib və bütün şəhərlərdə indi genişmiqyaslı inşaat işləri aparılır.

Biz müasir texnologiyalara böyük önəm verərək, Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda, bizim investisiyalarımız, sərmayələrimiz - biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq.

Ulu öndərin yolu ilə gedərək istənilən sahədə inkişafdan, uğurlardan bəhs etmək olar. Əlbəttə ki, bizim gördüyümüz bütün işlərin təməlində milli-mənəvi dəyərlərimizə bağlılıq dayanır. Bu gün dünyada, dünyanın müxtəlif yerlərində müxtəlif meyillər baş verir, müxtəlif tendensiyalar müşahidə olunur, dırnaqarası yeni dəyərlər meydana çıxır. Biz isə ənənəvi dəyərlərə sadiq qalaraq öz gələcəyimizi çox möhkəm milli-mənəvi təməl üzərində qururuq. Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk. Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk. Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh!

Əlbəttə, biz ordu quruculuğu işində sistemli fəaliyyət göstərirdik və bu gün də göstəririk. İkinci Qarabağ müharibəsindən sonra biz dayanmadıq, əksinə, irəliyə gedirik. Bu ilin dövlət büdcəsinə əlavələr ediləcək, o əlavələrin böyük bir hissəsi yenə də hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə üçün? Çünki biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır. Biz belə gözəl uşaqlar yetişdirmişik ki, onlar düşməni burada, Şuşada əliyalın məğlub edib, düşməni torpaqlarımızdan çıxarıb, bizim qürur rəmzimiz olan bayrağımızı, bax, bu binaya və azad edilmiş bütün başqa torpaqlarda qaldırıb. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcəkdir.

İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır. Ermənistan 30 il ərzində öz himayədarlarının dəstəyi ilə bu torpaqları bizə verməmək üçün gecə-gündüz əlləşirdi. Həm coğrafi relyefə arxalanırdı, 5, 6, bəzən 7 xətt müdafiə istehkam qurğularına arxalanırdı və himayədarlarına arxalanırdı. Hesab edirdi ki, biz bu vəziyyətlə barışacağıq. Amma mən deyirdim ki, yox, barışmayacağıq. Deyirdim bunu, gərək məni eşidəydilər. Deyirdim ki, gec-tez gələcəyik, bir təpiklə düşməni qovacağıq, öz Bayrağımızı qaldıracağıq və öz doğma torpaqlarımızda yaşayacağıq. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi.

Qeyd etdiyim kimi, Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, “Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!”. Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı.

Bu gün ulu öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda, hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq.

Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, ulu öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək.

Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

***AZƏRTAC***

# Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışında iştirak ediblər.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma Şuşa Otel-Konqres Mərkəzi Kompleksində yaradılan şərait barədə məlumat verdi.

Xatırladaq ki, erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, “şeytan yuvası” – “parlamentin” binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otelin açılışı gerçəkləşdirilir. Prezident İlham Əliyev Şuşaya ilk səfərində - 2021-ci il yanvarın 14-də bu barədə demişdi: “Qondarma rejim bəyan etmişdi ki, “Dağlıq Qarabağ respublikası”nın “parlamentini” Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar “Dağlıq Qarabağ respublikası”nın “parlament” binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi”.





Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. 2022-ci ildə - “Şuşa İli”ndə Karvansaray konsepti əsas götürülən layihənin inşasına başlanılıb. Tikinti işlərinə yerli və xarici şirkətlər cəlb edilib. Bina həm klassik, həm də postmodern memarlıq üslubunda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir.

Bildirildi ki, beşulduzlu kompleks müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn olunub. Binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq olunub. Həmçinin fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunub. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəylinin ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan (əsasən palıd) hazırlanıb. Binanın fasad örtüyünün üzərində və vestibülün girişinin üzlüyündə təbii Şuşa daşı ilə hazırlanmış relyef işləmələr mövcuddur.

Kompleks fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Otel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb.

Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin texniki təchizatı, idarəetmə və enerji təminatı sistemi beynəlxalq standartlara uyğun qurulub. Belə ki, kompleksdə tətbiq olunan müasir idarəetmə panelləri səmərəli fəaliyyəti, təhlükəsizliyi və qonaqların rahatlığını təmin edəcək. Bununla yanaşı, binada ən yüksək texniki normalara uyğun havalandırma sistemləri tətbiq olunub. Kompleksin elektrik enerjisi ilə fasiləsiz və dayanıqlı təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Həmçinin binanın dam örtüyündə yüksək enerji səmərəliliyini təmin edən Günəş enerjisi panelləri də yerləşdirilib ki, bu da “təmiz” enerjiyə keçid istiqamətində görülən işlərin növbəti nümunəsidir.

Qeyd edək ki, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin kitabxanasında 1000-ə qədər kitab mövcuddur. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY, ölkəmizdəki bir sıra səfirliklər (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkmənistan) və Tatarıstanın daimi nümayəndəliyi bu kitabxanaya ümumilikdə 215-ə qədər kitab hədiyyə edib.

Oteldə “Miras Rəsm Qalereyası” tərəfindən Azərbaycanın mədəni irsinə həsr olunan, “Doğma Mədəniyyət Ocağımız” şüarı altında sərgi açılıb. Sərgidə Qarabağdan olan korifey sənətkarlarımızın, eləcə də Azərbaycanın bu bölgəsindən ilham almış şəxslərin əsərləri nümayiş olunur. Ekspozisiyada Xalq rəssamları Nadir Əbdürrəhmanov, Maral Rəhmanzadə, Altay Hacıyev, Səttar Bəhlulzadəyə məxsus 23 rəsm əsəri, o cümlədən qarabağlıların portretləri, eləcə də bu ərazinin gözəl dağ mənzərələri yer alıb. Qarabağ mövzusundan ilhamlanan Xalq rəssamı Akif Əsgərovun, heykəltəraşlar Cavanşir Məmmədovun və Müşfiq Heydərovun 6 sənət nümunəsi də tamaşaçılara təqdim olunur.

Kompleksin ətrafında mövcud ağaclar qorunmaqla geniş sahə yaşıllaşdırılıb, yeni ağaclar və bəzək gülləri əkilib, həyətində müasir interyerə malik daxili bağ salınıb. Burada qapalı və açıq avtomobil dayanacaqları vardır.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, kompleksin yaxınlığında XVIII əsrin sonlarında Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumu ərəfəsində şəhərin müdafiəsinin təşkili məqsədilə İbrahimxəlil xanın göstərişi əsasında fəaliyyət göstərən silah emalatxanası və hazır silah-sursatın saxlanılması üçün anbar və emalatxananın həyətində qazılmış təsərrüfat quyusu da buraya gələcək qonaqlara nümayiş etdiriləcək.

*

Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün əlavə üfüqlər açır. İşğaldan azad olunmuş torpaqlarımızın zəngin iqtisadi potensialı bu ərazilərin bərpası və yenidən qurulması prosesini də sürətləndirir.

İşğaldan azad edilmiş torpaqlarımız tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var.

Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında təməli qoyulan beynəlxalq hava limanları azad edilmiş ərazilərimizin turizm potensialının reallaşmasında, turist cəlbində mühüm rol oynayacaq.

Şuşa şəhəri tarixən Azərbaycanın mədəni, ictimai, siyasi həyatının mühüm mərkəzlərindən biri olub. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilib. Həmin qərarın nəticəsində Şuşada tarixi-mədəni irsin qorunması istiqamətində əhəmiyyətli addımlar atılıb. Lakin işğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib, şəhərin memarlığına və milli-mədəni irsimizə misli görünməmiş ziyan vurulub.

İkinci Qarabağ müharibəsində Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Məhz Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrildi, tariximizə Zəfər Günü kimi həkk olundu. Şuşa Zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşa, həmçinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib.

Şuşa mədəniyyət paytaxtı olduğu kimi, turizm mərkəzi olmaq imkanına da malikdir. Burada təbiət və mədəniyyətin nadir ahənginə şahid olmaq mümkündür. Şuşa şəhəri həm fəsil, həm də nadir memarlıq üslubu baxımından fasiləsiz turizm potensialına sahibdir və bu potensiala uyğun turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir.

***AZƏRTAC***

# Yaradıcılıq Mərkəzi bərpa edilib



**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışında iştirak ediblər.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar sökülərək binanın tarixi formasına qaytarılması işləri yerinə yetirilib.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Yaradıcılıq Mərkəzindəki ekspozisiya salonunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində açılan “Heydər Əliyev və Qarabağ” sərgisi ilə tanış oldular.

Sərgidə ulu öndər Heydər Əliyevin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Eləcə də sərgidə ümummilli liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

*(ardı 5-ci səhifədə)*

# Yaradıcılıq Mərkəzi bərpa edilib



(əvvəli 4-cü səhifədə)

Ümummilli lider Heydər Əliyev qədim Qarabağın tarixini, mədəniyyətini, incəsənətini mükəmməl bilir, böyük diqqət və qayğı göstərərək onun inkişafına çalışırdı. 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu il yanvarın 12-də ümummilli liderin iştirakı ilə "Ağdam–Xankəndi" dəmir yolunun açılışı oldu. Bu, ulu öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər qazanmaqla bir daha sübuta yetirdi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada təşkil edilən Gül Festivalı ilə də tanış oldular.

Qeyd edək ki, festivalın keçirildiyi ərazidə müxtəlif növ güllərdən maraqlı kompozisiyalar qurulub, eləcə də ayrı-ayrı növlərdən olan güllərin sərgisi təşkil edilib.

Ziyarətçilər, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qonaqları mayın 12-dək Gül Festivalındakı sərgi və təqdimatlarla tanış ola biləcəklər.

**AZƏRTAC**

# Natəvan, Zəfər, Qarabağ və Xan Şuşinski küçələrində lövhələr qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Şuşada Xurşidbanu Natəvan və Zəfər küçələrində, həmçinin Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsindəki lövhələrin açılışlarında iştirak ediblər.**




Dövlətimizin başçısına və birinci xanıma küçələrdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, uzunluğu 438 metr, eni isə 14 metr olan Xurşidbanu Natəvan küçəsi şəhərin tarixi-mərkəzi hissələrini əhatə edir. Vətən müharibəsində şanlı Qələbənin şərəfinə adlandırılan Zəfər küçəsinin uzunluğu 1963 metr, eni isə yol yatağına uyğun olaraq 10-11 metr aralığında dəyişir. Şuşada əsas küçələrdən biri də Qarabağ küçəsidir. Bu küçənin uzunluğu 338 metr, eni isə 11 metrdir. Azərbaycanın Xalq artisti, görkəmli xanəndə Xan Şuşinskinin adını daşıyan küçənin uzunluğu 293 metr, eni isə 10 metrdir.

Qeyd olundu ki, Şuşanın tarixi-mədəni irsinin bir sıra nümunələrinin yerləşdiyi bu küçələr şəhərin orijinal memarlıq üslubuna uyğun qaydada yenidən qurulacaq. Yenidənqurma işləri zamanı bu küçələrdə ən müasir infrastruktur yaradılacaq.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtükləri götürdü.

**AZƏRTAC**

# Yuxarı Gövhər Ağa məscidi əsaslı yenidən qurulub və bərpa edilib





**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışında iştirak ediblər.**

Dövlətimizin başçısı və birinci xanım, həmçinin ensiklopedik alim Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunmuş sərginin açılışında iştirak ediblər.

Əvvəlcə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məsciddə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Yuxarı Gövhər Ağa məscidində 2021-ci ilin sonlarından aparılan bərpa işləri başa çatıb. Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Bu, müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədi ilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universiteti nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında araşdırılıb.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb.

Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib.

Məlumat verildi ki, bərpa işləri mədrəsə binasını da əhatə edib. Məscidin mədrəsə hissəsində taxta dam konstruksiyanın qurulması işləri tamamlanıb. Mövcud döşəmə örtüyünün sökülməsi və qalıqların təmizlənməsi işləri başa çatdırılıb. Hazırda mədrəsə binasının ərazisində məscid minarəsinin ornamentləri və otaqların rəsmlərini işləmiş Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunan sərgi açılıb.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri, həmçinin məscidin ərazisində yerləşən mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabaği – XIX əsrin ensiklopedik alimi" sərgisi ilə tanış olublar.

Qeyd edək ki, Qarabağ ədəbi mühitinin görkəmli nümayəndələrindən biri - istedadlı şair, rəssam, musiqişünas, filosof, pedaqoq Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunmuş sərgidə onun Milli Azərbaycan Tarixi Muzeyində qorunan və XVIII–XIX əsrlərə məxsus Azərbaycan silah sənətini özündə təcəssüm etdirən şəxsi silah kolleksiyası, şairin müəllifi olduğu, illüstrasiya çəkdiyi və Şuşada öz nəşriyyatında çap etdiyi kitablar, onun musiqi, kimya, astronomiya sahəsində fəaliyyətinin əks olunduğu eksponatlar nümayiş etdirilir. Sərgidə astronomiya elmi ilə maraqlanan Mir Möhsün Nəvvabın bu sahə üzrə çəkdiyi cədvəllər, səma cisimlərinin yerləşməsi və Günəş tutulmaları ilə bağlı sxemləri də nümayiş olunur.

**AZƏRTAC**

# Saatlı məscidinin açılışı

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışında iştirak ediblər.**



Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşadakı Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəl Molla Pənah Vaqifin dərs keçdiyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub.

Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb.

İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib.

Aparılan analizlər nəticəsində minarənin üzərindəki naxışların ilkin rəngi müəyyən olunub və minarə ona uyğun bərpa edilib, ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılıb.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri məscidin həyətində ağac əkdilər.

**AZƏRTAC**



# Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı istifadəyə verilib





**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Milli Xalça Muzeyinin Şuşa filialının açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib.

Qarabağ torpaqlarının Ermənistanın işğalına məruz qaldığı dövrdə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi.

Hazırda Şuşada yeni xalça ekspozisiyası təqdim olunur.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri muzeydə sərgilənən eksponatlar və sənət əsərləri ilə tanış oldular.

Ekspozisiyada vaxtilə təxliyə edilmiş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Burada ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.

Ziyarətçilərin eksponatlar haqqında daha dolğun məlumat əldə edə bilmələri üçün ekspozisiyada sensor ekran quraşdırılıb. Ekranda Qarabağın, xüsusilə də Şuşanın maddi və qeyri-maddi irs nümunələri, kübar ailələri, xarici kolleksiyalarda qorunan Qarabağ xalçaları, Şuşa filialının 1992-2022-ci illər ərzindəki fəaliyyəti haqqında məlumatlar verilir.

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü, bədii dünyagörüşünü duymağa, həmin tarixi mühiti təsəvvür etməyə imkan yaradır.

**AZƏRTAC**

# R.C.Abdullayevə Heydər Əliyev Mükafatının verilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Rauf Canbaxış oğlu Abdullayevə Heydər Əliyev Mükafatı verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 10 may 2023-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə rəsmi instaqram hesabında paylaşım edib.**




Heydər Əliyevin nurlu xatirəsinə
10.05.2023. Şuşa.

Əsrarəngiz və bənzərsiz Şuşa.

Ağaclar sıx çətirli, hava təmiz, şəffaf, nəfəs sanki həyatverici eliksir kimidir. Səma son dərəcə mavidir.

Daş döşənmiş dar küçələr. Yerlə-yeksan olmuş evlər, dağıntılar, amma özünəməxsus, doğma görkəmini qoruyub saxlamış dağıntılar.

Ətrafda biçilməmiş sıx otlar. Bəzi yerlərdə al lalələr baş qaldırıb.

Şuşanın sədasını necə təsvir etmək olar? Bəzən bu, tam, lal sükutdur. Quşların səsi, yarpaqların pıçıltısı şəhərin nəfəsidir.

Gəzmək, küçə və döngələr boyu dolanmaq, ağaclara toxunmaq, qədim daşlara sığal çəkərək ovcunla güllələrin izini silmək istəyirsən.

Cıdır düzündə vaxtın necə keçdiyini hiss etmirsən. Ətrafda ancaq ucsuz-bucaqsız dağlar və mavi səma görünür. Otun üzərində uzanasan və bəxtin gətirsə, qartalların səssiz uçuşunu - sanki yavaşıdılmış çəkilişdəki kimi onların nəhəng qanad çalmağını seyr edəsən.

Sehrli Şuşa şəhərində qəlbində olan hissləri təsvir etmək üçün sözləri necə seçəsən? Fikirlər məni keçmişə aparır...

Ölkə uçurum kənarındadır, işğal olunmuş torpaqlar, xəyanətin qurbanı olmuş Şuşa.

Köçkünlər, köçkünlər, yüz minlərlə köçkün...

Çaşqınlıq, bəla və sonsuz ağrı-acılar. Bax, belə bir vaxtda - 1993-cü ilin payızında Siz – yaşlı, ağır xəstəlik keçirmiş İnsan Azərbaycana rəhbərlik etməyə başladınız. Sanki Siz və ölkə eyni zamanda xəstəliyə düçar olmuşdunuz.

Sanki itkilərin, ədalətsizliyin şiddətli ağrısı Sizi yenidən xalqa, xalqı isə Sizə qaytardı.

Sonrası Uca Tanrı tərəfindən yazılmışdır. Sonra bizi ecazkar Şuşa şəhərinə uzun yol gözləyirdi.

Sonra sağalma, dirçəliş, qurub-yaratma. Qürurumuzu özümüzə qaytarma. Zəfər qazanıldı!

Uca Tanrının yazısı Sizin müdrikliyiniz, sarsılmaz, möhkəm iradəniz, Vətəninizə, bizim hər birimizə sonsuz sevginiz sayəsində gerçək oldu.

Gözlərimin önündə sevincli, işıqlı, həyəcanlı xatirələr canlanır. Bu xatirələr mənimlədir, mənimlə olacaq.

Sizin gözləriniz, təbəssümünüz, gülüşünüz və göz yaşlarınız. Danışdığınız əhvalatlar, verdiyiniz məsləhətlər, heç də asan olmayan suallara cavablarınız. Bağışlamaq, sevmək bacarığınız.

Sizin əyilməzliyiniz, iradəniz, öz xalqınıza inamınız – bütün bunlar əbədi olaraq bizimlədir.

Orada - uzaqlarda, səmalarda Siz Şuşanın səsini eşidir və hamımıza öz sevginizi, bizə, Azərbaycana inamınızı göndərirsiniz.

Heç də təsadüfi deyil ki, bu gün Cıdır düzünün səmasında məğrur qartallar qanad çalır.

Sizə sonsuz ehtiramla.

# Dəmir Yumruq küçəsində lövhənin açılışı




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada Dəmir Yumruq küçəsinin lövhəsinin açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma küçədə aparılan bərpa-yenidənqurma işləri barədə məlumat verildi.

Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsini təmin edən və xalqımızın sarsılmaz birliyinin rəmzinə çevrilən Dəmir Yumruğun şərəfinə adlandırılan bu küçə şəhərin mərkəzi hissələrini əhatə edir. Dəmir Yumruq küçəsinin uzunluğu 2473 metr, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir. Bərpa-yenidənqurma işləri Şuşanın tarixi görkəminə uyğun qaydada yüksək səviyyədə aparılır.

Dövlətimizin başçısı Dəmir Yumruq küçəsinin lövhəsinin açılışını etdi.

**AZƏRTAC**

# İsrail Prezidenti ümummilli lider Heydər Əliyevin yubileyi münasibətilə təbrik paylaşımı edib

**İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Azərbaycan xalqını təbrik edib.**

Bu barədə İsrail Prezidentinin Ofisi rəsmi tviter səhifəsində paylaşım edib: “Azərbaycan Prezidenti kimi ölkələrimiz arasında əlaqələrin əsasını qoymuş Heydər Əliyevin 100 illik yubileyini təqdirlə qeyd edirik. Təbriklər!”




# Gürcüstanda yaşayan soydaşlarımız ulu öndərin xatirəsini ehtiramla anıblar

**Gürcüstanın müxtəlif bölgələrində yaşayan soydaşlarımız mayın 10-da paytaxt Tbilisiyə gələrək ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıblar.**



Marneulidəki “Azərbaycan Evi”nin, “Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi”nin, “Alyans Gənclər Mərkəzi”nin, “Qanun” Hüquqi Yardım Mərkəzinin, “Tea House”, Bolnisidəki “Qafqaz Hüquq və İnteqrasiya Mərkəzi”nin və Dmanisi Tədris Mərkəzinin rəhbər heyəti, eləcə də Gürcüstanda səfərdə olan Diaspora İş üzrə Dövlət Komitəsinin əməkdaşları Tbilisidəki Heydər Əliyev Parkında ümummilli liderin abidəsini ziyarət edib, büstün önünə gül dəstələri düzüblər.

“Azərbaycan Evi”nin direktoru Məhəbbət İmanov dünya azərbaycanlılarının ümummilli lideri, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin həyat və fəaliyyəti, şərəfli ömür yolunun məhz Azərbaycan xalqına, dövlətinə həsr etdiyini bildirib.

Məhəbbət İmanov bildirib ki, Azərbaycan xalqı və dünya azərbaycanlıları var olduqca, ulu öndər Heydər Əliyev daima qəlblərdə əbədiyaşar liderimiz kimi yaşayacaq. Onun banisi olduğu müasir Azərbaycan bu gün bütöv, suveren və müstəqil dünyada və regionda söz sahibinə çevrilib.



# Prezidentin Heydər Əliyev manifesti və ya Şuşa ruhumuzun təntənəsi

**Prezident İlham Əliyevin Azərbaycan xalqına 10 may 2023-cü il tarixli müraciəti əsl Heydər Əliyev manifestidir. Manifestdə ümummilli liderin ruhuna dərin hörmət və ehtiramı vurğulamasındakı başlıca məqam isə onun, məhz, Şuşadan səslənməsidir. "Heydər Əliyev İli"nə bundan böyük dəyər ola bilməz. Çünki dövlətimizin başçısının bildirdiyi kimi, "Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik".**

## *"Tapşırıq yerinə yetirildi, ulu öndər! Məruzə edir Ali Baş Komandan İlham Əliyev"*

Prezident İlham Əliyevin müraciəti Heydər Əliyev və Azərbaycan mövzusunun bütün aktuallığını incəliklərinədək özündə birləşdirməkdədir. Aktuallıq isə tarixə söykənir. O tarixə ki, onu ulu öndər özü yazmışdı. 1969-cu ildə Azərbaycana rəhbər seçilməklə həyatın bütün sahələrində əsaslı irəliləyişlərə nail olmuş, respublikamızı keçmiş imperiyanın milli ucqarı statusundan çıxararaq, yüksəklərə qaldırmışdı. Ən əsası isə bəlalarımızın qarşısını almışdı.

Deməli, dahi şəxsiyyətin SSRİ olimpindən uzaqlaşdırılmasından dərhal sonra Qarabağda erməni iddialarının baş qaldırmasında da bir məntiq var. Sanki fürsət gözləyirmişlər. Həm də nəzərə alaq ki, bu iddialar özünü 1987-ci ildən əvvəl də göstərməyə başlamışdı. Lakin dahi liderin prinsipiallıq və qətiyyət müqaviməti ilə üzləşmişdi. Bu məqamı xalqa müraciətində Prezident İlham Əliyev də önə çəkdi: "1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdılar və Azərbaycan xalqının faciələri o gündən başlamışdır.

Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar. Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu".

Bəli, ulu öndər Heydər Əliyev respublikamızı çətir kimi qoruyurdu. Böyük şəxsiyyət ölkəmizə birinci rəhbərliyi dönəmində erməni avantürizmini görür və buna qarşı konkret tədbirlər həyata keçirirdi. Mədəni, ictimai sahəni əhatə edən bu tədbirlər Qarabağın Azərbaycana məxsusluğunun vurğulanmasını hədəf seçirdi. Beləliklə, müqəddəs qurd yerlərimizin, belə demək mümkünsə, erməniləşdirilməsinin qarşısına sədd çəkirdi.

Əlbəttə, siyasət səhnəsindən qalib ayrılmış Heydər Əliyev şəxsiyyəti müvəqqəti uğursuzluqdan ruhdan düşə bilməzdi. Azərbaycana, Azərbaycan xalqına xidmət amalı, bu amal uğrunda mübarizə ruhu ulu öndərin əzmini daim diri saxladı. 20 Yanvar faciəsi yaşananda bu əzm özünün ilk təntənə anını yaşadı. Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, xalqımızın başına gətirilmiş qorxunc hadisəni qətiyyətlə pislədi.

Ulu öndər Heydər Əliyevin həmin çıxışı Azərbaycan xalqına qarşı böyük haqsızlığa açıq üsyan idi. Əslində, bu dahi liderin yenidən hakimiyyətə qayıdışı da eyni mahiyyət daşıyırdı. Xalqımız onun şəxsində özünün müqavimət potensialını nümayiş etdirirdi ki, bu isə Allahın bizə olan böyük lütfü idi. Bu lütf, həmçinin xalqımızın dövlətçilik şüurunun və ruhunun zəfəri idi.

İlk zəfərimizi 1993-cü il iyun ayının 15-də qazandıq. Onun əsası isə Naxçıvan işğal təhlükəsindən qurtulanda qoyulmuşdu. Ulu öndər orada Azərbaycan dövlətinin mini modelini formalaşdırmaqla, müqəddəs diyarımızın qorumuşdu. 15 İyunda isə həmin modeli bütövlükdə ölkəyə tətbiq etmiş, təməl yaratmışdı. Möhkəm təməl isə böyük uğurların rəhninə çevrildi. Azərbaycan ulu öndər Heydər Əliyevin prezidentliyi ilə güclü inkişaf yoluna qədəm qoydu. Bu inkişaf üçün məqsəd Azərbaycan insanın sosial rifah halının yüksəldilməsi, hədəf Qarabağ idi.

Bəli, Prezident Heydər Əliyev Azərbaycanın Qarabağ dirənişinin təməlini qoydu. Dövlət başçısı kimi dünyanın elə bir mötəbər tribunası qalmadı ki, orada çıxış edib Qarabağ həqiqətlərini car çəkməsin. Elə bir mühüm beynəlxalq tədbir olmadı ki, ulu öndər yorulmadan, usanmadan orada Azərbaycan xalqının üzləşdiyi məhrumiyyətləri, acıları diqqətə çatdırmasın. Daxildəki çıxışlarında və müraciətlərində xalqın Qarabağ əzmini daim yüksək tutdu.

Ulu öndər Şuşa əzmini formalaşdırdı və bu əzmə müqəddəslik çalarları gətirdi. Prezident İlham Əliyev isə dünən xalqa müraciətində bildirdi ki, İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Tam əminliklə demək mümkündür ki, Şuşanın timsalında o ruhu aşılayan, Qarabağ davamıza qətiyyət gətirərək, onu xalqımızın mənlik şüurunda ucaldan ümummilli lider Heydər Əliyev olmuşdu. Xüsusən də bu fikirləri ilə: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

Şuşaya ruhsuz getmək olmaz. Ruhsuz gedənlərin otuz illik kirlətdiyi bu şəhərdə onların vandallığından başqa heç bir izlərinə rast gəlinmir. Günümüzün Şuşası həmin izləri də üzərindən ataraq çiçəklənməkdədir. Bu şəhər 30 illik işğalında belə heç bir yad nəfəsi götürmədi. Çünki bu şəhərin ruhu bizə aiddir. Çünki Cıdır düzü ruhumuzun sərhədsizliyinin, genişliyinin məkanıdır. Şuşa sadəcə evimiz deyil, Allaha inancımızdır, var olmağımızdır. Ulu öndər Heydər Əliyev Şuşanın müqəddəslik təsvirindəki ideya da məhz budur. Bu ideyanı Prezident İlham Əliyev xalqa müraciətində son dərəcə həssas notlarla qabartdı: "Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport verilən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Bəli, Şuşanın azad olunmağı silahdan daha çox, ruh məsələsidir. Şəhəri qurtarmaq üçün Azərbaycan əsgərinin keçirdiyi misilsiz əməliyyatda xalqımız bütün ruhu ilə iştirak edirdi. Heç bir yerdən xəbər almasa da, bu əməliyyatdan hər bir azərbaycanlı agah idi.

Əsgərimizin Şuşanın sıldırım qayalarına çıxmağı necə bacardığı bütün dünyaya sirr olaraq qalacaq. Bəlkə, heç kim anlaya bilməyəcək ki, onları sıldırım qayalara Azərbaycan xalqının ruhu qaldırırdı. Həm də sadəcə bu gün yaşayan deyil, gəlmiş-keçmiş, hətta, dünyaya gələcək olan bütün azərbaycanlıların ruhu. O üzdən Şuşa bizim yalnız mədəniyyət beşiyimiz deyil, həm də ruhumuzun şəhəridir.

Bəli, tam qətiyyətlə deyə bilərik ki, Şuşaya əsgərlərimizi, məhz, Heydər Əliyev şəxsiyyətinin aşıladığı mənəvi ruh qaldırdı. Çünki bu mənəviyyatın ən böyük ifadəçisi, təbliğatçısı idi Heydər Əliyev. Bu mənada Prezident İlham Əliyev özü ilə qürur duymağa layiqdir. Ona görə ki, ulu öndər Heydər Əliyevdən sonra onun ruh verərək müqəddəslik qazandırdığı Qarabağ estafetini layiqli şəkildə davam etdirdi, başa çatdırdı. Bu gün torpaqlarımız azaddır, dövlət suverenliyimiz bərpa olunub. Şair dostumuz Elçin Mirzəbəylinin "Kabus qatar" şeirinin ikinci hissəsində dediyi kimi:

**İndi bütöv elim - bütöv taleyim,**
**Dünyanın ən gözəl ölkəsindəyəm.**
**Ən uca zirvəyə könül bağlayan**
**Üçrəngli bayrağın kölgəsindəyəm.**

Bəli, Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevdən təhvil aldığı Qarabağ estafetində nümayiş etdirdiyi qətiyyətin və prinsipiallığın nəticəsində Qarabağ davasına köklənmiş nəsil yetişdi. Elə bir nəsil ki, dövlətimizin başçısının da bildirdiyi ki, həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azadlığına qovuşdurdu: "Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh!"

**Əvəz CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

# Əsrin dahisi, tarix yaradan insan

**Müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, dahi şəxsiyyət, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Gəncə şəhərində təşkil edilən tədbirlər çərçivəsində Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Dövlət Filarmoniyasında yubiley mərasimi keçirilib.**



Toplantıda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin və Gürcüstanın Gəncədəki baş konsulları Recep Öztop, Nikolos İaşvili, Quru Qoşunların komandanı, general-mayor Ənvər Əfəndiyev, şəhərdə fəaliyyət göstərən idarə, müəssisə, təşkilat rəhbərləri, ziyalılar, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılar ulu öndər Heydər Əliyevin Gəncə şəhərinin Baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər, xatirəsinə dərin ehtiram ifadə ediblər.

Daha sonra Niyazi Bayramov ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdəki fəaliyyəti ilə bağlı məruzə ilə çıxış edib. O qeyd edib ki, ulu öndər tarixi şəxsiyyət olmaqla yanaşı, məhz tarix yaradan şəxsiyyətdir! Onun yaratdığı tarix 50 milyondan artıq azərbaycanlının qürur mənbəyidir. Heydər Əliyevin bioqrafiyası ilə Azərbaycan tarixi biri-birini tamamlayır. Ulu öndər Heydər Əliyevin doğum günü də tariximizin ən parlaq məqamlarındandır. Bu baxımdan ümummilli liderin 100 illik yubileyi ilə bağlı silsilə tədbirlər kütləvi xarakter daşıyır.

Niyazi Bayramov daha sonra deyib: "Ulu öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı böyük uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirib. Xalqımız ulu öndər Heydər Əliyevin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. Müstəqil Azərbaycan ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu gün dahi öndərimiz aramızda olmasa da, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, hətta bizdən öndə addımlayır, yaşayır, yaşadılır".

Sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan "Əsrin adamı" adlı film nümayiş olunub.

Rəsmi hissədən sonra Azərbaycan Milli Elmlər Akakdemiyasının Gəncə Bölməsi tərəfindən nəşr olunan "Heydər Əliyev və Gəncə" adlı monoqrafiya təqdim olunub. Nəfis tərtibatda nəşr olunan kitabda Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövlərdə Gəncəyə səfərləri barədə məlumat, elm, təhsil, səhiyyə və mədəniyyət xadimlərinin ulu öndərlə bağlı xatirələri yer alıb.

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

**Gəncə**



# Gəncə avtomobil zavodu ulu öndərin yadigarıdır

**Gəncə Avtomobil Zavodu İstehsalat Birliyində ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib. Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsindən sonra dahi şəxsiyyət Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.**

Konfransı giriş sözü ilə açan birliyin direktoru Bağban Nəbiyev ulu öndərin həyat və fəaliyyətindən, onun Azərbaycanda sənayenin, elmin, təhsilin, səhiyyənin və digər sahələrin inkişafındakı rolundan danışmışıb.

Qeyd olunub ki, Gəncənin Azərbaycanın ikinci sənaye şəhərinə çevrilməsi birbaşa ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. O illərdə avtomobil, çini qablar, "Büllür" zavodları, çənnadi fabriki, xalça kombinatı və digər böyük istehsal gücü olan müəssisələr Heydər Əliyevin təşəbbüsü və köməyi ilə Gəncədə fəaliyyətə başlamışdır. Avtomobil zavodunun Azərbaycana salınmasına mane olan qüvvələr vardı və bu işdə ermənilər də xüsusi cənfəşanlıq göstərirdilər. Amma ulu öndərin Siyasi büroda və keçmiş ittifaqda olan nüfuzu buna imkan verməd və o, bütün maneələrə baxmayaraq zavodun Gəncəyə salınmasına nail oldu. 80-ci illərin sonları və 90-cı illərin əvvəlləri məlum hadisələr nəticəsində müəssisənin tikintisi yarımçıq qalsa da 2004-cü müzəffər Ali Baş Komandan İlham Əliyev ümummilli liderin bu arzusunu reallaşdırdı və bu gün Gəncə avtomobil zavodu Azərbaycanın avtomobil sənayesinin flaqmanıdır.

Konfransda birliyin mətbuat katibi Məqsəd Rəhimov çıxış edərək deyib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkəmiz nəzərəçarpacaq dərəcədə inkişaf etmiş, dünya ölkələri sırasında tanınmağa başlamışdır.

Digər çıxış edənlər də vurğulayıblar ki, ölkəmizin hərtərəfli inkişafı üçün ümummilli liderimizin hazırladığı və dövlətimizin başçısı tərəfindən hazırda inamla inkişaf etdirilən srateji istiqamətlər müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın rifah səviyyəsinin daha da yüksəldilməsi işinə xidmət edir.

Konfransın sonunda dahi şəxsiyyət Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev Gəncə avtomobil zavodunun yaradıcısıdır" adlı sənədli filmin nümayişi olunub.

**H.ZEYNALOĞLU,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Prezident Administrasiyasının rəhbəri Heydər Əliyevin məzarını ziyarət edib



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar mayın 10-da Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev əbədiyaşar liderin Fəxri xiyabanda məzarını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Samir Nuriyev ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin əziz xatirəsinə dərin ehtiramını bildirib.

Sonra Prezident Administrasiyasının rəhbəri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstəsi qoyub.

# Naxçıvan dahi yetirməsini və xilaskarını ehtiramla yad edib

**Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında muxtar respublikada Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Muxtar Respublika Ali Məclisi və Nazirlər Kabinetinin təşkilatçılığı ilə ümummilli lider, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təntənəli yubiley mərasimi keçirilib.**






Əvvəlcə iştirakçılar ulu öndərin abidəsini ziyarət etdikdən sonra, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 10 may 2023-cü il tarixli "Heydər Əliyev Muzeyinə "muxtar respublika" statusunun verilməsi haqqında" qərarı elan edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli deyib ki, respublikamızın bütün bölgələrində ulu öndərin ömür yolu, dövlətçilik fəaliyyəti, onun zəngin irsi araşdırılır və 100 illik yubileyi təntənə ilə qeyd olunur. Bu gün müstəqil Azərbaycanın uğurla inkişaf etdirilməsi məhz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Dahi rəhbər Azərbaycan Sovet Sosialist Respublikasının inkişafı üçün əlindən gələni edirdi. O, həmişə Azərbaycan Respublikasının müstəqilliyi üçün çalışıb.

Qeyd olunub ki, 1982-1987-ci illər ulu öndərin həyatında xüsusilə vacib idi. Sovet İttifaqında hakimiyyət iyerarxiyasının ən yüksək mərhələlərinə yüksəlmiş ikinci bir azərbaycanlı yox idi. O dövrdə də ümummilli lider Azərbaycandan diqqətini ayırmamışdı. Ölkəmizdə zavodlar tikilirdi, mədəniyyət müəssisələri fəaliyyət göstərirdi, kənd təsərrüfatı sahəsi inkişaf edirdi, mərkəzdən ayrılan vəsaitin əsas hissəsi Azərbaycanın inkişafına yönəldilirdi.

Səlahiyyətli nümayəndə ulu öndərin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıtmasından, taleyüklü qərarlar qəbul etməsindən, muxtar respublikanı işğaldan qurtarmasından, yenidən Azərbaycanda hakimiyyətə gələrək ölkənin hərbi, iqtisadi, mədəni cəhətdən inkişaf etdirilməsi uğrunda atdığı addımlardan və bu istiqamətdə keçirdiyi görüşlərdən də ətraflı danışıb.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu siyasi xətti uğurla davam etdirir. 30 ildən artıq bir müddətdə Azərbaycanda qara yaraya çevrilmiş Qarabağ konflikti artıq tarixin zibilliklərinə atılıb. Vətən müharibəsindən sonra yaranmış daha bir reallıq isə Zəngəzur dəhlizi layihəsidir. Naxçıvan Muxtar Respublikası üçün də Zəngəzur dəhlizi çox böyük perspektivlər açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov deyib ki, ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıtması, 1991-ci il sentyabrın 3-dən 1993-cü il iyunun 9-dək olan müddətdə muxtar respublika Ali Məclisinin Sədri kimi fəaliyyət göstərməsi Naxçıvanı işğaldan, məhv olmaq təhlükəsindən xilas etdi. 1993-cü ilin 9 iyununda dahi siyasətçi xalqın təkidli tələbi ilə Bakıya gəldi. Ölkənin parçalanmaq məqamında, iqtisadiyyatın iflic vəziyyətdə olduğu vaxtda bütün məsuliyyəti çiyinlərinə götürən, öz missiyasını xalqa və dövlətə xidmət əsasında quran dahi öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu qayıdış yenicə müstəqillik qazanmış bir dövlətin müqəddəratını həll edən, onu inkişaf və tərəqqi yoluna çıxaran siyasi xəttin başlanğıcı, itirilmiş ümidlərin yenidən canlanması idi.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov bildirib ki, ulu öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev qısa zamanda ümummilli maraqlara əsaslanan və ali dəyərlərə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi və inkişafı təmin etdi. Bu gün ümummilli liderin siyasi xəttini uğurla davam etdirən, arzularını yerinə yetirən Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində əldə edilən çoxsaylı uğurlar sırasında ən uca zirvədə isə Vətən müharibəsində qazandığımız parlaq Qələbə dayanır.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının III kurs tələbəsi, Heydər Əliyev adına təqaüdçü Məryəm Azadın çıxışları dinlənilib.

Sonra Azərbaycan Televiziyasının hazırladığı ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Əsrin adamı" filminə baxış olub. Mərasim bədii hissə ilə davam edib.

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"**

**Naxçıvan**

# DTX-də ulu öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd olunub

**Dünən Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev və Xidmətin şəxsi heyəti Fəxri xiyabanı ziyarət edərək ümummilli liderin xatirəsini dərin ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.**





Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) dahi rəhbərlə birlikdə uzun illər çalışmış veteran əməkdaşların xatirələrindən ibarət "Ulu öndər silahdaşlarının xatirələrində" adlı kitab təqdim olunub.

Tədbir DTX-nin akt zalında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin ərsəyə gətirdiyi, Heydər Əliyevin təhlükəsizlik təşkilatındakı fəaliyyətindən başlayaraq müstəqil Azərbaycanın rəhbəri olduğu dövrədək milli maraqların qorunması yolunda xidmətindən bəhs edən "Generalın planı" sənədli filminin təqdimat mərasimi ilə davam etdirilib.

DTX-nin rəisi general-polkovnik Əli Nağıyev çıxış edərək Azərbaycan təhlükəsizlik orqanlarında milliləşdirmə prosesinin banisi kimi Heydər Əliyevin doğma Vətəninin və xalqının mənafelərinə xidmət edən dövlətçilik strategiyasından, təhlükəsizlik orqanlarında gördüyü mühüm işlərdən ətraflı söhbət açıb, ulu öndərin yürütdüyü uğurlu daxili və xarici siyasət kursunun Azərbaycanın davamlı tərəqqisinə gətirib çıxardığını, Prezident İlham Əliyevin bu siyasi xətti müvəffəqiyyətlə davam etdirməsini xüsusi vurğulayıb.

Filmin ssenari müəllifi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Rüfət Həmzəyev, quruluşçu rejissor Elnur Məmmədov sənədli filmin hazırlanması prosesində qarşılaşdıqları maraqlı məqamlar barədə fikirlərini bölüşüblər.

Tədbir "Generalın planı" sənədli filminin nümayişi ilə başa çatıb.

**Q.QASIMOV, "Xalq qəzeti"**

# Maliyyə Nazirliyində təntənəli mərasim



**Dünən Maliyyə Nazirliyində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**

Nazir Samir Şərifov müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqına, dövlətinə həsr etdiyi ömür yolundan, Vətən və xalq qarşısında tarixi xidmətlərindən bəhs edib, ümummilli lider Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illərin ölkəmizin tarixinə yüksəliş və inkişaf dövrü kimi yazıldığını deyib.

Bildirilib ki, bu gün Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə Azərbaycan Respublikası siyasi sabitlik, iqtisadi güc, sosial rifah, tarix yazan güclü ordu, nüfuzlu və etibarlı tərəfdaş ölkə statusunda öz qüdrətli dövrünü yaşayır və bu, bir daha Heydər Əliyevin dövlətçilik məfkurəsinin bugünkü və gələcək inkişafımızın birbaşa təminatçısı olduğunu təsdiqləyir.

Sonda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Əbədiyyətin ilk əsri. Heydər Əliyev 100" filmi nümayiş etdirilib.

# Səfirliyimizin yeni inzibati binası istifadəyə verilib

**Mayın 10-da Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyində xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qəbul keçirilib və bir müddət əvvəl inşası başa çatmış səfirliyin yeni inzibati binasının rəsmi açılışı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə fövqəladə və səlahiyyətli səfir Həsən Zeynalov Azərbaycan səfirliyinin yeni inzibati binasının bir müddət əvvəl inşa edilsə də rəsmi açılışının məhz ulu öndər Heydər Əliyevin 100 illik yubileyi günü həyata keçirilməsinin qərara alındığını bildirib.

Mərasimdə Türkmənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi, Türkmənistanda fəaliyyət göstərən xarici ölkələrin səfirləri və əməkdaşları, media və ictimaiyyət nümayəndələri, eləcə də soydaşlarımız iştirak ediblər.

# Dövlət və hökumət rəsmiləri ümummilli liderin xatirəsini anıblar





**Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümüdür.**

Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

# YAP nümayəndələri ulu öndərin məzarını ziyarət ediblər

**Mayın 10-da müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri Fəxri xiyabana gələrək, ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**





Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

*Q.QASIMOV, "Xalq qəzeti"*

# Mədəniyyət paytaxtında möhtəşəm 100 ilin izləri nümayiş etdirilib




**Mayın 10-da Şuşa şəhərində müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "İz" adlı sənədli film nümayiş etdirilib.**

Filmin nümayişində dövlət və hökumət rəsmiləri, hazırda Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qonaqları, tanınmış mədəniyyət, incəsənət və elm xadimləri iştirak ediblər.

Heydər Əliyev Fondu tərəfindən təqdim edilən ekran əsərində ulu öndərin həyat və fəaliyyətindən bəhs olunub. Filmin ssenarisi ümummilli lider Heydər Əliyevin çıxışları əsasında onun siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edir.

Filmdə ümummilli liderin həyatı, Azərbaycana və xalqa bağlılığı, Azərbaycanın müstəqil dövlət kimi qüdrətlənməsi, Qarabağın işğaldan azad edilməsi istiqamətində apardığı ardıcıl siyasətdən bəhs olunur. Eyni zamanda, işğal altındakı torpaqlarımızın Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə otuz illik işğaldan azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, bununla da ümummilli lider Heydər Əliyevin vəsiyyətinin və arzularının reallaşması da filmdə yer alıb.

# Şuşada "Heydər Əliyev və Qarabağ" sərgisi

**Şuşadakı Heydər Əliyev Fondu tərəfindən bərpa edildikdən sonra bu gün açılışı olan Yaradıcılıq Mərkəzinin ekspozisiya salonunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyev və Qarabağ" sərgisi açılıb.**



Sərgidə ulu öndər Heydər Əliyevin ardıcıl, məqsədyönlü siyasəti nəticəsində Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən unikal fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Həmçinin sərgidə ümummilli liderin vaxtı ilə Qarabağa səfərləri, burada keçirdiyi görüşlər, müxtəlif tədbirlərə aid fotolar da yer alır.

Sərginin ekspozisiyasından aydın görünür ki, ulu öndər dünyanın ən qədim mədəniyyət ocaqlarından biri olan Qarabağın tarixini, mədəniyyətini, incəsənətini mükəmməl bilir, böyük diqqət və qayğı göstərərək onun inkişafına çalışırdı. 1969-cu ildən başlayaraq Qarabağ və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgədəki həyatın bütün sahələrində geniş islahatlar həyata keçirməyə nail oldu. 1979-cu il yanvarın 12-də ümummilli liderin iştirakı ilə "Ağdam–Xankəndi" dəmiryolunun açılışı oldu və istifadəyə verildi. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi.

Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər qazanmaqla bir daha sübuta yetirdi.

Sərgi ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

# "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası"

**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə ali məktəbin dilçi yetirmələrinin töhfəsi olan "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" kitabının təqdimat mərasimi keçirildi.**





Universitetin rektoru, professor Cəfər Cəfərov ulu öndər Heydər Əliyevin ana dilinin dövlət dili ststusu qazanması uğrunda mübarizəsinin xalqımızın məfkurə sisteminin formalaşmasında və istiqlal savaşında önəmli rolundan, müstəqillik illərində Azərbaycan dilinin cəmiyyət həyatında hakim ünsiyyət vasitəsinə çevrilməsi üçün gerçəkləşdirdiyi tədbirlərdən söz açdı. Ali məktəb rəhbəri bildirdi ki, universitetin filologiya fakültəsinin yetirmələri olan dilçi professorlar – ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Mahirə Hüseynovanın və AMEA Dilçilik İnstitutunun şöbə müdiri Sayalı Sadıqovanın ulu öndərin əlamətdar yubileyi münasibətilə ərsəyə gətirdikləri "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası" kitabında müstəqil dövlətin dil siyasətinin əsasını təşkil edən məsələlər dərindən tədqiq olunub, geniş elmi şərhini tapıb.

Fundamental nəşrin müəllifləri Mahirə Hüseynova və Sayalı Sadıqova kitab üzərində birgə yardıcılıq işindən, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə ana dilinin qorunması və zənginləşdirilməsi ilə bağlı gerçəkləşdirdiyi ardıcıl, məqsədyönlü və kompleks tədbirlərdən söz açdılar.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı Şahin İsmayılov, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva, ADPU-nun əməkdaşları Könül Səmədova, Həmzə Əliyev, Mirvari İsmayılova Heydər Əliyevin milli dövlət quruculuğu strategiyasının önəmli yönlərindən olan dil siyasətindən danışdılar, bu tarixi mücadilənin təqdim olunan kitabda layiqli əksini tapdığını bildirdilər. Onlar qeyd etdilər ki, Azərbaycan rəhbəri Heydər Əliyevin milli-mənəvi dəyərlər sisteminin himayə edilməsi və gələcək nəsillərə ötürülməsi ilə bağlı tarixi fəaliyyətində öncül mövqe tutan ana dili məsələlərini elmi-nəzəri tədqiqat obyektinə çevirmiş yeni nəşr ulu öndərin tarixi xidmətlərinə qədirbilənlik münasibətinin təzahürü, yubileyə qiymətli töhfədir.

Tədbir universitetin "Meh" ədəbi birliyinin Mahirə Nağıqızının ulu öndərə həsr olunmuş şeirləri əsasında hazırladığı ədəbi-bədii proqramla yekunlaşdı.

*Namiq QƏDİMOĞLU, "Xalq qəzeti"*

# "Hüquq və insan haqları virtual kitabxanası"nın təqdimatı

**Hüquq və İnsan Haqları İnstitutunun təşkilatçılığı və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması çərçivəsində "Hüquq və insan haqları virtual kitabxanası"nın ictimaiyyətə açıq təqdimatı keçirilib. Təqdimat ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub.**



Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov bildirdi ki, ümummilli lider Heydər Əliyevin başqa sahələrdə olduğu kimi, ölkəmizin hüquq sistemində də fəaliyyətin yüksək tələblər səviyyəsində qurulması üzrə xidmətləri bu gün öz bəhrəsini verməkdədir. Onun başladığı köklü islahatlar nəticəsində müasir Azərbaycanda hüquq sisteminin inkişafı davamlı prosesə çevrilmişdir. Həyata keçirilən səmərəli hüquqi islahatlar hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar qısa dövr ərzində ölkəmizin dinamik yüksəlişini təmin etmiş və həyata keçirilən islahatlara yeni təkan vermişdir. R.Qasımov İnstitutun "Hüquq və insan haqları virtual kitabxanası"nı yaratmaq təşəbbüsünün hüquq ədəbiyyatı oxucuları üçün böyük töhfə olacağını da vurğuladı.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Rezident nümayəndəsi vəzifəsini icra eedən Nuno Quieros "İnsan hüquqları – 2030 Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədləri"nə nail olunmasının BMTİP-in əsas istiqamətlərindən biri olduğunu qeyd edərək, virtual kitabxananın da bu prosesə ciddi töhfə verəcəyinə inandığını bildirdi.

İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə Heydər Əliyevin ölkəmizdə insan hüquqları istiqamətində atdığı vacib addımlar barədə ətraflı məlumat verərək bildirdi ki, ulu öndərin 10 illik fəaliyyəti ərzində 1 Konstitusiya (48 maddəsi sırf insan hüquqlarına həsr edilib), 13 məcəllə, 425 qanun, beynəlxalq sənədlərə qoşulmaya dair 419 müvafiq akt, yüz mindən çox insana şamil edilən 32 əfv fərmanı və 7 amnistiya aktı qəbul edilmişdir. İnstitut rəhbəri həmçinin bildirmişdir ki, təqdim edilən virtual kitabxanada azərbaycanlı alimlərin hüquq və insan haqlarına dair üç dildə yazdıqları 217 vəsait pulsuz istifadə üçün yerləşdirilmişdir.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov hüququn mənşəyini, inkişafını və fəaliyyətinin mahiyyətini, ən ümumi qanunlarını və meyillərini öyrənən, eyni zamanda bütün hüquq elmləri üçün ümumi anlayışlar və kateqoriyalar təşkil edən fundamental hüquq bazasının yaradılmasını təqdirəlayiq hesab edərək, bu ideyanı dəstəklədiyini diqqətə çatdırdı.

*Qabil YUSİFOĞLU, "Xalq qəzeti"*

# Bakıda möhtəşəm atəşfəşanlıq

**Mayın 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar paytaxtda təşkil edilən konsert proqramı möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.**



Dənizkənarı Milli Parkın ərazisindəki Saat qülləsinin yanında təşkil olunmuş konsertdə müğənnilər ulu öndər Heydər Əliyev, həmçinin müstəqil Azərbaycana həsr olunan vətənpərvər ruhlu mahnılarla çıxış ediblər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş konsert proqramı tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb.

Paytaxtımızın minlərlə sakininin və qonaqlarının maraqla izlədiyi konsertdən sonra möhtəşəm atəşfəşanlıq olub, paytaxtın qaranlıq gecəsi al-əlvan rənglərə boyanıb.

*"Xalq qəzeti"*



# “Ulu öndərin haqqını heç vaxt itirmərəm...”

**“Heydər Əliyev xatirələr işığında” layihəmiz davam edir. Bugünkü qonağımız uzun illər ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işləmiş, onun göstərdiyi etimadı ləyaqətlə doğrultmuş Abid Şərifovdur. Sovet Azərbaycanında tikinti ustalığından müstəqil Azərbaycanda Baş nazirin müavini vəzifəsinə qədər yüksələn, rəhbər mövqelərə bilavasitə Heydər Əliyevin irəli çəkdiyi Abid müəllim öz himayədarı haqqında xatirələrini bizimlə bölüşməyi həm də bir şərəf borcu saydığını bildirdi. Müsahibimizin ilk sözü bu oldu ki, o kişinin haqqını heç vaxt itirmərəm.**

*(əvvəli qəzetin 10 may 2023-cü il tarixli sayında)*

***−Dərin Özüllər Zavodunun tikintisində sizin iştirakınız olubmu?***

− Zavodun özünü yox, onun limanını tikmək bizə həvalə edilmişdi. Liman tikmək həqiqətən çox çətin bir işdir. Çünki qısa müddətdə liman olan yerdə dənizin 8-10 metrə qədər dərinləşməsini təmin etməli idik. İkinci çətin məsələ də, burada çox ağır yüklərlə iş görülür, bu ağırlıqlar da heç bir normativə uyğun gəlmir. Ona görə də o limanın tikilməsinə Sovet İttifaqında ilk dəfə olaraq Belçikadan “Z” şəkilli şprintlər gətirirdik. O da Sovet ittifaqının istehsal etdiyi şprintlərdən iki-üç dəfə möhkəm idi. Bütün o limanı belə tikmişik. O zavodda hazırlanan estakadaları bizim tikdiyimiz ştapelin üstü ilə dartıb dənizə buraxırlar.

Səhv etmirəmsə, 1984-cü ildə Heydər Əliyev ilk dəfə Bakıya məzuniyyətə gələndə Qaradağda tikilən Dərin Özüllər Zavoduna gəldi. Orda da Azərbaycan hökumətinin rəhbərləri, tikinti naziri iştirak edirdilər. Təbii ki, mən də orda idim. Heydər Əliyev orda estakadaları dartan gəmiyə baxdı. Zavodda 9 santimetrlik polad lövhələri avtomat qurğu əyir, özü avtomat şəkildə qaynaq edir və bu yolla estakadalar üçün borular hazırlanırdı.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdı və 1994-cü ildə də “Əsrin müqaviləsi”ni imzalamağa nail oldu. Məhz Heydər Əliyevin sayəsində dünyanın böyük ölkələrinin neft şirkətləri hələ sabitlik tam təmin olunmamış Azərbaycana gəlib neft müqaviləsini imzaladılar və ölkəyə investisiyalar axıb gəlməyə başladı. Əgər Dərin Özüllər Zavodu olmasaydı, Azərbaycanın vəziyyəti necə olacaqdı? Bunu bir deyən varmı?

Müstəqillik illərindən sonra çoxları başa düşməyə başladılar ki, Rusiya heç vaxt Azərbaycanın inkişafını istəməyib. Əzəldən belə olub, sovet dövründə də belə idi, indi də belədir. Sovet dövründə Bakıda tikilən zavodların, fabriklərin sayına baxın, onlarla sənaye müəssisələri tikilib. Elə məişət kondisionerləri zavodunu götürün. O zaman o zavodun tikintisi birbaşa Heydər Əliyevin göstərişi ilə Əliş Ləmbəranskiyə tapşırılmışdı. Amma onu Sənaye və Tikinti Nazirliyi tikirdi. Zavod bilavasitə Yaponiya mütəxəssisləri ilə birgə tikildi və Azərbaycan başladı bütün SSRİ üçün kondisioner istehsal etməyə. O zavodlarda on minlərlə adam çalışırdı. Yeni texnologiya idi və bizim mütəxəssislər yetişməyə başlayırdı.

Nəqliyyat sektorunda görülən işləri xatırlatmaq istərdim. Bir çoxlarına indi-indi nəqliyyat–logistika sisteminin əhəmiyyəti aydın olur. TRACECA (Transport Corridor Europe-Caucasus-Asia – Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) proqramından bir neçə məqamı açıqlayım, qoy bilsinlər Heydər Əliyev 5-10 il əvvəlcədən nələri görüb və həyata keçirib. Ulu öndər buna “İpək yolunun bərpası” deyirdi, amma Qərb bunu TRACECA adlandırdı. Layihə 1993-cü ilin may ayında Brüsseldə keçirilən konfransda 8 ölkənin (5 Mərkəzi Asiya, Qazaxıstan və 3 Qafqaz respublikası) iştirakı ilə qəbul edilmişdi. Bu layihədə əsas məqsəd Avropa İttifaqının TRACECA üzvü dövlətlərinə dair qlobal strategiyasına uyğun olaraq, alternativ nəqliyyat marşrutları vasitəsilə Avropa və dünya bazarlarına çıxışı təmin etməklə, bu respublikaların siyasi və iqtisadi sabitliyinə yardım göstərmək idi. Heydər Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan tərəfdən TRACECA proqramına mən rəhbərlik edirdim. O zaman biz, hətta Bakıda TRACECA komissiyasının ofisini də açdıq.

TRACECA layihəsi Rusiyadan kənar keçən nəqliyyat marşrutu idi. Yəni Azərbaycana Gürcüstan və Qərbə yüklər Rusiyaya daxil olmadan, Azərbaycan vasitəsilə daşınmalı idi. Ona görə bu yolların istər tikintisi, istər avadanlığının alınması, istər dəmir yolunun, istər körpülərin salınması üçün Avropa Komissiyası Azərbaycana milyonlarla avro vəsait ayırırdı. Ümumiyyətlə, TRACECA dəhlizi boyu limanlar, dəmir yolları və avtomobil yolları üzrə əsaslı layihələrin maliyyələşdirilməsi üçün bütövlükdə 1,7 milyard avrodan çox vəsait ayırmışdılar.

O günlər yaxşı yadımdadır ki, hətta yanacaq daşımağa belə vəsaitimiz yox idi. Dəmir yolunun Biləcəri stansiyasını Avropa Komissiyasının vəsaiti hesabına tamamilə yenidən qurduq.

1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin dövlət başçısı – Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna prezidentləri, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi və Avropa İttifaqının TRACECA Proqramı əsasında “Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalandı və Bakı Bəyannaməsi qəbul edildi. Sazişi 12 dövlətin – Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, Rumıniya, Moldova, Ukrayna, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkiyənin dövlət və hökumət başçıları imzaladlar. Ermənistandan toplantıya Baş nazir səviyyəsində nümayəndə heyəti gəlmişdi. Amma biz o sazişdə yazmışdıq ki, TRACECA nəqliyyat dəhlizi Ermənistandan kənar keçəcək. Bunu da Heydər Əliyev bizə yazdırmışdı.

***–Avropa İttifaqının nümayəndələri bunu necə qəbul edib imzaladılar?***

– Onlar bunu heç görmədilər. Elə elədik ki, hamı sənədə qol çəkəndən sonra, lap axırda Heydər Əliyev qol çəkməli idi. Sənədi onun imzalaması üçün gətirəndə ora əlavə etdik ki, bu dəhliz Ermənistandan kənar keçəcək. O qol çəkdi və beləcə sənəd təsdiq edildi. Sənəd paylanandan sonra Avropa İttifaqının nümayəndələri bildilər və soruşdular, bu nə oyundur? Dedik, axı biz sizə əvvəlcədən demişdik ki, marşrut Ermənistandan keçməyəcək. Keçmiş Sovet respublikalarından Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, Tacikistan, Moldova, Ukrayna – hamı istəyirdi bu müqavilənin iştirakçısı olsun. Ermənistan hamıdan daha çox istəyirdi, çünki blokadada idi. Ona da bu sevinci yaşatmadıq.

Ümumiyyətlə, bu proqramdan faydalanan təkcə Azərbaycan deyildi. Məsələn, Qazaxıstanda bərə keçidi yox idi. Yaxşı yadımdadır, Vyana şəhərində Avropa İttifaqının TRACECA komissiyasının iclası keçirilirdi. Üzv dövlətlərin nümayəndələri iştirak edirdilər. Qazaxstandan tədbirdə heç kim iştirak etmirdi. Layihənin rəhbərliyi Avropa Komissiyasında Fadiadas adlı bir yunana həvalə olunmuşdu. Mən xahiş etdim ki, Qazaxıstana bərə keçidinin tikintisi üçün 2 milyon avro vəsait ayrılması protokolda öz əksini tapsın. Bunu etdilər. Bərə keçidini tikmək də hər tikinti müəssisəsinin işi deyil. Çox ölkələrdə bu işi bacaran tikinti təşkilatı heç yoxdur. Bu, çox çətin bir qurğudur. Amma Azərbaycanın şirkəti tikə bilir. Ələt limanında onu bizim yaratdığımız “Evrascon” şirkəti tikdi. Qazaxıstanda da bərə keçidini bizim şirkət tikdi. Nursultan Nazarbayev onun açılışına məni də dəvət etmişdi. Açılış təntənəsində kənarda durmuşdum, Nazarbayev məni çağırdı və dedi: “Gəlin yanıma. Bu sizin xidmətinizdir. Siz də çıxış edib bunun tikilməsinin necə baş verdiyini danışın, qoy bilsinlər”. Mən də bütün olanları orda danışdım. Elə həmin tədbirdə bizim bərə gəlib bu keçiddən limana daxil oldu. Bu da TRACECA proqramının reallaşmasında böyük bir uğur idi.

Baxın, indi bu marşrutla nə qədər yüklər daşınır. Bu gün Qazaxıstan nefti bu bərə vasitəsilə daşınıb Bakı – Tbilisi – Ceyhan kəməri vasitəsilə Qərbə ötürülür. Azərbaycan bu marşrutla daşınan bütün tranzit yüklərə görə külli miqdarda vəsait qazanır, zənginləşir...

***−Abid müəllim, hər şeydən danışdınız, amma Heydər Əliyevin sizi Baş nazirin müavini təyin etməsini dilə gətirmədiniz. Sirr deyilsə, Heydər Əliyevin bu təyinatı barədə də bir qədər məlumat verərdiniz.***

− Bu təyinatı əsla unuda bilmərəm. 1995-ci ildə axşam Heydər Əliyev məni yanına, yaşadığı iqamətgaha dəvət etdi. Diqqətlə baxıb dedi: “İstəyirəm səni Baş nazirin müavini vəzifəsinə təyin edim”. Nə deyə bilərdim, böyük etimad, həm də etibar idi. Razılığımı bildirdim. Tövsiyələrini, məsləhətlərini verdi. Elə oradaca tapşırdı ki, sabah gedim parlamentə. Parlament məni təsdiq etdi və işə başladım. Həmin vaxtlar dövlət büdcəsi bomboş idi.

Bir neçə aydan sonra Heydər Əliyev ayrı-ayrı sərəncamlarla məni Yaponiya, Çin, Türkiyə və bir də Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq üzrə hökumətlərarası komissiyaların sədri təyin etdi. 4 hökumət komissiyasına rəhbərlik edirdim. Məhz bundan sonra ulu öndərin rəhbərliyi ilə o dövrdə ölkənin ayağa qalxması üçün çox işlər gördük. Soruşa bilərlər ki, nə işlər idi bunlar?

Birincisi, həmin dövrdə Azərbaycanda, o cümlədən Bakıda elektrik enerjisi qıtlığı problemi çox ciddi narazılıqlar yaradırdı. Elektrik stansiyaları uzun illər təmir olunmadığından, avadanlıq yenilənmədiyindən tez-tez enerji istehsalında fasilələr yaranırdı, qəzalar baş verirdi. Bəzən axşamlar Bakıda belə işıqlar söndürülürdü. Heydər Əliyev tapşırıq verdi ki, bu problemi ən qısa zamanda yoluna qoymaq lazımdır. Onun inandığı, etibar etdiyi insanlardan biri – Artur Rəsizadə də Baş nazir idi.

Yaponiya hökuməti ilə danışıqlara başladıq. Tez-tez qarşılıqlı səfərlər oldu, hökumət komissiyası ciddi müzakirələr apardı. Nəticədə son 30 ildə bəlkə də ən uğurlu və səmərəli bir layihənin həyata vəsiqə almasına nail olduq. Yaponiya hökumətinin nümayəndələri ilə danışıqlarda Bakıdakı “Şimal İES-1” və “Şimal-İES-2” elektrik stansiyalarının rekonstruksiyası ilə bağlı razılığa gəldik və müqavilə imzaladıq. Elektrik stansiyaları tam yenidən qurulmalı idi. Hər bir obyektin rekonstruksiyasının ümumi dəyəri 350-360 milyon dollar idi. İki layihəyə birlikdə 700-720 milyon dollar kredit ayrıldı. Müqavilənin şərtlərinə diqqət edin: Bu vəsait Azərbaycana 40 il müddətinə kredit kimi verilirdi. 10 il müddətində heç bir vəsait və faiz qaytarılmayacaqdı. Ondan sonrakı 30 ildə illik 0,75 faiz kredit faizi ödəniləcəkdi. Savadlı maliyyəçi və iqtisadçılar illik inflyasiyanı, amartizasiya xərclərini, başqa məsrəfləri nəzərə alıb hesablasalar, aydın olar ki, bu elə qranta bərabər bir kreditdir. Sözün əsl mənasında Yaponiya hökumətinin bu jesti o dövr üçün Azərbaycana hədiyyə hesab edilə bilər. Yaponlar qarşımızda bir əsas şərt qoydular: Elektrik stansiyalarının yeni texnologiyası Yaponiya istehsalı olmalıdır. Əslində, biz də elə Yaponiya texnologiyası istəyirdik, çünki bu, daha etibarlı texnologiya idi.

Əlbəttə, Yaponiya dövlətinin bu jesti ilk növbədə Heydər Əliyevə olan ehtiram və hörmətdən irəli gəlirdi. Onlar Heydər Əliyevi hələ Bakıda məişət kondisionerləri zavodunu tikməyə başlayandan tanıyırdılar. Biz də Artur müəllimin rəhbərliyi ilə bu danışıqları yüksək səviyyədə həyata keçirdik. Az bir vaxtda elektrik stansiyasının birinci və ikinci mərhələsi çox böyük uğurla əsaslı şəkildə rekonstruksiya olundu. 800 meqavatt gücündə elektrik enerjisi istehsalı Bakının enerji problemini demək olar ki, birdəfəlik həll etdi.

Bir faktı da qeyd edim. Yaponiya tərəfi tələb etdi ki, əsaslı tikinti və rekonstruksiya işlərini aparacaq şirkəti müəyyənləşdirmək üçün beynəlxalq tender keçirilsin. Beynəlxalq tender elan etdik. Birinci yeri ABŞ şirkəti tutdu. “Azərenerji”nin sədri Müslüm İmanov və onun baş mühəndisi ABŞ şirkətinin təkliflərində bəzi çatışmazlıqlar aşkar etdilər. Qərara alındı ki, tender Yaponiya şirkətinə verilsin, çünki ikinci yeri onlar tutmuşdular.

Beləcə, Yaponiya şirkəti “Şimal İES-1” və “Şimal-İES-2” stansiyalarının tamamilə yenidən qurulmasına, 90 kilometrlik qaz xəttini çəkməyə və işləri yüksək səviyyədə həyata keçirməyə başladı.

Xatırlayırsınızsa, Heydər Əliyev hakimiyyətə gələndən sonra, 1994-cü ildə Azərbaycanın 23 kəndi ermənilərin işğalından azad olundu. Kəndlərin bərpası və qaçqın şəhərciklərinin tikilməsi üçün Heydər Əliyevin tapşırıqlarına uyğun olaraq danışıqlar aparıb Dünya Bankından 10 milyon dollar faizsiz kredit aldıq. İslam İnkişaf Bankı və Avropa Komissiyası da bizə yaxından dəstək oldu. Heydər Əliyevin sərəncamı ilə 1997-ci ildə xüsusi hökumət komissiyası yaradıldı. O komissiyanın tərkibində iki agentliyin yaradılmasına qərar verildi: Bərpa Agentliyi və Ərazilərin Minalardan Təmizlənməsi – ANAMA agentliyi. Təbii ki, o zaman Qarabağın tezliklə işğaldan azad ediləcəyini ağıla gətirmək çətin məsələ idi. Ona görə də ulu öndər soruşdu ki, “bu ANAMA nə üçündür?” Dedim: “Sovet silahlı qüvvələri o vaxt Azərbaycanın ərazisində o qədər silah, sursat, min tonlarla minalar qoyub gedib ki, onların hamısını təmizləmək lazımdır”. Heydər Əliyev dedi: “Axı bizdə mütəxəssis yoxdur, bəs bunu kim təmizləyəcək?” Dedim: “Dünya Bankı ilə danışmışam, vəsait ayıracaq. Biz də NATO-dan ekspertlər, minaların təmizlənməsi üzrə mütəxəssislər dəvət edəcəyik və onlar Azərbaycanda kadrlar hazırlayacaqlar. Avropa Komissiyası da avadanlıq verəcək. Biz də yer seçib, onlar üçün baza yaratmalıyıq”. Razılıq verdi və dedi, başlayın.

Heydər Əliyevin yüksək keyfiyyətlərindən biri də o idi ki, verilən səmərəli təklifin mahiyyətini, perspektivini dərhal müəyyənləşdirə bilirdi. Bu dəfə də belə oldu. ANAMA demək olar 10 -14 il beynəlxalq təşkilatların ayırdığı qrantlar hesabına fəaliyyət göstərdi. Həmin qrantlar Maliyyə Nazirliyinin hesablarına daxil olurdu, onlar həmin xarici valyutanı manata çevirib ANAMA-nın hesabına keçirirdilər. Biz də yer ayırdıq, baza tikdik. ABŞ-ın müvafiq qurumu bizə mina axtaran 35 it verdi. Həmin yerdə bir tədris kombinatı da yaratdıq ki, öz mütəxəssislərimizi hazırlayaq. İki-üç ildən sonra NATO-nun mütəxəssisləri geri qayıtdılar və bizim öz mütəxəssislərimiz kadr hazırlamağa başladılar. Həmin kombinatda hazırlanan mütəxəssislər müəssisədə təlimləri başa çatdıranda onlara NATO-nun sertifikatı verilir. Az bir müddətdən sonra artıq Türkiyədən, Gürcüstandan, Şərqi Avropa ölkələrindən göndərilən insanlar gəlib həmin tədris kombinatında pullu təlim kursları keçir və təlimləri başa vuranda NATO sertifikatı alırlar.

ANAMA yaranandan Azərbaycanda min hektarlarla ərazini rus ordusunun mərmilərindən, minalarından təmizləyib. Qarabağ işğaldan azad ediləndən sonra isə bütün ərazini ölüm saçan erməni minalarından və partlamamış mərmilərdən təmizləməyə başlayıb.

Heydər Əliyevin bir çox nəhəng layihələri kimi, onun səyi ilə yaradılan ANAMA-nın əhəmiyyətini də indi-indi dərk etməyə başlayıblar. Bütün bu işlər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilib, biz isə bu işlərin icraçıları olmuşuq. Bərpa Agentliyinə gəldikdə isə, bunun da çox böyük əhəmiyyəti oldu. O zaman Qaçqınkom yox idi və işğaldan azad edilmiş 23 kənddə bərpa işlərini məhz Bərpa Agentliyi həyata keçirirdi. Məhz bu agentlik ilk dəfə çadırlarda yaşayan yüzlərlə qaçqının evini bərpa edib, onları doğma yurdlarına qaytardı.

Allah rəhmət eləsin, o kişinin əvəzsiz xidmətlərindən biri də Azərbaycan üçün Sovet tarixində olmayan bir işə nail olmasında idi. Sov.İKP MK ilə SSRİ Nazirlər Sovetinin Azərbaycan haqqında birgə qərarları olurdu. Orda yazılırdı ki, beş, üç və ya iki il ərzində Azərbaycana elektrik stansiyalarının, su dəryaçalarının tikintisinə, texniki peşə məktəblərinin və sair əlavə, filan qədər maliyyə vəsaiti ayrılsın. Altında da Sov.İKP MK-nın Baş katibi Leonid İliç Brejnevin və Nazirlər Sovetinin sədri Kosiginin imzaları olurdu. O sərəncamın əhəmiyyəti çox böyük idi. Çünki SSRİ büdcəsində kəsir yarananda birinci büdcədə bizə ayrılan vəsaitdən kəsirdilər. Bu olmasın deyə, Heydər Əliyevin səyləri ilə belə xüsusi sərəncamlar verilirdi. Bu sərəncamın icrasına da heç kim müdaxilə edə bilmirdi.

Yəqin bu danışdıqlarımdan sizə aydın olur ki, Heydər Əliyevin mənim həyatımda hansı müstəsna rolu olub. Mənim nə vəzifəli dayım olub, nə də böyük imkanlarım. Heydər Əliyev mənim mütəxəssis kimi bacarığımı, potensialımı qiymətləndirib və bütün əmək fəaliyyətim boyu məni vəzifə pillələrində daim irəli çəkib. Müstəqil həyata qədəm qoyanda ağlıma gəlməzdi ki, nə vaxtsa müstəqil Azərbaycanın Baş nazirinin müavini olacağam. 23 il bu vəzifədə çalışmışam. Bu həm Heydər Əliyevin, həm də ondan sonra Azərbaycanı dəyanətlə, böyük siyasi uzaqgörənliklə yüksək səviyyədə idarə edən Prezident İlham Əliyevin mənə göstərdikləri yüksək etimadın nümunəsi olub. Bu müddətin 8 ilini bilavasitə Heydər Əliyevin, 15 ilini isə cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında işləmişəm. Həyatımda bundan böyük və qiymətli nə ola bilər?!

***Söhbəti qələmə aldı:***
***İ.GÜLAĞAOĞLU, “Xalq qəzeti”***

# Azərbaycanı müstəqillik epoxasına hazırlamış milli strateq



**Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur.**

1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi rəhbərliyə gəlmiş dərin zəkalı və yüksək enerjili lider Heydər Əliyev keçmiş ittifaqın iqtisadiyyatı üçün xammal mənbəyinə çevrilmiş respublikamızın yeni inkişaf strategiyasını hazırlayıb qısa müddətdə həyata keçirmişdir. Böyük öndər respublikamızın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, hər cür riskə rəğmən, o dövrün nöqsanlarını açıq deməkdən çəkinməmişdir.

1969–1982-ci illərdə Azərbaycana inamla rəhbərlik etmiş Heydər Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı sənaye və istehsal potensialı bu günün özündə də davamlı iqtisadi yüksəliş üçün möhkəm özülə, bünövrəyə çevrilmişdir. O dövrdə keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri kimi tanınan, iqtisadi, mənəvi-ideoloji böhran keçirən Azərbaycan, sanki, taleyin ümidinə buraxılmış kimi görünürdü. Böyük strateqin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi belə bir dövrdə rəhbərliyə gəlməsi işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrilmişdir.

Yeni rəhbərin ilk gündən ədalətə, qanunçuluğa tapınaraq respublikada əliəyriliyə, rüşvətxorluğa, dövlət əmlakının mənimsənilməsi hallarına qarşı kəskin mübarizəyə qalxması, paralel olaraq yüksək yenilikçiliyi, təşəbbüskarlığı, islahatlara meyilliyi respublika ictimaiyyətində nikbinliyi, sabaha inamı artırmışdır. Sonrakı dövrdə Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz ulu öndərimiz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir.

14 il ərzində respublikada yaranmış güclü sosial, iqtisadi və intellektual potensial Azərbaycanın müstəqilliyi üçün zəmin yaratmışdır. Qətiyyətlə deyə bilərik ki, müstəqilliyə aparan yolumuzun təməl daşını hələ o zaman gələcəyə baxan, həyatın sərt, çətin sınaqlarına sinə gərən, ən çətin şəraitdə düzgün çıxış yolu tapan, daim xalqı ilə yaşayan, qəlbində vətən sevgisi, milli ruh gəzdirən qüdrətli şəxsiyyət Heydər Əliyev qoymuşdur.

Qeyri-adi, fitri istedadı, təşkilatçılıq və idarəçilik məharəti, ən əsası, vətənpərvərliyi, milli ideallara bağlılığı ilə ilk gündən Azərbaycanın üzləşdiyi sosial-iqtisadi problemləri aradan qaldırmaq, qanunçuluğu və hüquq qaydalarını gücləndirmək, ciddi sosial bəlaya çevrilmiş korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə tədbirlərini genişləndirmək istiqamətində əzmkar fəaliyyətə başlayan Heydər Əliyev mütərəqqi idarəçilik ənənələrinin əsasını qoymuş, cəmiyyətin normal inkişaf ahəngini təmin etmişdir. Bütün bunların nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ölkə miqyasından geri qalan Azərbaycan tezliklə SSRİ-nin ən inkişaf etmiş respublikalarından birinə çevrildi.

Ulu öndər Heydər Əliyev fenomeninin unikallığı ondadır ki, o, öz siyasətini heç bir zaman birtərəfli qurmurdu. Ümummilli liderin gördüyü bütün işlər kompleks tədbirlər sistemindən ibarət idi. Bu baxımdan, 1970-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığına başlanılması xüsusi olaraq maraq doğurur. Dövlət başçısının şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq, Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı.

Artıq 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdi. Lakin bununla belə, Heydər Əliyev milli hərbi kadr hazırlığı sahəsində daha bir addım atdı. Belə ki, Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması imkan verdi ki, gənclərin marağı hərbi sahəyə yönəldilsin. Birmənalı şəkildə etiraf edilməlidir ki, bu da Azərbaycanın çox da uzaq olmayan gələcək dövlət müstəqilliyinə hesablanan addımlardan biri idi.

Ulu öndərin ölkəyə bir qərinədən artıq davam edən rəhbərliyi dövründə, millətə liderlik fəaliyyətində təhsilə, elmə, mədəniyyətə, bütövlükdə xalqın intellektual səviyyəsinin yüksəldilməsinə qayğı hər zaman üstün yer tutmuş, prioritet istiqamətlərdən biri olmuşdur. Əslində, tariximizin son 33 illik milli intibahı mahiyyət etibarı ilə xalqın maariflənmə səviyyəsinin yüksəlişi, fundamental elmin yaranması, milli mədəniyyətin tərəqqisi ilə sıx bağlı olmuşdur ki, bunların hamısı təhsil sistemi və ondan səmərəli istifadə edilməsi nəticəsində mümkün olmuşdur.

O illərdə keçmiş SSRİ-nin dünya səviyyəli təhsil ocaqlarına tələbələrin göndərilməsi geniş miqyas aldı. 1970-ci illərdən başlayaraq, bu istiqamətdə də ciddi dönüş əldə edildi və həmin dövrdən başlayaraq, hər il yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, beynəlxalq hüquq, diplomatiya, texnika və s. kimi mühüm elmi sahələrinə təhsil almağa göndərilirdi. Həmin dövrdə gənclərimiz üçün keçmiş İttifaqın ən iri ali təhsil mərkəzlərində oxumaq üçün geniş imkan yaranmışdı. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi. Faktiki olaraq, qısa müddətdə Azərbaycanın yeni tipli milli kadr bazası yaradıldı, bir çox elmi məktəblərin əsası qoyuldu.

Ulu öndərin keçən əsrin 70-80-ci illərində böyük uzaqgörənliklə həyata keçirdiyi təhsil, elm və mədəniyyət sahəsindəki uğurlu siyasəti, həqiqətən, bu gün, müstəqil Azərbaycanın milli sərvəti olan zəngin intellektual potensialının yüksəkliyində özünü göstərir və bəhrələrini verir. Əgər o illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə təhsil müəssisələrinin zəngin şəbəkəsi yaranmasaydı, onların möhkəm maddi-texniki bazası qurulmasaydı, respublikadan kənarda Azərbaycan üçün yüksək ixtisaslı mütəxəssislər, xüsusən, milli hərbi kadrlar hazırlanmasaydı, elmi-tədqiqat institutlarında fundamental elmin inkişafı təmin olunmasaydı, şübhəsiz, Azərbaycanın bu gün müasir sivilizasiyaya cavab verən böyük elmi, milli təhsil sistemi və zəngin mədəniyyəti də ola bilməzdi

Həmin illərin bir maraqlı faktını da qeyd etmək yerinə düşərdi: hələ 1981-ci ildə sovet imperiyasının totalitar rejiminin hökm sürdüyü bir şəraitdə respublikada Cənubi Azərbaycandan gələn həmvətənlərimizin təhsili üçün də geniş imkanlar yaradılmışdı. Millətini sevən, öz taleyini xalqın taleyinə bağlayan, həmvətənlərinin təəssübünü çəkən Heydər Əliyev Cənubi Azərbaycandan müraciət edən 10 azərbaycanlı gəncin Bakıda təhsil almasına razılıq verdi. Bu barədə xüsusi qəbul olunan qərarda göstərilirdi ki, 1981-1982-ci tədris ilindən başlayaraq, Bakının ali məktəblərinə hər il 10 nəfər İran vətəndaşı olan azərbaycanlı gəncin qəbulu nəzərdə tutulsun. Nazirlər Sovetinə həvalə edilmişdi ki, həmin tələbələr tədris müddəti ərzində təqaüdlə və müvafiq zəruri vəsaitlə təmin edilsinlər.

Sovet İttifaqının ən məsul vəzifələrindən birini tutan möhtərəm Heydər Əliyev Moskvada işlədiyi dövrdə ayrı-ayrı rəhbərlərin müxtəlif millətlərə qarşı ikili münasibətlərini görür və imkan düşdükcə obyektivlik naminə müsəlman-türk dünyasının mənafeyini müdafiə edirdi. Bu gün biz tarixçilər də birmənalı şəkildə təsdiqləyirik ki, Heydər Əliyevin sovet siyasi arenasında rəhbərliyə gəlməsi ilə Azərbaycanda milli özünüdərk hissi güclənmiş, bütün ideoloji maneələri dəf edərək, müstəqil düşüncəyə, dövlətçilik təfəkkürünə yol açılmışdır.

Ümummilli lider Heydər Əliyevin tarixi missiyası həm də o dövrdə xalqın daxilində toplanan milli ruhu və idealları keçmiş rejimin hücumlarından qoruyaraq xalqın milli yüksəlişini təmin etmək, hüquqlarını qorumaq olmuşdur. Böyük şəxsiyyət həmin dövrdə bütün ideoloji-siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır.

Ötən əsrin 60-cı illərinin axırlarında Heydər Əliyev dahi bir şəxsiyyət kimi daim gələcəyə, irəliyə, sabaha baxmış, bütün işlərini Azərbaycanın gələcək müstəqilliyinin təmin edilməsi ideyasının gerçəkləşdirilməsinə yönəltmişdir. Yeni rəhbər milli mənafelərə xidmət göstərmək məqsədilə mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın intibahı və tərəqqisi, onun iqtisadiyyatının, elm və təhsilinin yüksəldilməsi üçün çox ustalıqla və düşünülmüş siyasət yeritməyə nail olmuşdur.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyinin 10 ilində yaratdığı tarixi əsaslar, formalaşdırdığı hərtərfli inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirildiyi Azərbaycan Respublikası hazırda sürətlə, davamlı şəkildə bütün sahələr üzrə inkişaf etməkdədir. Bunun yeganə səbəbi Prezident İlham Əliyev tərəfindən ulu öndərin müdrik və alternativi olmayan siyasətinin uğurla davam etdirilməsi, Heydər Əliyev ideyalarına sadiqlikdə və xalqın da bu siyasəti dəstəkləməsidir.

İqtisadi, sosial, mədəni və həyatımızın digər vacib sferalarında həmçinin müşahidə olunan tərəqqi, vətəndaş həmrəyliyi, sosial rifah ölkə vətəndaşlarının istək və arzularına uyğun şəkildə təmin olunur. Bu baxımdan, Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik, tolerant mühit, multikultural cəmiyyət bir daha sübut edir ki, ölkəmiz düzgün yoldadır. Fəxr edirik ki, ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan daxili və xarici siyasətini və ideyalarını möhtərəm cənab Prezident İlham Əliyev 2003-cü ildən etibarən uğurla davam etdirir.

Qətiyyətlə demək olar ki, ulu öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə gerçəkləşdirdiyi tarixi tədbirlər, nail olduğu dəyişikliklər respublikada indiki dayanıqlı inkişafı, Azərbaycan xalqının rifah halının yüksəlməsini, ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini, əzmlə aparılan dövlət quruculuğunu hərtərəfli təmin edir.

**İradə HÜSEYNOVA,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor,**
**Əməkdar müəllim**

# 100 ilə sığmayan dahinin dünya şöhrəti

**Onu Yer adlı planetdə tanıyanların, xatirəsinin işığına toplaşanların sayı milyonlarladır. Heydər Əliyev təkcə öz xalqı və ölkəsi üçün böyük şəxsiyyət olmayıb, onu daim sülh və əmin-amanlıq dilədiyi dünyanın dörd tərəfində tanıyır, sevir və xatırlayırlar. Ulu öndərin 100 illik yubileyi münasibətilə dünyanın müxtəlif ölkələrində keçirilən tədbirlərdən bir neçəsini diqqətinizə təqdim edirik.**

## Ankara



**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin (QHTDDA) Ankarada təşkil etdiyi tədbirdə əvvəlcə Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndirilib.**

Sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş olunub. Yubiley tədbirində Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri, professor Aygün Əttar, QHTDDA-nın icraçı direktoru Aygün Əliyeva, Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, Türkiyə Prezidentinin müşaviri Mücahit Küçükyılmaz, Türkiyə Daxili İşlər Nazirliyi Vətəndaş Cəmiyyəti ilə Əlaqələr Baş İdarəsinin rəisi Əhməd Türköz, Ankara Universitetinin rektoru Necdet Ünüvar, Azərbaycan Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov, Qərbi Azərbaycan İcmasının nümayəndəsi Zaur Məmmədov çıxış ediblər.

Məruzəçilər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında fədakar xidmətlərindən, Azərbaycan-Türkiyə dostluq və qardaşlığının tarixi köklərindən, əsası ulu öndər tərəfindən qoyulmuş ikitərəfli və çoxtərəfli beynəlxalq əlaqələrin Prezident İlham Əliyevin gərgin fəaliyyəti nəticəsində yüksək inkişaf səviyyəsinə çatmasından və hazırda Türkiyə ilə strateji əməkdaşlıq sayəsində regionda sülhün, təhlükəsizliyin təmin olunmasından danışıblar. Tədbir konsert proqramı ilə yekunlaşıb.

## İstanbul

**İstanbul şəhərinin Kireçburun bölgəsində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tədbir düzənlənib.**

Tədbirdə Türkiyə Böyük Millət Məclisinin (TBMM) deputatı Şamil Ayrım, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva və başqaları iştirak ediblər. Tədbir iştirakçıları Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edib, önünə əklillər qoyub, xatirəsini ehtiramla yad ediblər.



## London

**İngiltərənin Lordlar Palatasında Elm və təhsil naziri Emin Əmrullayev, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson və ölkəmizin Böyük Britaniyadakı səfiri Elin Süleymanovun iştirakı ilə görüş keçirilib.**

Təhsil Nazirliyinin məlumatına görə, görüşün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf etməsinin rəmzi məna daşıdığı vurğulanıb, ulu öndərin həyat və fəaliyyətindən söz açılıb. Görüşdə, həmçinin iki ölkə arasında təhsil sahəsində əməkdaşlıqdan məmnunluq ifadə edilib, xaricdə təhsil üzrə dövlət proqramları çərçivəsində Böyük Britaniya ali təhsil müəssisələrinin Azərbaycan vətəndaşlarının üstünlük verdiyi universitetlər siyahısında yer aldığı bildirilib.



## Moskva

**“Putin Heydər Əliyevin siyasi müdrikliyini yüksək qiymətləndirib”. Bu sözləri Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov ulu öndərin 100 illik yubileyi ilə bağlı “news.ru” nəşrinə bildirib.**



“Prezident Putinin Heydər Əliyev ilə çox səmimi münasibətləri var idi. O, həqiqətən Heydər Əliyevə böyük hörmət bəsləyirdi. Onlar dəfələrlə ünsiyyətdə olublar. Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinin möhkəm təməli də məhz həmin vaxt qoyulub. Prezident bu cür münasibətləri İlham Heydər oğlu ilə də davam etdirir. Əlbəttə, bizim ortaq tariximizdə, Sovet İttifaqının tarixində Heydər Əliyevin rolunu qiymətləndirmək olduqca çətindir. Bu rol həqiqətən çox böyükdür”, - deyə D.Peskov vurğulayıb.

## Seul

**Azərbaycanın Koreyadakı səfirliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Heydər Əliyev 100: həyatı və irsi” adlı tədbir keçirib.**

Tədbirdə çıxış edən səfir Ramin Həsənov müasir Azərbaycan dövlətinin memarı, görkəmli siyasi xadim Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, müxtəlif dönəmlərdə verdiyi taleyüklü qərarlardan və atdığı tarixi addımlardan danışıb. Tədbir Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən qısametrajlı videoçarxın nümayişi və koreyalı peşəkar musiqiçilərin ifasında Azərbaycan və xarici bəstəkarların klassik əsərlərindən ibarət konsert proqramı ilə davam etdirilib.



## Doha

**Görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın Qətərdəki səfirliyinin təşəbbüsü və Qətər Dövlətinin Bələdiyyə Nazirliyinin dəstəyi ilə Doha şəhərində ağacəkmə aksiyası təşkil edilib.**


GULF TIMES

Səfirlikdən verilən məlumata görə, Dohanın mərkəzi hissəsində yeni salınan parkların birində təşkil edilən aksiyada yerli iqlim şəraitinə uyğunlaşdırılmış 100 ədəd ağac əkilib. Tədbirdə Qətərin Bələdiyyə Nazirliyinin Parklar Baş İdarəsinin rəisi və “Qatar EXPO 2023”ün baş katibi Məhəmməd Ali Al Xori, Doha Şəhər Bələdiyyəsinin xüsusi nümayəndəsi, Qətərdə akkreditə olunan ölkələrin səfirləri, həmçinin Kosta-Rika, Tailand, Gürcüstan, İndoneziya və Rusiyanın müvəqqəti işlər vəkili və müşavirləri, Qətərdə yaşayan Azərbaycan icmasının nümayəndələri iştirak ediblər. Qətərdəki Türkiyə səfirliyinin böyük diplomatik heyəti, o cümlədən Qətərdə yerləşən Türkiyə hərbi bazasının komandanı və Hərbi Hava Qüvvələri Baş Komandanılığı da tədbirə qatılıb.

Azərbaycanın Qətərdəki səfiri Mahir Əliyev “10 milyon ağac əkilməsi” təşəbbüsü ilə həmrəylik olaraq səfirlik tərəfindən ümummilli liderin 100 illik yubileyi ərəfəsində onun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Dohada 100 ağacın əkilməsi təşəbbüsünü irəli sürdüyünü diqqətə çatdırıb.

## Kanberra

**Azərbaycanın Avstraliya İttifaqındakı səfirliyinin dəstəyi ilə bu ölkənin geniş oxucu kütləsinə malik "Vibe Media" xəbər portalında Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı "Heydər Əliyev irsi və Azərbaycanın enerji sektorunda transformasiyası" sərlövhəli məqalə dərc olunub.**

Məqalədə dünya miqyaslı siyasi lider Heydər Əliyevin strateji baxışı və qətiyyəti sayəsində Azərbaycanın enerji sektorunun dirçəlməsindən, ölkəmizin enerji müstəqilliyinin və təhlükəsizliyinin əsasının qoyulmasından bəhs edilir. Bundan başqa, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın Avropanın enerji təchizatı xəritəsinin yenidən qurulmasındakı mühüm rolundan, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi meqalayihələrin Avropanın enerji təhlükəsizliyinə və şaxələndirilmiş enerji marşrutlarına töhfəsindən danışılır.

Məqalədə AZƏRTAC və Report-un materiallarından da istifadə olunub.

***Hazırladı:***
***İ.HƏSƏNQALA, “Xalq qəzeti”***

# Ulu öndərə sonsuz ümumxalq məhəbbəti



### Sumqayıt

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə onun arzularının şəhəri sayılan Sumqayıtda silsilə tədbirlərin keçirilməsi davam edir. Bütün layihələrdə, elmi-praktik konfranslarda, dəyirmi masalarda, ədəbi-bədii gecələrdə, sərgilərdə görkəmli dövlət xadiminin kitablara, filmlərə sığmayan titanik fəaliyyətindən geniş söhbət açılır.**

Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt bölməsi, Heydər Əliyev Mərkəzi və Sumqayıt Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Heydər Əliyev – Ədəbiyyat və mədəniyyət" mövzusunda konfrans maraqla qarşılanıb.

Ümummilli liderin yubileyi çərçivəsində təşkil olunan üçgünlük kros yarışına isə SOCAR "Azərikimya" İstehsalat Birliyinin və Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkil etdikləri yarışa idarə, müəssisə və təşkilatların əməkdaşları, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri – ümumilikdə 200 nəfər qatılıb.

Mükafatlandırma mərasimində ümummilli liderin nəsillərə örnək ömür yolundan bəhs edilib, Azərbaycan dövləti və dövlətçiliyi üçün gördüyü işlər, göstərdiyi misilsiz xidmətlər xatırlanıb. Sonra qaliblər elan olunub və onlara diplomlar, mükafatlar, medallar təqdim olunub.

Heydər Əliyev Mərkəzində gənc rəssam Mehriban Əliyevanın "Mənim rəngli dünyam" adlı fərdi sərgisi də ümummilli liderin100 illiyinə həsr edilib.

### Mingəçevir

**"Heydər Əliyev və Azərbaycanda inklüziv təhsil", "Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev ideyaları əsasında hüquqi dövlət və Azərbaycan polisinin formalaşması" mövzusunda konfranslar, yubileyə həsr olunan "Prezident Kuboku – 2023" beynəlxalq reqatası, habelə musiqi məktəblərində təqdim edilən konsert proqramları Mingəçevirdə keçirilən yubiley tədbirlərinin bir qismini təşkil edib.**



Şəhər Məhkəməsinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanın intibah dövrü" mövzusunda konfransda eyni adda, həmçinin "Heydər Əliyev – məhkəmə hüquq islahatlarının müəllifi", "Heydər Əliyev və Azərbaycan ədliyyəsinin inkişafı" və sair mövzularda məruzələr dinlənilib. Sonda ulu öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

### Şirvan

**Hər yerdə olduğu kimi, Şirvan şəhərində də ictimaiyyətin geniş nümayəndələri ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edib.**

Şəhər rəsmiləri və qonaqlar əvvəlcə ümummilli liderin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb və əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra Şirvan Mədəniyyət Mərkəzində ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı, dövləti qarşısında xidmətləri, eləcə də həyat və fəaliyyətinin mühüm məqamlarını əks etdirən sərgi ilə tanış olublar. Mədəniyyət Mərkəzində həmçinin şəhid övladları və məktəblilər üçün geniş konsert proqramı təşkil olunub. Mərasimdə çıxış edənlər ölkəmizdə uşaqların sağlam, firavan böyüməsi, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsasının məhz Heydər Əliyev tərəfindən qoyulduğunu iftixarla bildiriblər. Tədbir Mədəniyyət Mərkəzi solistlərinin və rəqs qrupunun ifasında konsert proqramı ilə davam edib. Sonda Salyan Dövlət Kukla Teatrı tərəfindən uşaqlar üçün tamaşa nümayiş olunub.



### Lənkəran

**Mayın 10-da səhər saatlarında Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının rəsmiləri, hüquq-mühafizə orqanlarının şəxsi heyəti, hərbi qulluqçular, idarə və müəssisələrin kollektivi, şəhid ailələrinin üzvləri, müharibə əlilləri və geniş ictimaiyyətin nümayəndələri Lənkəran şəhər Heydər Əliyev xatirə parkında ümummilli liderin abidəsini ziyarət ediblər.**

Abidənin önünə tər güllər düzən lənkəranlılar dahi şəxsiyyətə olan hədsiz hörmət və ehtiramlarını ifadə ediblər.



Daha sonra Heydər Əliyev Mərkəzindəki foto sərgiyə baxış keçirilib, Heydər Əliyev muzeyi ziyarət olunub və ümummilli liderin oradakı büstü önünə gül dəstələri düzülüb. Gün ərzində ulu öndərin abidəsinin ziyarəti davam edirilib.

### Ağcabədi

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Ağcabədi filialının və Gənclər üçün Təhsil Mərkəzi (GTM) Qarabağ regional ofisinin birgə əməkdaşlığı ilə "Heydər Əliyev 100: Nəsillərin görüşü" adlı tədbir keçirilib.**

Tədbirdə ulu öndərin keçdiyi şərəfli həyat yolundan bəhs ediləcək bildirilib ki, Vətən, xalq qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli liderin 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Natiqlər ulu öndərlə bağlı özəl xatirələrini paylaşıb və qeyd ediblər ki, illər, əsrlər ötsə də, ümummilli lider Heydər Əliyev Günəş kimi xalqımızın yoluna daim nur saçacaq.

### Zaqatala

**Adi bir vətəndaşın öz evinin həyətində ümummilli liderin həyat və yaradıcılığına dair 500-ə yaxın fotoşəkildən ibarət ayrıca muzey yaratması dahi rəhbərə xalq sevgisinin daha bir təzahürüdür.**

Söhbət Zaqatala rayon sakini, Əməkdar mədəniyyət işçisi Rəşid Ələkbərov ərsəyə gətirdiyi Heydər Əliyev Muzeyindən gedir.

Qeyd edək ki, 74 yaşlı R.Ələkbərov 40 il ərzində dahi liderin xarici səfərlərdə və ölkə daxilində keçirdiyi görüşlər, qatıldığı tədbirlər zamanı çəkilən fotolarını toplayıb. O bildirib ki, 1983-cü ildə kəndirbaz kimi İçərişəhərdə çıxış edərkən Heydər Əliyevin diqqətini çəkib və orada ulu öndərlə görüşüb. Həmin görüşdən sonra həyatında hər şey dəyişib: "Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini idi. İçərişəhərdə təşkil olunan Xalça bayramına gəlmişdi. Çıxışımdan sonra ulu öndər mənimlə görüşdü. Dedi ki, cavan oğlan, sənə halaldır ki, bu ata-baba sənətini davam etdirirsən".

R.Ələkbərov vurğulayıb ki, bu görüşdən sonra H.Əliyevə olan hörmət və ehtiramı daha da artıb, ümummilli liderin fotolarını toplamağa başlayıb. "Yeddidən yetmiş yeddiyə, hər kəsin sevgisini qazanan ulu öndər Heydər Əliyev bütün Azərbaycan xalqının qəlbində daim yaşayır və bundan sonra da yaşayacaq", - o deyib.

### Balakən

**Dahi şəxsiyyət Heydər Əliyevin yubileyi ərəfəsində Balakəndə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorları şair-dramaturq İftixar Piriyevin müəllifi olduğu "Nurlu ömrün anları" tamaşasını oynayıblar.**

Mayın 10-da isə rayon ictimaiyyətinin nümayəndələri Mədəniyyət Mərkəzində ulu öndərin əziz xatirəsini rəsmi tədbirlə qeyd ediblər. Balakən rayon İcra hakimiyyətinin başçısı İslam Rzayev geniş məruzə ilə çıxış edib. O, bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində rayonda silsilə tədbirlər davam edir. Natiq ulu öndərin zəngin irsinin, fəaliyyətinin və ideyalarının indiki və gələcək nəsillər üçün örnək olduğu diqqətə çatdırıb. Hər bir azərbaycanlının qəlbində xalqımızın xilaskarı və müstəqil dövlətimizin qurucusu Heydər Əliyevə böyük sevgi və dərin minnətdarlıq hissi olduğunu, Onun əziz xatirəsinin daim qəbimizdə yaşayacağını vurğulayıb.

Axşam isə Heydər Əliyevin adını daşıyan parkda konsert və atəşfəşanlıq keçirilib.

*Hazırladı:*
*Əli ƏLİYEV, "Xalq qəzeti"*



# Müstəqil Azərbaycanın memarı və qurucusu

**Mayın 10-da Nizami Kino Mərkəzində Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirildi.**

Tədbirdə Nəsimi Rayon İcra Hakimiyyətinin, YAP Nəsimi rayon təşkilatının rəhbərliyi, rayondan seçilmiş deputatlar, səhiyyə, təhsil müəssisələrinin, rayonun idarə və təşkilatların rəhbərləri, şəhid ailələri, müharibə əlilləri, QHT-lərin rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və rayon gəncləri iştirak edirdilər.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov məruzə ilə çıxış etdi. O diqqətə çatdırdı ki, xalqımız Azərbaycanın XX əsrin son 30 ilinə və XXI əsrin əvvəlinə təsadüf edən tarixi və taleyi dahi şəxsiyyət Heydər Əliyevin adı və yaratdığı ideyalarla birbaşa bağlılığından qürur hissi keçirir. Vətənimiz üçün kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqına arxa olan ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoymuşdur: "Heydər Əliyevin Azərbaycanın siyasi səhnəsinin birinci şəxsi kimi fəaliyyətə başlaması və onun ölkə həyatına gətirdiyi əzəmətli inkişaf tendensiyası dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını sübuta yetirmək üçün ən tutarlı nümunədir. Azərbaycanın və Azərbaycan xalqının taleyində Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası özünün ifadəsini təkcə onun respublikamıza uzun müddət rəhbərlik etməsində deyil, bəlkə də bundan daha çox bu rəhbərliyin kifayət qədər zəngin və dolğun məzmuna malik olmasında tapır".

A.Əsgərov dedi ki, Heydər Əliyevin missiyası yalnız Azərbaycan dövlətinin dayaqlarının möhkəmləndirilməsi, müstəqilliyin inkişafı və dövlətçilik tarixinin müasir mərhələsinin sürəkliliyinin təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmadı. O, müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda, Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram uğrunda səfərbər edən milli təlim – azərbaycançılıq ideologiyasını da yaratdı.

Hazırda Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulmasına münasibət bildirən A.Əsgərov bunu ulu öndərin siyasi kursunun layiqincə davam etdirilməsi ilə əlaqələndirdi.

"Bu gün Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Prezident İlham Əliyev bu müddət ərzində torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq işləri çərçivəsində bütün zəruri addımların atılmasına nail oldu. Dövlətimizin qətiyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir oldu".

Qeyd edildi ki, ölkəmizin inkişafında, eləcə də Vətən müharibəsi dönəmində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna rolu, həmçinin, Heydər Əliyev Fondunun fəaliyyətinin əhəmiyyəti danılmazdır: "Xalqımız tam əmindir ki, möhtərəm Prezidentimizin dərin zəkası, xalqımıza olan sevgisi və ordumuzun gücü, möhkəm hüquqi bazaya əsaslanan diplomatik qələbəmiz nəticəsində soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, Azərbaycanın həyatında yeni dövr başlayacaqdır. Böyük Qayıdışın Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində möhtəşəm, parlaq olacağına əminik".

Sonra ulu öndərin həyat və fəaliyyətindən bəhs edən video-çarx nümayiş etdirildi.

Tədbir şair Zahid Əzizin ulu öndər Heydər Əliyevə həsr etdiyi şeir və Xalq artisti İlqar Muradovun ifa etdiyi mahnılarla başa çatdı.

*Ə.BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Milli səhiyyəmizin himayədarı




**Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzində (RQMM) ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə mərkəzin foyesində yeni yaradılan, ulu öndərin şərəfli həyat və fəaliyyətini özündə əks etdirən xatirə guşəsinin önünə toplaşaraq, ümummilli liderin əziz xatirəsini ehtiramla yad ediblər.**

Tədbirdə giriş nitqi ilə çıxış edən Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədov bildirib ki, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, görkəmli siyasi xadim Heydər Əliyevin xalqımızın taleyində, Azərbaycanın son yarım əsrlik tarixində misilsiz xidmətləri olub. Natiq bu gün ölkə daxilində və dünyada 100 illiyi geniş qeyd olunan ulu öndərin respublikanın bir çox sahələri kimi, səhiyyəyə də böyük önəm və diqqət verdiyini xüsusi vurğulayıb.

Tədbirin sonunda iştirakçılar Respublika QİÇS-lə Mübarizə Mərkəzi üçün alınmış yeni avadanlıq və aparatlara baxmış, bu qurğuların iş metodları ilə tanış olmuşlar.

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*

# Türk dünyasının mədəniyyət paytaxtında möhtəşəm təntənə

## Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının qala-konserti olub






**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində start götürən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının mayın 10-da Cıdır düzündə qala-konserti olub.**







Qala-konsertdə festivalda iştirak edən ölkələrin incəsənət ustaları çıxış edib.

Konsert çərçivəsində "Xarıbülbül" kompozisiyası, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistan incəsənət ustalarının təqdimatında "Söz meydanı" vokal-instrumental kompozisiya, "Türk dünyası virtuozları" ansamblının ifasında "Çahargah bəhsi", "Əfsanə Turan", "Xalq xəzinəsi" kompozisiyaları və iştirakçı ölkələrin ifaları, rəqs qruplarının digər rəngarəng çıxışları təqdim edilib.

Qala-konsert bütün iştirakçıların ifasında "Odlar yurdu Azərbaycan" kompozisiyası ilə başa çatıb.

**Maraqla qarşılanan konsert proqramından sonra Xalq artisti Hacı İsmayılov təəssüratını belə ifadə edib:** "Hər dəfə Şuşada, Cıdır düzündə olanda elə bilirəm bu yerlərə ilk dəfə gəlirəm. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivallarında 3-cü dəfədir iştirak edirəm. Hər il burada rəngarəng konsert proqramı ilə yanaşı, təbiətin də qəribəliyinin, fərqliliyinin şahidi oluruq. Sevindirici haldır ki, bu festivallar təkcə Azərbaycanın yox, bütün türk xalqlarının iştirakı ilə keçirilir. Bu da insanı mənən qürurlandırır. Bu festivalda iştirak etmək böyük xoşbəxtlikdir. Biz çox sevincliyik, nə yaxşı ki, Qarabağımız, Şuşamız işğaldan azad olunaraq belə gözəl günlərinə qovuşdu. Bu festivallar Azərbaycan xalqının yüksək mədəniyyətindən xəbər verir. Yüksək mədəniyyətə malik olan xalqlar daim inkişaf edəcək və yaşayacaq".



**Özbəkistanlı müğənni Gülçöhrə Ruzukulova ilk dəfədir ölkəmizdə olduğunu bildirib:** "Belə bir gözəl, unudulmaz festivalda iştirakdan çox məmnunam. Çox gözəl və həyəcanlı atmosfer var. Şuşa kimi cənnət bir guşədə türkdilli xalqların bir yerdə öz mədəniyyətini, incəsənətini təqdim etməsi olduqca qürurvericidir. Bu, bizim birliyimizi daha da möhkəmləndirir. Özbəkistandan bura gəldiyimiz üçün çox xoşbəxtik. İlk dəfədir Şuşadayam və qismət olsa növbəti festivallarda da böyük həvəslə iştirak edəcəyəm".

Xatırladaq ki, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Elə budəfəki "Xarıbülbül" Festivalında da TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak edirlər.

Qeyd edək ki, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı mayın 11-də yekunlaşacaq. Festivalın tədbirləri Cıdır düzü, Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün ev-muzeyi və Şuşanın digər məkanlarını əhatə edir.

Festival günlərində Şuşanın müxtəlif məkanlarında ayrı-ayrı mövzular üzrə guşələr yaradılıb. Bu guşələrdə müxtəlif bədii təqdimatlar edilir, sərgilər nümayiş olunur, konsert proqramları keçirilir.

**AZƏRTAC**

---

# "Billur şəhər"də tarixilik müasirliyə qovuşur




**Erməni faşizmi tərəfindən işğal dövründə dağıdılan, yerləyeksan edilən Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində gerçəkləşdirilən layihələr sürətlə, yüksək keyfiyyətlə icra olunur. Yaşayış sahələri və infrastrukturlar ən son texnologiyalar əsasında qurulur.**

Prezident İlham Əliyevin Vətən müharibəsindən dərhal sonra işğaldan azad olunan ərazilərin yenidən qurulmasında rəqəmsallaşmaya, üçüncü Sənaye İnqilabının ən son nailiyyətlərinə üstünlük veriləcəyi fikri də bu gün artıq öz təsdiqini tapır: "Biz şəhərlərimizi və kəndlərimizi smart texnologiya platformasına əsaslanaraq tikirik və yenidən qururuq. Ağalıda ilk kənd artıq məskunlaşdırılıb. Oraya gedən hər kəs Qarabağın yenidən qurulması modelinin necə olacağını görə bilər. Çünki bu, təkcə 30 il ərzində erməni işğalından əziyyət çəkmiş, layiqli həyat yaşamağa, tam qorunmağa layiq keçmiş məcburi köçkünlər qarşısında bizim mənəvi borcumuzun bir növ nümayişi olmamalıdır, həmçinin biz Qarabağın və Zəngəzurun yenidən qurulmasını bütün ölkə üçün nümunə hesab edirik".

Bu məqamda onu da deyək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasına iki ildən artıqdır ki, başlanılıb. Düşməndən təmizlənən yaşayış sahələrində Prezidentin xüsusi nümayəndəlik institutu tərəfindən üç ərazidə artıq rəqəmsallaşma, texnoloji inkişaf və idarəçilik modelləri uğurla sınaqdan keçirilib. Baş planlar hazırlanarkən müasir "ağıllı şəhər" yanaşmaları, "yaşıl enerji" və təmiz ətraf mühit, sənaye və kənd təsərrüfatının kompleks inkişafı, turizm potensialının geniş reallaşdırılması və digər bu kimi məsələlər prioritet götürülüb. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinə, qabaqcıl təcrübəsi olan xarici dövlətlərlə, regional və beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verilib. Bu məsələdə BMT-nin Məskunlaşma Proqramı diqqətdə saxlanılıb.

Yeri gəlmişkən, bərpa prosesində hazırda digər bir amil də diqqət mərkəzində saxlanılır. Bu, yaşayış sahələrinin tarixiliklə müasirliyin qovuşması prinsipi əsasında qurulması ilə bağlı məsələdir. Hazırda dağlar başından "billur şəhər"imiz Şuşada quruculuq işlərinin həmin fəaliyyət üzrə aparılması, şəhərin tarixiliklə müasirliyin qovuşduğu bir mədəniyyət paytaxtına çevrilməsi məhz bunun bariz ifadəsidir.

Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "Müharibədən dərhal sonra Şuşanı ziyarət edəndə məni şok vəziyyətinə salan bir hiss o idi ki, əgər onlar Şuşanın onların şəhəri olduğunu düşünürdülərsə, nəyə görə o belə pis vəziyyətdədir? Çünki öz şəhərinə belə münasibət bəsləyə bilməzsən. Bir tikili belə bərpa edilməmişdir və ya bir bina belə tikilməmişdir. Laçın yolu üzərində - o yola baxan yerdə yerləşən yalnız iki villa var idi. "De-fakto" Qarabağ rəhbərlərinin iki villası idi. Bu villalarda hovuz, manqal var idi. Bu iki villanı ziyarət edən hər kəs dırnaqarası Qarabağ rəsmilərinin riyakarlıq və kleptokratiya səviyyəsini görür…".

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfərləri zamanı bunun bir daha şahidi olduq. Məsələn, şəhərin Qarabağ küçəsində abadlıq və infrastruktur işləri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi dövlətimizin başçısının tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı şəhərin tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır. Mehmandarovların malikanə kompleksinin bərpası zamanı da həmin prinsipə əməl edilməsi də mədəniyyət paytaxtımızın tarixiliyinin müasirliyə qovuşmasından xəbər verir.

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verilərkən bildirilib ki, böyük və kiçik yaşayış binaları və ailə məscidi Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. İki il bundan əvvəl Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işlərinə başlanılıb. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib.

Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənib, tavanlar bərpa edilib. Malikanə kompleksinin dağılmış divarı bərpa olunub, zədəli divarda bərkitmə işləri aparılıb. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkəni yenidən qurulub, divar və tavanlardakı rəsmlər eskiz layihələri üzrə bərpa edilib. Məscidin "Güldəstə"si restavrasiya olunub. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb.

Bu gün Şuşada maddi-mədəni dəyərlərin bərpası ilə yanaşı, sosial infrstrukturun yenidən qurulması xüsusi diqqətdə saxlanılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olmaları da bunun əyani nümunəsidir. Burada dövlətimizin başçısına verilən məlumatda bildirilir ki, başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin avtomobil yolundan götürməklə düşməndən təmizlənən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı adıçəkilən magistralın hazırda beynəlxalq normalara uyğun tikintisi sürətlə həyata keçirilir.

Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında da iştirak ediblər. Dövlətimizin başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında verilən məlumatda Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanıldığı bildirilib.

Prezident İlham Əliyevin səfəri zamanı istifadəyə verilən "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzində müxtəlif gücdə transformatorlar, 35 kV-luq yeni yarımstansiya inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi, avtomatika sistemləri və 0,4 kV şəbəkələrini də əhatə edən SCADA dispetçer idarəetmə sistemi quraşdırılıb.

Beləliklə, Şuşada aparılan quruculuq işləri nəticəsində bu şəhər sürətlə tarixiliklə müasirliyin qovuşduğu bir mədəniyyət paytaxtına çevrilir və düşmənin işğal dövründə erməniləşdirilməyə cəhd göstərdiyi, lakin bu məkrli niyyətinə nail ola bilmədiyi Azərbaycanın belə bir incisinin tezliklə dünyanın nümunəvi məkanlarından biri olacağı heç bir şübhə doğurmur.

**V.BAYRAMOV,**
**"Xalq qəzeti"**

# Azərbaycan sülh istəyirsə, deməli, ona nail olacaq



***Biz sülh, sabitlik istəyirik. Amma Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri real sülh sazişinə inamı azaldır. Azərbaycanın sülh danışıqlarına, sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı təkliflərinə Ermənistan rəhbərliyindən pozitiv cavab verilmir. Əksinə təxribatlar törədilir.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Son zamanlar beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər sübut edir ki, bu gün xalqların sülhə, əmin-amanlığa, tərəqqiyə, birgəyaşayışa daha böyük ehtiyacı var. İkinci dünya müharibəsindən, xüsusən, "soyuq müharibə"nin başa çatmasından sonra planetimiz sülhə heç zaman indiki kimi ehtiyac duymayıb. Elmi-texniki tərəqqi dünya dövlətlərinə yeni imkanlar yaratsa da, möhtəşəm perspektivlər vəd etsə də, yeni münaqişə və müharibələrə aparan yolları da dəhşətli dərəcədə qısaltmışdır. Üstəlik, mövcud münaqişələrin aradan qaldırılmasına növbəti yeni əngəllər yaradılır.**

Məhz bu səbəblər üzündən, indi dünya sülhə daha can atır. Biz fəxrlə deyə bilərik ki, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev nəinki regionumuzda, eləcə də bütün dünyada sülhün bərqərar edilməsi üçün mümkün olan bütün addımları atıblar. Heydər Əliyevin BMT, ATƏT, AŞPA tribunalarından səsləndirdiyi sülh çağırışları heç kəsin yadından çıxmayıb. Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclaslarını apararkən, AŞPA Nazirlər Komitəsinin sessiyalarına sədrlik edərkən, Türk Dövlətləri Təşkilatının və Qoşulmama Hərəkatının sədri kimi çıxışlarında səsləndirdiyi sülh çağırışları bütün dünyanın gözü qabağındadır.

Onu da yada salaq ki, Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar Cənubi Qafqazda sülhün bərqərar edilməsinə zəmin yaratmışdı. Biz sülhün bir addımlığında idik. Ordusu darmadağın edilmiş, hərbçiləri döyüşmək istəməyən, iqtisadiyyatı çökdürülmüş, əhalisi ac-yalavac vəziyyətdə olan Ermənistanın da sülh sənədini imzalamaqdan başqa bir yolu yox idi və ona görə də İrəvan Bakıdan gələn sülh çağırışlarına müsbət cavab verirdi. Ancaq dünyanın müxtəlif yerlərində olduğu kimi, Cənubi Qafqazda da sülhün bərqərar edilməsini istəməyən, hətta, bu prosesi açıq şəkildə əngəlləyən siyasi dairələr Ermənistanın ağlını başından alaraq, onları yeni münaqişələrə, revanş xülyasına inandırdılar. Məhz həmin siyasi dairələrin planlarına görə İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Cənubi Qafqazda sülhdən əsər-əlamət yoxdur.

Əslində, rəsmi Bakı 30 il ərazilərimizi işğalda saxlamış, Qarabağ və Şərqi Zəngəzurun bütün iqtisadi imkanlarını talan etmiş, mədəni və tarixi abidələrimizi viran qoymuş Ermənistanla sülh dilində danışmalı deyildi. Ancaq biz həm xalqımızın mənəvi keyfiyyətlərini, həm ulu öndərin işləyib hazırladığı siyasi kursun əsas istiqamətlərini, həm də Prezident İlham Əliyevin bütün dünya tərəfindən yüksək qiymətləndirilən sülhpərvərlik siyasətini əsas götürərək, qonşu dövlətə sülh çağırışı etdik. Dövlət başçımız dəfələrlə dedi ki, biz müharibə səhifəsini bağlamağa hazırıq. Gəlin, sivil prinsiplər əsasında qonşuluq edək, əmin-amanlıq şəraitində yaşayaq. Çox təəssüf ki, qarşı tərəf bu humanist çağırışlara müsbət cavab verə bilmədi.

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan ərazisində – Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Azərbaycan 30 ilə yaxındır ki, bu mövqeyini danışıqlar zamanı bütün səviyyələrdə bəyan edib və buna uyğun da təkliflərlə çıxış edib. Bildirmişik ki, burada – azərbaycanlılarla bir yerdə yaşamış ermənilərin fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq.

Ancaq İrəvan rəsmiləri bəzi dövlətlərin vədlərinə hələ də inanır, müxtəlif xülyalarla yaşayırlar. Hətta, status məsələsini xortlatmaq, xalqların öz müqəddəratını təyin etmək hüququnu yenidən gündəliyə gətirmək kimi cəfəng xəyallarla yaşayırlar. Uydururlar ki, guya, həmin ərazilərdə azərbaycanlılar heç zaman kompakt şəkildə yaşamayıblar. Fakt isə ondan ibarətdir ki, ermənilər zaman-zaman həmin yerlərdə azərbaycanlıları sıxışdırmış və nəhayət 1988-1994-cü illərdə etnik təmizləmə həyata keçirmişlər. Məhz həmin etnik təmizləmə nəticəsində 1994-cü ildən sonra "ermənilərin kompakt yaşadığı ərazi" anlayışı dövriyyə gətirilmişdir.

Bütün bu hiylələrin, hoqqaların, məkrli planların cavabı cənab Prezidentin müxtəlif çıxışlarında dəfələrlə alt-üst edilmiş, onların heç birinin tarixi, dəlili olmadığı sübuta yetirilmişdir. Dövlət başçımız dəfələrlə demişdir ki, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır!

Ekspertlər yazırlar ki, sülhə mane olanlar, Azərbaycanı yenidən müharibəyə sürükləmək istəyənlər bilməlidirlər ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini müdafiə etməyə qadir dövlətdir! Ali Baş Komandanımızın dediyi kimi, Azərbaycana əzələ nümayiş etdirmək də əbəsdir!

Təbii ki, bədxahlarımızın hansısa məkrli planlarına və ya ermənilərin xaricdən "idxal etdikləri" ssenarilərinə baxmayaraq, Azərbaycan öz haqq yolunu davam etdirməkdədir. Dövlət başçımız mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransdakı çıxışında işğalçılara və onların havadsarlarına olduqca açıq şəkildə cavab vermişdir: "Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər".

Ermənistanda onu da yaxşı bilirlər ki, Prezident İlham Əliyev nəyi edəcəyəm, -deyirsə, onu reallaşdırır. Yaxud, Azərbaycan dövləti nəyi istəyirsə, ona da nail olur. Bu gün isə fakt ondan ibarətdir ki, Azərbaycan sülh istəyir, əmin-amanlığa can atır. Deməli, rəsmi Bakı buna nail olacaq.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Ermənistanda siyasi çəkişmələr güclənir

## Paşinyan doğrudanmı erməni dövlətçiliyini məhv edir?

**Əslində, bu ölkədə daxili çəkişmələr həmişə olub. Çünki hamısının xislətində oğurluq, quldurluq, terrorçuluq kimi eybəcər cəhətlər istənilən qədərdir. Elə ona görə də ötən əsrin 90-cı illərinin sonlarında parlamentin iclasındakıları gülləbaran eləmişdilər. Ondan sonra nə qədər qarşılıqlı ittihamlar olmuş, bir-birini türkə satılmaqda, Azərbaycana işləməkdə ittiham edərək, gözdən salmağa çalışmışdılar. Səbəb çox sadədir. Beynəlxalq aləmdə hamıya qarşı mif, saxtakarlıq, riyakarlıq və digər mənfiliklərlə çıxış etdiklərinə görə həmin əyriliklər canlarına hopmuşdur. Özlərinə münasibətdə də belə davrananda isə qarşı tərəf dözə bilmir.**

Burada mərhum diplomat Vəfa Quluzadənin 2009-cu il oktyabrın 5-də mətbuatda yayılmış bir yazısı yada düşür: "Türkiyə – Ermənistan yaxınlaşmasını nəzərdə tutan protokolların imzalanacağı hələ məlum deyil. Düşünürəm ki, bu protokollar imzalansa, Ermənistanı 1999-cu il İstanbul Sammitindən sonrakı taleyi gözləyir". ( Xatırladaq ki, məhz İstanbul Sammitindən sonra Ermənistan parlamenti silahlı şəxslər tərəfindən gülləbaran edilmişdi). "Çünki bu sammitdən sonra Ermənistan sülh sazişinin imzalanmasına yaxın idi. İnanıram ki, bu dəfə də Türkiyə ilə Ermənistan arasında hər hansı yaxınlaşma olarsa, mütləq yenidən belə bir ssenari təkrarlanacaq. Bunun üçün də heç kəs təminat verə bilməz ki, bu protokollar imzalanacaq".

Diqqət yetirin, yenə də Ermənistan sənədlərin imzalanması ərəfəsindədir (bu dəfə Azərbaycanla) və yenə də bir-birini öldürmək, fiziki cəhətdən yox etmək həddinə çatıblar. Hətta "Kavkaz.uzel"in yazdığına görə baş nazir Nikol Paşinyanı satqın, xain, əclaf, erməni xalqının düşməni adlandırırlar. Bu ittihamlara görə isə heç bir qanun - qayda, vicdan, ləyaqət tanımayan haylar baş naziri, sözün həqiqi mənasında, yox edə bilərlər. Heç kəs də onların gözü üstündə qaşı olduğunu xatırlatmaz. Necə ki, parlamenti gülləbaran edəndə də, bir milyon azərbaycanlını didərgin salıb, varidatını satanda da, Xocalı soyqırımını törədəndə də dünya birliyi Ermənistanı ən demokratik ölkələrdən biri kimi tanımışdı. Həmin cinayətlərin yanında Paşinyanın öldürülməsi nədir ki?

2020-ci il oktyabrın 29-da isə regionun kütləvi informasiya vasitələri yazırdıklar ki, Ermənistan daxilində siyasi çəkişmələr artır: "Xarici dairələrlə sövdələşməyə gedənlər var". Bu, o vaxt idi ki, erməni ordusu və onlara himayədarlıq edənlər Azərbaycan Silahlı Qüvvələrinin qarşısında dayana bilmir, şəhər və kəndlərimiz bir-birinin ardınca işğaldan azad edilirdi. İş bərkə düşən kimi səngəri də qoyub qaçırdılar, vətəni də satırdılar.

Qarabağdakı qondarma rejimin sabiq "dövlət naziri" Ruben Vardanyanın bu il mayın 9-da Xankəndinin İntibah meydanında təşkil etdiyi mitinqdə də əsas məsələ qarşılıqlı ittihamlar olub. "Hraparak" yazır ki, separatçı qurumun hazırkı "prezident"i Araik Arutyunyanın, "eks-prezident"lər Arkadi Qukasyan və Bako Saakyanın da iştirak etdiyi tədbirdə Nikol Paşinyanı "ağ yuyub, qara səriblər" ki, guya, baş nazir "Artsax"ın 150 gün "mühasirədə saxlanması"nın qarşısını ala bilməyib. Ancaq dil pəhləvanlarının İrəvanı tənqid etmək üçün başqa "arqumentləri" də var imiş. Mitinqdə səsləndirilib ki, guya, Nikol Paşinyan hakimiyyətyönümlü KİV-lərə əmr verib ki, bu mitinq barədə məlumat yayılmasın. Çünki Ermənistan hakimiyyəti "Artsax"da Ruben Vardanyanın ətrafında müqavimət mərkəzinin formalaşmasından narahatdır".

Onlar Ermənistanın indiki rəhbərliyini daha çox Şuşanın Azərbaycana qaytarılmasına görə ittiham edirlər və diaspor təşkilatlarına mesaj göndərirlər ki, biz Şuşaya yenə də qayıdacağıq. Yəni doxsanıncı illərdə olduğu kimi, yenə də pul göndərin. Diaspordakılar isə o qədər də axmaq olmadıqlarını son üç-dörd ildə sübut ediblər. Yəni "Artsax"dan tamamilə əl çəkiblər.

Xatırladaq ki, bu ilin aprelində Ermənistanda hakimiyyətdaxili gərginlik parlament – hökumət müstəvisinə keçmişdi. Belə ki, Ermənistan parlamentinin spikeri Alen Simonyanın küçədə törətdiyi tərbiyəsizlik – ondan satqınlıq etdiyinə görə istefa verməsini tələb edən gənci polis vasitəsilə yanına gətizdirərək üzünə tüpürməsi "bütün ermənilərin üz qaralığı" kimi qəbul edilmişdi. Mətbuat yazırdı ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan hadisəyə daha sərt reaksiya verərək Simonyanı istefaya çağırıb. Baş verəni iyrənc hadisə adlandıran Ter-Petrosyan bildirib ki, Simonyan hətta bu hədyanı izahatlarında fəxrlə təsdiqləyir. Onun sözlərinə görə, istefa beynəlxalq ictimaiyyət qarşısında xalqın şərəfini bərpa etməyin (məgər bu xalqda şərəf də var? – İ.M.) yeganə yoludur. Ermənistan parlamenti və hakim fraksiya öz avtoritetini qorumaq üçün bu addımı atmağa borcludur.

Son günlər isə satqınlıq yarlığı daha çox baş nazirə yapışdırılır. Bəzi ekspertlərin fikrincə, bu da bir oyundur. Çünki həm ABŞ, həm də Avropa Cənubi Qafqazda sülhün bərqərar olmasına şalışır və İrəvanı buna çağırırlar. Yəni Nikol Paşinyanın başqa çıxış yolu qalmır. Ona görə də Qafqazda marağı olan başqa siyasi dairələr sülhü əngəlləmək üçün Paşinyanı qurban verməyə hazırlaşırlar. Hansısa gerizəkalı erməni Paşinyanı öldürsə, sülh sazişi yenə də qeyri-müəyyən vaxtadək təxirə salına bilər. Yəni, kotan ilişəndə öküzlər bir-birini günahkar sayır.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Vaşinqtondan sonra nəzərlər Brüsselə dikilib

**Mayın 14-də Avropanın siyasi paytaxtı sayılan Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün keçirilməsi nəzərdə tutulub. Görüş Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə baş tutacaq. Bununla bağlı ilk olaraq Böyük Britaniyanın "Financial Times" qəzeti məlumat yayıb.**

Qəzet bildirib ki, bu məlumat prosesdən yaxşı xəbərdar olan üç mənbə tərəfindən təsdiqlənib. Mənbələrdən biri Brüssel görüşünün mühüm irəliləyişə səbəb olacağını qeyd edərək, Vaşinqton və Brüsselin vasitəçilik səylərinin bir-birini tamamladığını bildirib. Nəşrin yazdığına görə, liderlər sərhədlərin demarkasiyası və minalanmış ərazilərlə bağlı fikir mübadiləsi aparacaqlar.

Yayılan bu məlumat daha sonra Aİ Şurasının prezidenti Şarl Mişelin ofisi tərəfindən təsdiqlənib. Bu barədə şuranın Ermənistan və Azərbaycan üzrə bəyanatında qeyd olunub. Bildirilib ki, Ş.Mişel Cənubi Qafqazda sabitliyi və iki ölkə arasında normallaşmanı təşviq etmək üçün Azərbaycan və Ermənistan liderləri ilə sıx əlaqə saxlayır. Qeyd olunub ki, tərəflər 2023-cü ilin mayın 14-də Brüsseldə yenidən üçtərəfli görüşün keçirilməsinə razılaşıblar.

Bəyanatda, həmçinin iyunun 1-də Moldovanın paytaxtı Kişinyovda baş tutacaq Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində İlham Əliyev, Şarl Mişel və Nikol Paşinyanın Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə beştərəfli görüş keçirəcəkləri də qeyd olunub.

Liderlər, həmçinin Brüsseldə üçtərəfli görüşləri mümkün qədər tez-tez davam etdirməyə razılaşıblar. Ş.Mişel 2023-cü ilin oktyabrında Avropa Siyasi Birliyinin İspaniyanın Qranada şəhərində keçiriləcək növbəti sammiti çərçivəsində Azərbaycan, Ermənistan, Fransa və Almaniya liderlərini ikinci dəfə görüşməyə dəvət etmək niyyətində olduğunu bildirib.

Qeyd edək ki, mayın 14-də Brüsseldə keçirilməsi nəzərdə tutulan görüş fevral ayında Almaniyanın Münxen şəhərindəki danışıqlardan və iki ölkənin xarici işlər nazirlərinin ötən həftə ABŞ-da apardıqları müzakirələrdən sonra Azərbaycan və Ermənistan liderləri arasında ilk təkbətək görüş olacaq. Yeri gəlmişkən, görüşlə bağlı ABŞ da öz mövqeyini açıqlayıb. Vaşinqton Brüsseldə keçirilməsi planlaşdırılan görüşlə bağlı xəbəri alqışladığını bəyan edib. Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosunun "Tviter" səhifəsində yerləşdirilmiş paylaşımda deyilir: "Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşəcəkləri barədə xəbəri alqışlayırıq. Vaşinqtondakı danışıqlardan sonra bu görüş gələcək irəliləyiş üçün zəmin yaradacaq".

Görüşlə bağlı məlumatı ilk dəfə açıqlayan "Financial Times" qəzetinin mənbələrindən biri görüşün mühüm irəliləyişə səbəb olacağını qeyd etsə də, reallıq bundan ibarətdir ki, Ermənistanın mövqeyi razılaşma əldə etməyə imkan vermir. Xarici işlər naziri Ceyhun Bayramovun bugünlərdə Vilnüsdə litvalı həmkarı Qabrielius Landsberqislə görüşdən sonra keçirilən brifinqdə səsləndirdiyi fikirlər də bunun göstəricisidir. Nazir qeyd edib ki, münaqişədən sonrakı dövrdə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında zəif dinamika müşahidə olunur. Bütün sahələrdə, o cümlədən ikitərəfli münasibətlərin əsaslarını müəyyən edən sülh müqaviləsi layihəsi, dövlət sərhədlərinin delimitasiyası, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası üzrə əldə olunmuş tərəqqi isə qənaətbəxş deyil: "Biz Ermənistanı xoş məram nümayiş etdirməyə və ölkələr arasında münasibətlərin normallaşdırılması ilə bağlı müzakirələrdə daha çox səy göstərməyə çağırırıq".



**Gözlənilən görüş barədə "Xalq qəzeti"nə açıqlama verən politoloq İlyas Hüseynov bildirib:**

– Brüsseldə cənab İlham Əliyev və Nikol Paşinyan arasında baş tutacaq müzakirələr Qərbin başlatdığı sülh danışıqları formatının davamı kimi qiymətləndirilir. Onun sözlərinə görə, ötən ilin sonunda Ermənistan və Fransanın Brüssel formatında görüşlərin keçirilməsinə qarşı çıxdıqlarını da yaddan çıxarmaq olmaz: "Görüşün məhsuldar olacağı ehtimal olunur. Çünki Brüssel formatı hər zaman öz səmərəliliyi ilə seçilir. Digər tərəfdən, Ermənistan-Azərbaycan münasibətlərində cüzi də olsa, yaxınlaşma hiss olunur və bu, təqdirəlayiq haldır".



Politoloq Brüssel görüşünün uğurlu olacağı halda tərəflərin Kişinyovda keçiriləcək növbəti danışıqlarda sülh sazişinin yol xəritəsinin razılaşdırıla biləcəyini vurğulayıb: "Bu gün Qərb resurslarını səfərbər edib ki, Cənubi Qafqazda sülh olsun. Nə qədər uğurlu olub-olmayacağını qarşıdakı dövr göstərəcək".

Bu arada Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan İrəvan və Bakının əsas məsələlərdə hələ irəliləyişə nail olmadıqlarını etiraf edib. "Sputnik Ermənistan" agentliyinin verdiyi xəbərə görə, A.Qriqoryan deyib: "Bəzi məsələlərdə irəliləyiş var, lakin onlar əsas deyil. Biz bir daha qeyd edirik ki, danışıqlar gedir. Brüsseldən sonra Kişinyovda da görüşün keçirilməsi planlaşdırılır. Çalışacağıq ki, yanaşmaların maksimum yaxınlaşması istiqamətində işləyək və irəli gedək".

Göründüyü kimi, 30 ilə yaxın işğalçılıq siyasəti yürüdən Ermənistan rəhbərliyi bu gün də öz xislətindən əl çəkməyərək sülhə doğru real addım atmaqdan yayınır. Bu davranış qaydası əvvəllər Ermənistanda mövcud olan Koçaryan və Sarkisyan rejimlərinə də xas idi. Onlar müzakirələri uzatmaq, işğalı möhkəmləndirmək yolunu tutmuşdular. Ancaq beş il öncə – 2018-ci ilin elə bu günlərində erməni xalqı Sarkisyan rejimini tarixin arxivinə gömdü. Paşinyan hakimiyyəti sələfinin aqibətini yaşamaq istəmirsə, bu barədə yaxşı-yaxşı düşünməli və ondan dərs çıxarmalıdır.

***Səxavət NAZİMOĞLU, "Xalq qəzeti"***

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

– Növbəti görüşün Brüsseldə keçirilməsi ABŞ-ın belə deyək, topu Avropaya ötürməsi anlamına gəlmir. Aydındır ki, Rusiya problemi kökündən həll etməkdə maraqlı deyil. Ona görə də həmişə prosesi uzadır. Biz Avropa İttifaqı, Şarl Mişelin ofisi və Vaşinqtonla son vaxtlar daha uğurla işləyirik. Onlar bu məsələyə kompleks yanaşırlar və tərəflərə kömək edirlər. Buna görə də Brüssel görüşü Vaşinqtondakı müzakirələrin davamı olacaq. Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin dəqiq nə vaxt imzalanacağını, ümumiyyətlə imzalanıb-imzalanmayacağını demək çətindir. Çünki çox şey İrəvandan asılıdır. Ona görə də proqnoz vermək asan deyil.

Payızda İspaniyada keçirilməsi planlaşdırılan görüşə gəldikdə isə hətta, Ermənistanla yaxın vaxtlarda saziş imzalansa belə iki ölkə arasında bir çox məsələlər var ki, onlar müzakirə edilməli və həll olunmalıdır. Yəni, bir sazişin imzalanması ilə iş bitmir. Ona görə də düşünürəm ki, yüksək səviyyəli görüşlər hələ çox olacaq.

# Türk dövlətləri birliyinin iqtisadi qüdrəti yüksəlir

## Təşkilat ölkələrində ÜDM 1,4 trilyon dolları ötüb

**ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatı (TDT) haqqında danışarkən Azərbaycanın bu qurumun bütün fəaliyyəti dövründə fəal olduğunu vurğulayıb. Dövlət başçısı eyni zamanda, geniş coğrafiyaya, zəngin təbii sərvətlərə, o cümlədən enerji ehtiyatlarına, bəzi ölkələrin, hətta güclü hərbi imkanlara malik olmaları isə yaxın gələcəkdə TDT-yə üzv ölkələr arasında siyasi-iqtisadi əməkdaşlığın daha da möhkəmlənəcəyi əminliyi yaratdığını bildirib.**



Prezident İlham Əliyev çıxışlarında ortaq köklərə, dilə, dinə, ortaq maraqlara əsaslanan TDT-nin hər zaman möhkəmlənməyə zəruri ehtiyacı olduğunu xatırladıb, bu istiqamətdə Azərbaycan tərəfindən bir çox tədbirlər görüldüyünü vurğulayıb, hazırda da bu istiqamətdə daha önəmli addımlar atıldığını diqqətə çatdırıb. Ölkə rəhbəri bu əminliyinin təsadüfi olmadığını vurğulayaraq deyib: "Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir...".

Yeri gəlmişkən, hazırda TDT-nin tərkibində Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan yer alır. Macarıstan və Türkmənistan isə müşahidəçi dövlətlərdir. Quruma üzv ölkələrin yerləşdiyi coğrafiyaya nəzər yetirsək görərik ki, onların mövqeyi Şərqdən Qərbə tam bir marşrut təşkil edir. Azərbaycan isə bu marşrutda, necə deyərlər, açar mövqeyə sahibdir.

Azərbaycanın adları çəkilən bu türkdilli dövlətlərlə genişlənən əlaqələri müvafiq strateji tərəfdaşlıq haqqında bəyannamələr əsasında həyata keçirilir. İkitərəfli kontekstdə möhkəmlənən bu əməkdaşlıq sonda vahid mərkəzdə birləşərək vahid gücə çevrilir. Bütün bunların təməlində isə prezidentlər İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanla şəxsi təşəbbüsləri və qətiyyəti dayanır.

Təşkilatda təmsil olunan ölkələr arasında həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Bu görüşlər və biznes forumlarda quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.

Bütün bunlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Türk iqtisadi icmalı"na əsasən 2021-ci il üzrə türk dövlətlərinin ÜDM-i 1 trilyon 383 milyard ABŞ dolları, ticarət dövriyyəsi 855,7 milyard ABŞ dolları təşkil edib. 2022-ci ildə Türkiyə iqtisadiyyatı 5,6 faiz, Azərbaycan və Macarıstan iqtisadiyyatı 4,6 faiz, Türkmənistan iqtisadiyyatı 6,2 faiz, Özbəkistan iqtisadiyyatı 5,7 faiz, Qırğızıstan iqtisadiyyatı 7 faiz, Qazaxıstan iqtisadiyyatı isə 3,2 faiz böyüyüb.

Dövlət büdcəsinin gəlirlərinin artımı baxımından isə ən yaxşı göstərici 100,6 faizlə Türkiyədə qeydə alınıb. Qardaş ölkənin dövlət büdcəsinin gəlirləri 147 milyard 122,2 milyon ABŞ dolları olub. Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 34 milyard 350,4 milyon ABŞ dolları) və Azərbaycan (ticarət balansı 27 milyard 132,3 milyon ABŞ dolları) çatıb. Keçən il ərzində TDT-yə daxil olan bütün ölkələrdə əsas kapitala yönələn vəsaitlərdə artım müşahidə edilib.

Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir.

Ötən il Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dolларadək yüksəlib. Türkmənistanla dövriyyədə 5,1 dəfə artım qeydə alınıb. İki ölkənin qarşılıqlı ticarətinin həcmi 2021-ci ildəki 105 milyon 23 min dollardan 2022-ci ildə 535 milyon 397 min dollara çatıb. Özbəkistanla ticarətdəki 64 faizlik artım birgə dövriyyəni 111 milyon 903 min dollardan 2022-ci ildə 183 milyon 307 min dollaradək artırıb. Mərkəzi Asiyanın digər türk dövləti olan Qırğızıstanla da ticarət dövriyyəmizdə artım qeydə alınıb. İki dövlət arasındakı dövriyyə ötən il 17 faiz artaraq 9 milyon 18 min dollardan 2022-ci ildə 10 milyon 809 min dollaradək yüksəlib. Qardaş Türkiyə ilə ticarət dövriyyəmiz ötən il 6 milyard dollara yaxınlaşıb: 2021-ci ildə 4 milyard 661 milyon dollar olan ticarət dövriyyəsi ötən il 5 milyard 842 milyon dollaradək yüksəlib.

Beləliklə, türk dövlətləri arasında qarşılıqlı iqtisadi-siyasi əlaqələrin sürətlə dərinləşməsi müşahidə olunur. "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" və "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" sazişlər bu prosesin daha da sürətlənməsinə, türk dövlətlərinin dünyanın ən mühüm ticarət yolunun sahibinə çevrilməsinə təkan verəcək.

***Vaqif BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Eldəniz ƏMİROV,**
**iqtisadçı ekspert**

Bu gün türk dünyası iqtisadiyyatının həcmi 1,2 trilyon dollardan çoxdur. Bu, türk dövlətləri arasında əlaqələrin getdikcə güclənməsinə və inteqrasiyasına imkan verir.

Zəngəzur dəhlizi açıldıqdan sonra bu inteqrasiya tamamlanacaq. Müxtəlif sazişlərin qəbulu istər gömrük, istərsə də logistik sahədə əməkdaşlıq imkanlarını genişləndirəcək. Son dövrlər Azərbaycanın bütün türk dövlətləri ilə iqtisadi əlaqələrində, əsasən də ticarət dövriyyəsində ciddi artımlar var. Artımın ən az olduğu ölkə Qırğızıstandır ki, bununla belə, 17 faiz artım var.

Özbəkistanla 64 faiz, Qazaxıstanla 135,8 milyon dollarlıq ticarət dövriyyəsi 600 milyon dollara çatıb. Həmçinin Türkmənistanla ticarət dövriyyəsi 5,1 dəfə artıb. Türkiyə ilə 4,6 milyon dollardan 5,8 milyon dollara çatıb. Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 7,2 milyard dollara yüksəlib.

Bu gün Ələt Beynəlxalq Ticarət Limanının yükdaşıma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində işlər gedir. Bundan başqa Zəngəzur dəhlizinin açılması istiqamətində proses davam edir və vahid türk dünyasının inteqrasiyası ilə bağlı layihələr reallaşdırılır. İndi haqqında danışdığımız logistik fəaliyyətin asanlaşdırılması ilə bağlı "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" mühüm bir saziş də imzalanıb. Yəni bütün bunlar kompleks şəklində türk dünyasında vahid iqtisadi sistemin qurulmasına və ciddi inkişafa öz töhfəsini verəcək.

**Vergi Məcəlləsinə əsasən, müştərilərin depozitlərinin və hesablarının idarə edilməsi, tədiyələr, köçürmələr, borc öhdəlikləri və tədiyə vasitələri ilə bağlı əməliyyatlar maliyyə xidmətlərinə aid edilib.**

## Qeyri-rezidentin gəliri ilə bağlı vergi öhdəliyi müəyyənləşib



Dövlət Vergi Xidmətindən bildirilib ki, məcəlləyə görə, idarəetmə, maliyyə xidmətləri göstərilməsindən əldə edilən gəlir - bu gəlir rezident hüquqi şəxsin və ya qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisində yerləşən daimi nümayəndəliyi tərəfindən ödənilirsə, yaxud o, həmin müəssisə və ya onun daimi nümayəndəliyi ilə bağlanmış müqaviləyə əsasən əldə edilibsə, Azərbaycan mənbəyindən gəlirlərə aid edilir.

Həmçinin qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması Vergi Məcəlləsinin 125.1-ci maddəsi ilə tənzimlənir.

Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinin müddəalarına əsasən qeyri-rezidentin, Vergi Məcəlləsinin 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən digər gəlirlərindən ödəmə mənbəyində xərclər çıxılmadan 10 faiz dərəcə ilə vergi tutulur.

## Hərraca 40 dövlət əmlakı çıxarılacaq

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən mayın 30-da keçiriləcək növbəti hərraca çıxarılan 40 əmlakdan 3-ü səhmdar cəmiyyətinin səhm paketi, 12-si kiçik dövlət müəssisəsi və obyekti, 25-i isə nəqliyyat vasitəsidir.**

Hərracda iştirak edəcək şəxslər təmir və nəqliyyat sahələri üzrə "Azinterservis", "Yevlax Tikinti-Quraşdırma" və "Xaçmaz Mexanizasiya-Nəqliyyat" səhmdar cəmiyyətlərinin səhmlərini özəlləşdirə bilərlər. Səhmdar cəmiyyətlərin nizamnamə kapitalı 65 min manatla 886 min 154 manat arasında dəyişir. Dövlət əmlaklarının əksəriyyəti torpaq sahələri ilə birgə özəlləşdirilməyə çıxarılıb. Hərraca çıxarılan nəqliyyat vasitələri əsasən Rusiya və Çexiya istehsalıdır.

***"Xalq qəzeti"***

**Azərbaycan Türkiyəyə təbii qaz ixracını 2023-cü ilin fevralında 2022-ci ilin analoji dövrü ilə müqayisədə 9,12 faiz artıraraq 747,52 milyon kubmetrdən 815,73 milyon kubmetrə çatdırıb.**

## Qardaş ölkədə qaz tədarükü artıb



Türkiyə Enerji Bazarlarının Tənzimlənməsi İdarəsinin yaydığı məlumata əsasən, Azərbaycan hesabat dövründə qardaş ölkəyə təbii qaz ixracının həcminə görə üçüncü yer tutub.

Bu ilin fevral ayında Türkiyəyə ən böyük təbii maye qaz ixracçısı 2,066 milyard kubmetr göstərici ilə Rusiya olub. Göstərici 2022-ci ilin analoji dövründəki tədarüklə müqayisədə 12,20 faiz azdır.

İkinci yerdə 1,021 milyon kubmetr göstərici ilə ABŞ dayanıb ki, bu göstərici də 2022-ci ilin fevralı ilə müqayisədə 31,07 faiz azdır.

Qeyd olunan dövrdə Türkiyə bütünlükdə qaz idxalını 2022-ci ilin fevral ayı ilə müqayisədə 4,16 faiz azaldaraq 6,273 milyard kubmetrdən 6,012 milyard kubmetrə salıb ki, bunun da təqribən 3,147 milyard kubmetri boru kəmərləri ilə tədarüklərin, 2,864 milyard kubmetri isə maye təbii qazın payına düşüb.

***"Xalq qəzeti"***

# Azərbaycan "Bir kəmər, bir yol" layihəsini fəal dəstəkləyib

**Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda Azərbaycanın beynəlxalq nəqliyyat-logistika layihələrində fəal iştirakı bir daha vurğulanıb. Geniş diskusiya və fikir mübadiləsi şəraitində keçən tədbirdə dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın tarixi İpək Yolunun, eləcə də Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinin canlandırılmasına verdiyi önəmli töhfələrdən ətraflı bəhs edib. Qeyd olunub ki, ölkəmiz, həm də regionda və dünyada sürətli inkişafa və tərəqqiyə xidmət edən istənilən xoşməramlı təşəbbüsü həmişə dəstəkləyib.**




Bu baxımdan Azərbaycanın Çin Xalq Respublikasının irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə münasibəti də birmənalı olaraq müsbətdir. Şuşa konfransında Albaniya Beynəlxalq Araşdırmalar İnstitutunun İdarə Heyətinin üzvü Arian Starovanın "Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün gələcəyi barədə nə düşünürsünüz?" sualını cavablandıran Prezident İlham Əliyev "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycan tərəfindən həmişə dəstəkləndiyini bildirib. Dövlətimizin başçısı Azərbaycanın 2019-cu ilin yazında Çində keçirilmiş "Bir kəmər, bir yol" təşəbbüsünə həsr olunmuş beynəlxalq konfransa dəvət almış və orada yüksək səviyyədə iştirak etmiş məhdud sayda ölkələrdən biri olduğunu xatırladaraq deyib: "Azərbaycan xüsusilə indi bu layihənin mühüm hissəsi hesab olunur. Biz çox nikbin fikirdəyik. Nikbinliyi artıran, ilk növbədə, odur ki, biz öz üzərimizə düşən işi çox yaxşı yerinə yetirmişik. Artıq qeyd etdiyim kimi, nəqliyyat infrastrukturunu müasirləşdirmək və daha çox imkanlar yaratmaq üçün onu tamamilə müasirləşdirmişik və hələ də son tamamlama işlərini görürük".

Məlum olduğu kimi, son illər beynəlxalq aləmlə nəqliyyat və logistika sahəsində uğurlu əməkdaşlıq edən Azərbaycan tranzit ölkə kimi də üzərinə düşən bütün öhdəlikləri tam yerinə yetirir. İndi ölkəmizdə beynəlxalq nəqliyyat dəhlizlərinin uğurlu fəaliyyətini təmin edən ən müasir yol və nəqliyyat infrastrukturu mövcuddur. Bu da Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini ildən-ilə artırır. Şuşa konfransında bu mühüm məqama toxunan Prezident İlham Əliyev bildirib ki, Mərkəzi Asiya tərəfindən bizim infrastrukturumuzdan istifadə etməyə böyük maraq var. Dövlətimizin başçısı, həmçinin ötən ilin sonunda Çin, Qırğızıstan, Özbəkistan və Xəzər arasında yeni dəmir yolu əlaqəsinin qurulmasına başlanılmasını "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılması istiqamətində mühüm addım kimi dəyərləndirib.

Bununla belə, istənilən dəhlizin uğurlu fəaliyyəti təkcə bir ölkədən, lazımi infrastrukturdan asılı deyil. Bunun üçün, həm də vahid tarif və gömrük siyasəti formalaşdırılmalıdır. Prezident İlham Əliyevin bununla bağlı mövqeyi də aydın və konkretdir: "Hazırda biz Xəzərin şərq sahillərində və ümumiyyətlə, Mərkəzi Asiyada tərəfdaşlarımızla birlikdə vahid tariflərin müəyyən olunması üzərində, bu yolun təkcə nəqliyyat təhlükəsizliyi baxımından deyil, həm də kommersiya baxımından əhəmiyyətli olması üzərində işləyirik və bu, mümkündür. Əgər bu layihələrdə iştirak edən hər bir ölkə ədalətli şəkildə davransa və biz vahid tariflərin müəyyənləşdirilməsinə, eləcə də gömrük idarəçiliyinə dair razılığa gəlsək, bu, həm də bürokratik prosedurları məhdudlaşdırmaq üçün, birgə əməliyyatların elektron formalarının daha çox olması baxımından olduqca vacibdir".

Prezident İlham Əliyev Pakistanın Cənubi Asiya və Beynəlxalq Araşdırmalar Mərkəzini təmsil edən Mahmud Həsən xanın "Azərbaycanın Zəngəzur dəhlizi məsələsinin həllində Çinin diplomatik yardımına ehtiyacı varmı" sualına cavab olaraq bildirib ki, Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolu əlaqəsi yaradılır və Zəngəzur dəhlizi həmin marşrutun davamı, "Bir kəmər, bir yol" layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola bilər.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*

**Təbriz YADİGAROV,**
**Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



İqtisadi əməkdaşlığın və beynəlxalq ticarətin genişləndirilməsi məqsədilə başlanan "Bir kəmər, bir yol" təşəbbüsünün geosiyasi səbəblərə və hegemonluq istəyinə söykəndiyi iddia edilsə də, hazırda beynəlxalq güc balansında çəkisi olan Çin Asiya–Sakit okean regionunda əhəmiyyətli güc proyeksiyası yaratmağa müvəffəq olub. Bu layihənin mühüm komponentlərindən biri Çinin Sincan əyalətini Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, İran və Türkiyə vasitəsilə Aralıq dənizi ilə birləşdirəcək Çin–Mərkəzi Asiya–Qərbi Asiya iqtisadi dəhlizidir. Bu dəhlizin ən mühüm həlqəsi Orta Dəhlizin tərkib hissəsi olmaqla, həm də Avropadan Asiyaya gedən beynəlxalq marşruta alternativ kimi çıxış edəcək Zəngəzur dəhlizidir ki, bu da regionun inkişafına əsaslı təkan verəcək.

Bəşər tarixində ən iddialı iqtisadi inkişaf proqramlarından biri hesab edilən, Çin və Avropanı inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu və elektrik xətləri, limanlar, boru kəmərləri və digər mühüm infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyən bu layihə 65 ölkəni, 4,4 milyard insanı və dünya ümumi daxili məhsulunun 40 faizini əhatə edir. Təsir dairəsi çox böyük olduğu üçün layihə beynəlxalq ictimaiyyətin də böyük marağına səbəb olub. Statistik mənbələrə görə, kəmərlər və yolların tikintisinə Çin sərmayəsinin məbləği 1 trilyon dollardan 8 trilyon dollara qədərdir. Dünya Bankının məlumatına görə, dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində investisiyalar 575 milyard ABŞ dolları təşkil edir.

Xəzər dənizində və Qara dənizdə infrastrukturun yeni inkişafı Orta Dəhliz vasitəsilə tranzit daşımalarını daha da optimallaşdırır. Yeni (Ro-Ro) terminalının elan edilməsi, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanında illik 2,5 milyon ton yükdaşıma gücünə malik yeni gübrə terminalının tikintisi ticarətin gücləndirilməsi üçün mühüm addımlardır. Hər iki layihə problemləri azaldacaq, Bakı Limanının imkanlarını artıracaq və daha çox yük cəlb edəcək. Yumşaq infrastruktur baxımından Azərbaycanın vahid tranzit yükdaşımaların idarə edilməsi mərkəzinin yaradılması ilə bağlı qərarı sərhəd-keçid prosedurlarının sadələşdirilməsinə və rəqəmsallaşmasına, xərclərin azaldılmasına, habelə Bakı Limanından sərhədyanı ərazilər vasitəsilə tranzit əməliyyatlarının sinxron planlaşdırılması və idarə olunmasının təkmilləşdirilməsinə əhəmiyyətli dərəcədə kömək edəcək.

# Omanın nüfuzlu jurnalında ulu öndər Heydər Əliyev haqqında məqalə dərc edilib

**Omanın nüfuzlu "Hibr əl-Vətən" jurnalında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirovun müəllifi olduğu məqalədə bu günlərdə xalqımızın və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların dahi siyasətçi, Azərbaycanı parçalanma və məhv olma təhlükəsindən xilas edərək inkişaf və əmin-amanlıq yoluna çıxaran ümummilli lider Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyi bildirilib. Omanlı oxucuların diqqətinə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub.


الذكرى المئوية لميلاد حيدر علييف الزعيم القومي ومؤسس أذربيجان الحديثة

Məqalədə Heydər Əliyevin müdrik siyasətini davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun torpaqlarımızı erməni işğalından azad etdiyi, İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən sonra ölkəmizin Ermənistanla hərtərəfli sülh sazişinin əldə edilməsi, regionda dayanıqlı sülhün və sabitliyin bərqərar olması istiqamətində səylərini davam etdirdiyi diqqətə çatdırılıb.

Xalqımızın ümummilli liderinin zəngin həyat və fəaliyyəti haqqında ərəb Oman ictimaiyyətinə ətraflı məlumat verən tədqiqatçı-alim qeyd edib ki, Heydər Əliyevin fədakarlıqla dolu həyatının hər bir anı Azərbaycan xalqı üçün iftixar mənbəyi və milli sərvətdir. Müəllif vurğulayıb ki, ulu öndər istər sovet hakimiyyəti, istərsə də müstəqillik illərində öz xalqının gələcəyi, rifahı və əmin-amanlığı üçün çalışıb. O, SSRİ-nin ali hakimiyyət orqanı olan Siyasi Büronun üzvü seçilib, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Heydər Əliyev həmin vəzifələrdə də doğma Vətəni naminə böyük işlər görüb. Dahi lider misilsiz xidmətləri ilə öz adını tarix səhifələrinə qızıl hərflərlə yazdırıb. O, eyni zamanda, müasir Azərbaycan dövlətinin qurucusu kimi xalqın böyük ehtiramını qazanıb.



# Sülh danışıqlarının marşrutu: Brüssel – Moskva

**Mayın 19-da Moskvada sülh sazişinin konkret hansı mətninin nazirlər arasında danışıqların mövzusu olacağı hələlik bilinmir.**

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin mayın 19-da Moskvada görüşəcəkləri barədə məlumat yayan Hayastanın xarici siyasət idarəsindən qarşıdakı danışıqların təfsilatı barədə jurnalistlərə heç nə deyilməyib.

Bir gün əvvəl Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Safaryan media nümayəndələri ilə söhbətində bildirmişdi ki, masanın üzərinə sülh sazişinin mətni qoyulacaq. Amma o, nazirlərin görüşünün harada baş tutacağını dəqiqləşdirməmişdi.

Dünən günün ikinci yarısında Ermənistan XİN-in mətbuat katibi Ani Badalyan ilkin məlumata aydınlıq gətirmək məqsədilə bildirib ki, iki ölkənin xarici işlər nazirləri arasında sülh danışqıları Rusiya tərəfinin dəvəti ilə mayın 19-da Moskvada keçiriləcək.

Oxuculara xatırladaq ki, ABŞ Dövlət Departamentinin təşəbbüsü ilə mayın 1-dən 4-dək Vaşinqtonda Azərbaycan və Ermənistan XİN başçıları Ceyhun Bayramov və Ararat Mirzoyan arasında təkbətək və geniş formatda danışıqlar aparılıb. Sülh danışıqlarının davam etdiyi dörd gün ərzində nazirlər iki dəfə Birləşmiş Ştatların Dövlət katibi Antoni Blinkenlə görüşüblər. Cənab Blinken danışıqlar başa çatdıqdan sonra bəyan etmişdi ki, İrəvan və Bakı sülh müqaviləsinin imzalanmasına aparan yolda əhəmiyyətli dərəcədə tərəqqiyə nail olublar.

Onu da qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti sülh danışıqları Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşkilatçılığa ilə mayın 14-də Brüsseldə keçiriləcək. Beləliklə, ölkə başçılarının Brüssel görüşündən beş gün sonra Kreml XİN başçıları arasında sülh sazişinə dair danışıqlara evsahibliyi etməyə hazırlaşır.

*"Xalq qəzeti"*

# Paşinyan rejiminin maskası yırtıldı

**Özünü dünyaya demokratik, insan hüquq və azadlıqlarının qorunduğu ölkə kimi sırımağa çalışan Ermənistan hökumətinin maskası növbəti dəfə yırtıldı. Nikol Paşinyan rejimi anti-humanist, anti-bəşəri mahiyyətə malik olduğunu, beynəlxalq humanitar hüququ heçə saydığını bütün cahana bir daha nümayiş etdirdi.**





Bu ilin aprelində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində Azərbaycan Ordusunun itkin düşmüş və haylar tərəfindən əsir götürülmüş əsgəri Aqşin Bəbirov üzərində tələm-tələsik qurulan saxta "məhkəmə prosesi" onun mayın 8-də qanunsuz olaraq 11,5 il müddətinə azadlıqdan məhrum edilməsi ilə yekunlaşdı. Bir aydan da az çəkən müddət ərzində keçirilən proses, bəlkə də, sürətinə görə, Ginnesin "Rekordlar kitabı"na düşməyə layiqdir.

Bu məqamın özü də prosesin nə qədər qeyri-şəffaf, kortəbii və Ermənistan hakimiyyətinin siyasi sifarişi ilə aparılmasının göstəricisidir. Hazırda orada ordumuzun daha bir əsgəri – Hüseyn Axundovun üzərində qurama "məhkəmə prosesi" keçirilir. Ermənistan rejiminin Azərbaycana və azərbaycanlılara münasibətdə xəbis mahiyyəti onun barəsində də qanunsuz qərar çıxarılacağını deməyə əsas verir.

Əsgərimizin qanunsuz olaraq azadlıqdan məhrum edilməsinə Azərbaycanın müvafiq dövlət qurumları münasibət bildiriblər. Xarici İşlər Nazirliyi Aqşin Bəbirovun həbsi ilə bağlı qondarma qərarı şiddətlə qınayıb. Qeyd edilib ki, əsgərlərimizi amansız fiziki işgəncələrə məruz qoyan Ermənistan bu qurama "məhkəmə prosesi" vasitəsilə onları mənəvi-psixoloji işgəncələrə də məruz qoyur: "Bu cür məsuliyyətsiz davranışı ilə Ermənistan beynəlxalq humanitar hüquqa əsasən daşıdığı hüquqi məsuliyyətə, beynəlxalq ictimaiyyətin girovların azad edilməsi barəsində çağırışlarına və humanizm prinsiplərinə məhəl qoymadığını bir daha nümayiş etdirir. Bu qurama addım Ermənistan tərəfinin etimad quruculuğu tədbirinə qarşılıq vermədiyini, bölgədə barışıq və etimad yaradılmasında maraqlı olmadığını göstərir. Etimad quruculuğu səylərinə zərbə vurulmasının məsuliyyəti tam olaraq Ermənistanın üzərinə düşür. Ermənistan beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan bu təxribatçı fəaliyyətinə son qoymalı, girov götürülmüş əsgərləri dərhal azad etməlidir".

XİN əsarətdə olan əsgərlərimizin tezliklə azad edilməsi və ailə üzvlərinə qovuşması üçün bütün beynəlxalq ictimaiyyəti, aidiyyəti təşkilatları və QHT-ləri Ermənistana ciddi təsir və təzyiq göstərməyə çağırıb.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva da yaydığı bəyanatda saxta "məhkəmə prosesi" və Aqşin Bəbirovun qanunsuz olaraq azadlıqdan məhrum edilməsini kəskin şəkildə pisləyib: "İştirakçısı olduğu beynəlxalq sənədlərdə təsbit olunmuş normalara zidd olaraq, azərbaycanlı hərbi qulluqçuları qəddarcasına işgəncələrə məruz qoyan Ermənistan indi də qondarma "məhkəmə prosesi" təşkil etməklə, beynəlxalq və prosessual normaları kobud şəkildə pozaraq onları qanunsuz olaraq azadlıqdan məhrum edib".

Ombudsmanın bəyanatında daha əvvəl Ermənistanda əsgərlərimizin qanunsuz həbsi ilə əlaqədar beynəlxalq və regional təşkilatlara müraciət edildiyi qeyd olunub: "Onların qeyri-insani rəftara və zorakılığa məruz qalması ilə bağlı Ermənistan mediasında yayımlanmış video və fotoların araşdırılması tələb olunub, məsələ ilə bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinin mərkəzi və Bakı ofisinə məktub ünvanlanıb. Qondarma "məhkəmə prosesi"ndə verilmiş "qərarı" ədalətsiz hesab edir, azadlıq hüququnun kobud pozulmasına səbəb olan bu qərarın beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu bildirir, əsgərlərimizin tez bir zamanda azad olunmasını tələb edirik".

***

Qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyi Aqşin Bəbirovun həbsi barədə aprelin 10-da, Hüseyn Axundovun həbsi barədə isə aprelin 12-də məlumat yayıb. Məlumatda onların gecə vaxtı tutulduqları qeyd olunub. Aprelin 13-də parlamentdə çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyan bu məsələdən sui-istifadəyə çalışıb. O qeyd edib ki, Ermənistan ərazisində həbs edilən Azərbaycan əsgərləri, guya, geri qayıtmaq istəklərini bildirməyiblər.

Paşinyan daha sonra ağ yalana və böhtana keçib: "Aparılmış istintaq-əməliyyat tədbirləri nəticəsində məlum olur ki, Azərbaycan Ordusunun hərbçisi öz əsgər yoldaşı ilə digər əsgər yoldaşlarının təzyiq və təhqirlərinə məruz qalaraq, sadəcə olaraq, mövqelərindən qaçıblar. Beynəlxalq öhdəliklərimizə görə, belə vəziyyətdə olan şəxs geri qayıtmaq istəmirsə, biz onu zorla geri qaytara bilmərik. Ən azından indiki məqamda əsgər belə bir arzu ifadə etməyib".

Sonradan isə Bəbirov və Axundov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunublar. Qeyd etdiyimiz kimi onlardan biri barədə "hökm" çıxarılıb, digəri ilə bağlı "istintaq tədbirləri" davam edir.

N.Paşinyanın parlamentdə səsləndirdiyi fikirlərlə sonradan əsgərlərimizə qurama cinayət işinin açılması və azadlıqdan məhrum etmələri arasındakı ziddiyyəti, məntiqsizliyi görürsünüzmü? Yaxşı, əgər əsgərlərimiz Paşinyanın iddia etdiyi kimi, "mövqelərindən qaçıblarsa" onlara hansı əsasla cinayət işi açılıb? Onun parlamentdəki açıqlaması ilə sonradan atılan addımlar absurdun zirvə nöqtəsidir. Əslində isə Ermənistan hökuməti bununla 44 günlük Vətən müharibəsindən sonra – dekabrın 10-da Xocavənddə təxribat-diversiya əməlləri törətdikləri üçün həbs edilən və Azərbaycan məhkəmələrinin barələrində qanuna müvafiq olaraq azadlıqdan məhrumetmə qərarı çıxardığı şəxslərin dəyişdirilməsinə nail olmağa çalışır. Başqa sözlə desək, İrəvan bu məsələni sövdələşmə obyekti etmək istəyir. Bu cür mənəviyyatdan kənar hərəkət isə yalnız Paşinyan iqtidarına xas ola bilərdi. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın Tərtər, Bərdə şəhərlərini, habelə cəbhədən yüzlərlə kilometr aralıda yerləşən Gəncə şəhərini raket və ağır artilleriya atəşinə tutan, mülki insanları – qadınları, uşaqları, yaşlı insanları qətlə yetirən, Mingəçevir su elekrik stansiyası kimi kritik infrastruktur obyektimizi sıradan çıxarmağa çalışan Paşinyan hakimiyyətindən əsgərlərimizlə bağlı bu addım gözlənilən idi.

***S.HƏMİD, "Xalq qəzeti"***

# Amerika Birləşmiş Ştatları və əllərindəki silah



**Məşhur sovet atom fiziki, dissident yazar Andrey Saxarov müasirlərinin gözündə qəribə insan təsiri bağışlayırdı. Sonradan hüquq müdafiəçisinə çevrilib hakimiyyət əleyhinə çıxmaqla ad qazanmış, anti-sovet baxışları səbəbindən sülh üzrə Nobel mükafatına layiq görülmüş bu alim, ekstravaqant baxışları ilə seçilmiş və haradasa ciddi qəbul edilməyən SSRİ lideri Nikita Xruşşovu da təəccübləndirmişdi. Saxarov hələ tədqiqatçı kimi fəaliyyət göstərdiyi dönəmdə Amerika qitəsinin kənarları boyunca 100 meqatonluq bombalar yerləşdirmək və zəruri anda onları işə salaraq qitəni batırmaq fikrini irəli sürmüşdü.**

Tarixdən kiçik fraqmenti yada salmaqda məqsədimiz Saxarov haqqında söz açmaq deyil. Bu yazını oxuduqca elə qənaət də formalaşmasın ki, dissident yazarın fikrində haqlı olduğunu düşünürük. "Soyuq müharibə" şəraitində onun söylədikləri savaşın beyinlərdəki psixozu idi. Çünki SSRİ-nin mübarizəsi təkcə Qərb sistemi qismində ABŞ hakimiyyətinə yox, eyni zamanda, əlisilahlı bütün Amerika cəmiyyətinə qarşı idi. Maraqlıdır ki, "soyuq müharibə"ni silahsız qazanmasına baxmayaraq, ABŞ cəmiyyəti təpədən-dırnağacan silaha sarılmışdı. Vəziyyət indi də dəyişməyib. Görünür, başqa cür mümkün deyil. Həm də ona görə ki, ABŞ konstitusiyası silahı obrazlı desək, insan azadlığının rəmzinə çevirib. Yeri gəlmişkən, mövzumuz Amerika və silahdır.

Ötən əsrin 70-ci illərinin ortalarından 90-cı illərinədək Avstraliyada bir neçə kütləvi qırğın hadisəsi yaşandı. Onların 1996-cı ildə baş vermiş daha dəhşətlisindən sonra ölkənin o zamankı baş naziri Con Hovard silah sahiblərinə münasibətdə sərt tədbirlər görməyə başladı. İlk növbədə silahdan istifadəyə dair qaydalar sərtləşdirildi. Hazırda Avstraliyada həmin sərt qaydalar tətbiq edilir. Ölkə qanunvericiliyinə görə, silah üçün rəsmi razılıq müddəti bir neçə il çəkə bilər. Bu siyasət öz bəhrəsini verir. 1996-cı ildən bəri Avstraliyada qətl halları bir neçə dəfə aşağı düşüb. Ancaq ABŞ-da belə sərt tədbirlərə əl atmaq istəyənlər yoxdur. Ölkədə kütləvi qətl olaylarının faiz dərəcəsi Qərbi Avropa ölkələrindən qat-qat çoxdur, Latın Amerikasında isə vəziyyət ABŞ-dakından da dramatikdir. Ümumən, Birləşmiş Ştatlar və Cənubi Amerika bu göstərici üzrə Avrasiyanı xeyli üstələyir.

Amerikanın silah sevdasının psixoloji kökləri var. Məlumdur ki, ölkədə müxtəlif irqlərdən olan insanlar yaşayırlar. Burada Avropadan gələn intervensionistlər və onların nəsilləri yerli əhalini qırıb-çatıb. Buna görə psixoloqlar bildirirlər ki, insanlara qarşı zorakı münasibət əsrlərin süzgəcindən çıxmış Amerika düşüncə tərzinin məhsuludur. Digər tərəfdən, ABŞ-da, eyni zamanda, belə bir populist fikir də var ki, silahdan istifadə hakimiyyətin tiran üsul idarəsilndən qorunmaq üçün həyati əhəmiyyətli müdafiə vasitəsidir. Ölkə konstitusiyasına ikinci düzəlişdə göstərilib ki, yaxşı tənzimlənmiş asayişə malik olmaq naminə vətəndaşlar silah gəzdirmək hüququnu özlərində saxlamalıdırlar.

Maraqlıdır ki, üzərindən iki əsrdən artıq müddət keçməsinə baxmayaraq, ABŞ-da bir növ, köhnə mahnılar oxunur. Ölkədə odlu silahdan istifadə səbəbindən anarxizm baş alıb gedir. Başqa sözlə desək, azadlığın müdafiəsi bu gün kütləvi qan axıdılması ilə nəticələnir. Silahın azadlığı təmin etməsinə dair mülahizə ona görə absurd səciyyə daşıyır ki, dünyanın əksər demokratik ölkələri çoxdandır odlu silahın fərdi istifadəsinə qarşı mübarizə aparırlar. Amerika cəmiyyəti buna getmir. Yoxsa, zülm kimi, silah da psixoloji mahiyyət daşıyır? Bəlkə bu, Birləşmiş Ştatların apardığı qlobal müharibələrin başa çatmadığına görədir? Çox güman, mövcud səbəbdən ölkə rəhbərliyi insanların əlini silahdan uzaq tutmaq istəmir. İmkan vermir ki, əhali öldürmək yönümlü köklənişindən ayrı düşsün. Ancaq fakt budur ki, "silahlı amerikalılar" demokratiyanın liberal mahiyyətinə xələl gətirir, qanunsuzluqlara yol açırlar. Axı silahdan istifadənin prezident, senator və vəzifəli şəxslərin canına qəsd olunması kimi də təmayülləri var. Görəsən, bu, hansısa mənada dövlətin idarəçilik qabiliyyətli potensialının da təhdid olunması kimi qarşılanmır?

Daim şəffaflıqdan danışan və dünyaya bunu təlqin edən Amerika Birləşmiş Ştatlarında bu gün neçə nəfərin silah gəzdirdiyinə dair rəsmi statistika gündəmə gətirilmir. Əlbəttə, müəyyən hesablamalara görə, bu rəqəm 270 milyona yaxındır. ABŞ-da əhalinin sayı 320 milyona çatmırsa, mövcud silah göstəricisi olduqca böyük sayılmalıdır. Daha bir statistika: ölkədə aparılmış rəy sorğularının nəticələrinə əsasən müəyyənləşib ki, Amerikada evlərin 47 faizində tapança var.

***R.AMİN***

# "Anadolu Qartalı-2023" beynəlxalq təlimində nümunəvi uçuşlar icra olunub

**Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Qartalı–2023" beynəlxalq taktiki-uçuş təlimində növbəti tapşırıqlar icra olunub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları Su-25 hücum və ikiyerli təlim-döyüş F-16 qırıcı təyyarələrində türkiyəli pilotlarla birgə uçuşlar, eləcə də plana uyğun müxtəlif tapşırıqlar yerinə yetiriblər.

Təlim uçuşları zamanı pilotlarımızın F-16 tipli təyyarələrin idarə olunması üzrə bilik və bacarıqları, uçuş heyətinin ümumi hazırlığı yoxlanılıb.

Təlimdə, həmçinin Türkiyə və xarici ölkələrin fotoqrafları da iştirak ediblər.

Fotoqraflar bazalanma aerodromunda təlimdə iştirak edən aviasiya vasitələri, o cümlədən Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus Su-25 hücum təyyarələri ilə yaxından tanış olub, təhlükəsizlik qaydalarına riayət etməklə uçuş-enmə zolağında pilotlar tərəfindən yerinə yetirilən tapşırıqları izləyiblər.

Sonda təlimdə aviasiya vasitələrinin qısa intervalda nümunəvi uçuşları icra olunub, Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" və "Türk Yıldızları" aviaqrupu müxtəlif manevrlər ediblər.



*"Xalq qəzeti"*

**Üç il əvvəlin söhbətidir. Dövlət seriyası “44” olan minik avtomobili ilə Masallıya gedə-gedə, həmin rayondan yaşının 44-ündə şəhid olmuş mayor Anar Gülverdi oğlu Novruzovun haqqında düşüncələrə dalmışdım. Nədənsə, qoşa dördlər fikrimi, zehnimi yolboyu məşğul etməkdə idi. Masallıya çatan kimi, ilk növbədə, oradakı dostlarla birlikdə Ərkivan qəsəbə qəbiristanına – şəhidin məzarını ziyarətə yollandıq. Sən demə, Anarın şəhadətə qovuşmasından da 44 gün keçirmiş. Buna baxmayaraq, ziyarətində xeyli adam vardı.**

# Şəhidlər ölməz, Vətən bölünməz

## “Akula” ləqəbli kəşfiyyatçı – Anar Novruzov






Vətənin igid oğlunun ruhuna dualar oxunandan sonra oradakı talvarın altında əyləşib çay içə-içə haqqında söylənənlərə kədərlə, bir qədər də qürurla qulaq asdıq...

Maraqlıdır, rəqəmlərin mistikasına inamım az olsa da, “44”lərlə bağlı düşüncələr məni tərk etmirdi. Xatırladım ki, yozuma görə, 44 rəqəmi sabitlik, zəhmət və onun bəhrələri deməkdir. Numerologiya elminin banisi Pifaqor rəqəmlərin hər bir insanın taleyini ifadə etdiyini söyləyib. Baxın, mayor Anar Novruzovun 2020-ci ilin iyul ayında 44 yaşında Tovuzda düşmən hücumunun qarşısını alarkən şəhid olmasından bir qədər sonra Vətən müharibəsi başlanıb və tarixi Zəfər yürüşümüz düz 44 gün davam edib. Beləliklə, Anarın “44”ü onun həyat missiyasını təyin etmiş olub, ruhani oyanış yolunu göstərib və xalqımız üçün düşərli rəqəmə çevrilib.

Tərcümeyi-halında göstərilir ki, Anar hələ Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) oxuyarkən təhsilini yarımçıq qoyaraq Birinci Qarabağ müharibəsinə yollanıb. 1994-cü ildə cəbhədə atəşkəs elan olununca geri qayıdıb və təhsilini davam etdirib. Sonra kəşfiyyatçı zabit kimi ön cəbhədə xidmət edib. Daim hərbi texnikanın sirlərini dərindən mənimsəyib, snayper və digər müasir silahlardan istifadə edib. Türkiyədə qatıldığı peşəkar təlimdən uğurla keçib. Qumbaraatandan sərrast atışlarına görə "AQS-17 silahının atası" adını qazanıb. 2008-ci ildə ermənilər Ağdərədə atəşkəsi pozan zaman qorxmaz kəşfiyyatçı şiddətli qarşıdurmada fərqlənib. 2016-cı ilin Aprel döyüşlərində də yaxından iştirak edib. Medallarla təltif olunub. Hünər və cəsarətinə görə dostları ona "Akula" ləqəbi veriblər. Xidmət müddətində siyasi işlər üzrə tabor komandirinin müavini vəzifəsinə qədər yüksəlib.

2020-ci il iyulun 12-də günorta saatlarında Tovuz döyüşləri başlananda Anar Novruzov Qazaxdakı "N" saylı hərbi hissədə xidmət edirdi. Səhhəti ilə əlaqədar hospitalda müalicə alsa da, öz arzusu ilə döyüşlərdə iştirak etdi və general Polad Həşimovun təlimatı ilə ən çətin kəşfiyyat tapşırıqlarını yerinə yetirdi. İki-üç gün ərzində qarşı tərəfin bir çox hərbçisini sərrast atəşləri ilə məhv etdi.

Əsgərlərdən biri danışıb ki, döyüş meydanında ağır yaralanmışdım: “Güllələr, mərmilər yağış kimi yağsa da, mayor Novruzov məni oradan çıxarmağa çalışırdı. “Komandir, məni burax, heç olmasa, özün salamat çıx!” dedim. O isə “Yox, – deyə cavab verdi. – İkimiz birlikdə çıxacağıq”. Elə də oldu. Dəfələrlə döyüş dostlarını ölümün cəngindən qurtarmışdı. Onun ölümünü eşidəndə, sanki, belim sındı...”

Bu isə zabit dostlarından birinin dedikləridir: “Evə gedib qayıdanda əsgərləri üçün dava-dərman, corab və sair alıb gətirirdi. Son tikəsini də onlarla bölürdü. Bir gün mənə “Gəl, şəklimi çək” – dedi. – Mən şəhid olandan sonra paylaşarsan”. “Qardaş, elə demə” – deyib könülsüz şəklini çəkdim. Bu, doğrudan da, onun sonuncu şəkli oldu...”

Mayor Anar Novruzov iyulun 14-də Tovuzda növbəti döyüş tapşırığını yerinə yetirərkən özünə ideal saydığı sevimli generalı Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, gizir Yaşar Babayev, gizir İlqar Zeynallı və əsgər Elçin Mustafayevlə birlikdə qəhrəmancasına şəhid oldu.

“Vaxt gələcək elə bir evə sahib olacağam ki, hər kəs onun kölgəsinə yığışacaq”. – Bu sözlər ona məxsusdur. Həmin ev onun şəhidlik taxt-tacı oldu. Ölümündən az sonra gənc heykəltəraşlar – Aqşin və Müstəqil Balayev qardaşları mayor Anar Novruzovun büstünü hazırlayıblar. Masallının İstisu Müalicə Mərkəzinə, eləcə də Yardımlı rayonuna gedənlər yolun kənarındakı abidəyə qürurla baxır, önünə gül qoyur və igid kəşfiyyatçıya ulu Tanrıdan rəhmət diləyirlər.

Rəssam Ehtiram Məmmədovun yaratdığı "Şəhid mayor Anar Novruzov" portreti də hər kəsdə qəhrəman haqqında dolğun təsəvvür yaradır. İgid zabit hər üç dərəcəli “Qüsursuz xidmətə görə” medalına, yubiley təltiflərinə layiq görülüb. 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə ölümündən sonra təltif edilib.

İki övlad atası olan, 25 il hərb sahəsində xidmət etmiş Anar Novruzovun dəfnində minlərlə rayon sakini, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının rəhbərləri, hərbçilər iştirak ediblər. Onun tabutuna bükülmüş Azərbaycan Bayrağı övladına təhvil verilib...

Eşitmişdik ki, 2003-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin cəsur zabiti, ərkivanlı gənc Anar ailə həyatı qurduğu gün toy mağarına “Vağzalı” musiqisi əvəzinə, “Azərbaycan əsgəri” marşının sədaları altında daxil olub, məclisi “Qarabağ şikəstəsi” ilə yekunlaşdırıb. Həyat yoldaşı Nazilə xanım bunu təsdiqlədi və sonra da Anarın haqqında kövrəkcə danışmağa başladı: “Çətinliyimiz də, xoş günlərimiz də olub. Anar deyib-gülən, zarafatcıl idi. Onun üçün hər şeydən əvvəl Vətən qarşısında xidməti borc idi. Hər dəfə evdə olarkən cəbhədə atəşkəs rejiminin pozulduğunu eşidəndə bir yerdə qərar tutmur, hərbi hissəyə qayıtmağa tələsirdi. Elə sonuncu dəfə də belə oldu. Səhhətindəki problemə məhəl qoymadan, müalicə almadan döyüşlərə qatıldı. Xidməti ilə əlaqədar onu çox sorğu-suala tuta bilmirdik. Narahat olmayaq deyə, çox şeyi bizdən gizlədirdi. Elə Aprel döyüşlərində yaralanmasını, bir neçə gün hospitalda müalicə almasını da sonradan bildik...”

Onun haqqında "Akula ləqəbli qəhrəman" sənədli filmi çəkilib. "Regional Hüquqi İqtisadi Maarifləndirmə" İB-nin sədri Arzu Bağırovanın dəstəyi ilə hasilə yetən film şəhadətinin birinci ilində göstərilib. Şəhidin qardaşı Sucəddin Novruzovun dediyinə görə, Anarın 45 illiyinə Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü Güləmail Muradın “Akula ləqəbli kəşfiyyatçı” kitabı da hazırlanıb. Eyni zamanda haqqında yüzə qədər şeir yazılıb, təsirli mahnı bəstələnib.

...Hər dəfə doğma Ərkivana məzuniyyətə gələndə qəsəbədəki Şəhidlər xiyabanına və məhəllə qəbiristanlığına gedər, haqq dünyasına qovuşanları ziyarət edərdi. Söhbətlərində dua edib deyərdi ki, Allah köməyimiz olsun, qətiyyətli mövqedə duran Prezidentimizi qorusun, Ali Baş Komandanımız tezliklə döyüş əmri versin, dövlətimizin qüdrətini, xalqımızın birliyini işğalçı düşmənə layiqincə nümayiş etdirək, torpaqlarımızı geri qaytaraq!”

Son ziyarətində isə özü də həmişəlik olaraq orada qaldı. İndi Anarın məzarı ən gur ziyarət ünvanına, gənc həmvətənlərinin and yerinə çevrilib. Ərkivan qəsəbəsinin mərkəzi küçəsinə şəhidin adı verilib. Qardaşı oğlu Ramal deyir ki, o həmişə bizim başımızı uca edib. “Ardıcılı olmağımızdan qürur duyuruq. Mən və iki bibim qızı – Afaqla Səbirə onun yolunu davam etdiririk, hər üçümüz hərbçiyik”.

Anar Novruzovun 16 yaşlı oğlu Nihad hərbi həkim olmaq arzusundadır. “Xəzər” Universitetində oxuyan qızı Füruzə isə tarix müəllimi olacaq və atasının öz qanıyla yazdığı Vətən tarixini balalarımıza tədris edəcək.

Hazırda Masallıda Anarın növbəti doğum gününə hazırlıq işləri görülür. Məktəblilər bədii kompozisiya hazırlayırlar, həmin gün sözügedən film də yenidən göstəriləcək. Eyni zamanda “Masallı Gənclər evi” sosial xidmət müəssisəsində şəhid mayor Anar Novruzovun xatirəsinə həsr olunmuş “Tir atıcılığı” və şahmat üzrə məktəblilərin rayon turnirlərinə yekun vurulacaq.

Bəli, igid kəşfiyyatçı Anar Novruzov haqqında söylənilənlərin hamısı “İgid ölər, adı qalar” məsəlinin təsdiqindən ibarətdir.

***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

# Mina terroru – gözəgörünməz müharibə kabusu

**Son illər dünyamızda hərbi cinayətkarlığın ən qorxunc forma və vasitələrindən biri olan mina terrorunun genişlənməsi müşahidə olunur. Yüngül uşaq səndəli ilə ağır əsgər çəkməsi arasında heç bir fərq qoymayan minanın ən təhlükəli xüsusiyyəti, onun insana nəfəs qədər yaxın olmasına baxmayaraq gözə görünməməsi, öz varlığını son ana qədər hiss etdirməməsidir.**

Minanı təhlükəli edən daha bir məqam onun nəinki illər, hətta on illər ərzində belə öz ölümcül funksiyasını qoruyub saxlaması, torpaq altında səssiz-səmirsiz öz qurbanını gözləməsidir. Məhz bu xüsusiyyətinə görə mina terroru separatçılar, işğalçı qüvvələr tərəfindən geniş istifadə olunmaqdadır.



Bugünlərdə Ukraynanın “Fokus” nəşri Ermənistanın Azərbaycana, Rusiyanın isə Ukraynaya qarşı həyata keçirdiyi geniş mina terroru ilə bağlı maraqlı yazı dərc edib. Məqalədə mina terrorundan sadəcə hərbçilərin deyil, mülki insanların, eyni zamanda, uşaqların da ciddi ziyan gördüyü, minlərlə insanın öz həyatını itirdiyi, yaxud şikəst olduğu vurğulanır. Nəşrin verdiyi məlumata görə, Ukrayna və Qarabağda mina təhlükəsi problemi 424 nəfərin həyatına son qoyub ki, onların bir qismi uşaqlardır. “Fokus” 2022-ci ilin iyun ayında yazırdı: “Bundan, demək olar, bir il əvvəl – 2021-ci ilin iyun ayında Azərbaycanın Kəlbəcər rayonunun kəndlərindən birində yaşayan 11 yaşlı Qismət Bayramov valideynlərinin itkin düşən atlarını axtarmaq üçün evdən çıxıb. O, fermer ailəsində böyüdüyünə görə bu iş onun üçün yeni deyildi. Amma bu dəfə oğlan evə qayıtmadı. Onu, demək olar, üç aya yaxın axtardılar. Sentyabrın sonlarında istehkamçılar kənddən çox da uzaq olmayan dağlıq ərazidən Qismətin meyitinin qalıqlarını tapdılar”.

Məqalədə Azərbaycanın mina terroruna qarşı apardığı mübarizədən də ətraflı bəhs olunub.

### Gizli “ölüm tələsi”

Minalar piyada və tank hücumlarına qarşı effektiv mübarizə vasitəsi kimi uzun illərdir ki, mövcud olsa da, onların yaşayış məntəqələrində, yaxud bu məntəqələrin ətrafında basdırılması yolverilməzdir. Bu, mülki insanları böyük təhlükə ilə üz-üzə qoymaq, onların həyatına şüurlu şəkildə qəsd etmək deməkdir. Müasir müharibələrin təhlili göstərir ki, bu üsuldan, yəni minaların yaşayış yerləri və onların ətrafında basdırılması taktikasından açıq döyüş meydanında uğur qazana bilməyən, öz gücünə, mübarizə əzminə güvənməyən işğalçı qüvvələr istifadə edirlər. Bu baxımdan mina terrorunu qorxaqların uğur axtarışı kimi də dəyərləndirmək mümkündür. Hərb meydanında, üz-üzə döyüşlərdə qələbə qazana bilməyən bu qüvvələr qarşı tərəfi zəiflətmək, cəmiyyətdə xof mühiti yaratmaq, döyüşən ordunu sosial bazadan məhrum etmək məqsədi ilə bu cür qeyri-insani vasitələrə əl atır.

Maya dəyərinin aşağı olması, istehsalının asanlığı “ucuz ölüm” sayılan minaların geniş istehsalına şərait yaradır ki, bu da onun kütləvi şəkildə istehsalını stimullaşdırır. Ermənistanın 30 il ərzində vaxtilə işğalda saxladığı Azərbaycan torpaqlarında yüz minlərlə mina basdırması, hətta post-müharibə dönəmində belə mina terrorundan əl çəkməməsi İrəvanın sadəcə hərbçilərimizə qarşı deyil, bütün Azərbaycan xalqına, onun hər bir fərdinə qarşı mübarizə apardığını göstərir. Bu baxımdan Rusiyanın Ukraynada həyata keçirdiyi mina terroru da insanlığa qarşı cinayət kimi qınanmalı və nifrətlə qarşılanmalıdır.

### Qarabağdakı mina terroru Ukraynada təkrarlanır

Ukrayna Müdafiə Nazirliyinin rəsmisi Ruslan Berequlya bu ilin aprel ayında Ukraynada müharibə başlayandan bəri 6-sı uşaq olmaqla toplam 124 nəfərin mina partlayışı nəticəsində həlak olduğunu bildirmişdi. Açıqlamada mina partlayışları nəticəsində 33-ü uşaq olmaqla 286 nəfərin də yaralandığı qeyd olunub.

Maraqlıdır, Ermənistanın Qarabağ və ətraf rayonlarda həyata keçirdiyi mina terrorunun Ukraynada təkrarlanmasına səbəb nədir? Necə ola bilir ki, bütün dünyanın gözü önündə Azərbaycanda çox sayda can alan mina terroru qısa müddət sonra Ukraynada da insanların həyatına son qoymaqda davam edir? Buna səbəb, şübhəsiz, mina terroruna qarşı beynəlxalq birliyin birgə mübarizəsinin olmamasıdır. Məhz birgə mübarizənin yoxluğu mina terrorunun inkişafına, onun müxtəlif zamanlarda və məkanlarda yenidən baş qaldırmasına səbəb olur.

Xatırladaq ki, Prezident İlham Əliyev çıxışlarında dəfələrlə Ermənistanın mina terroruna toxunub, bu terrora qarşı birgə mübarizənin vacibliyini qeyd edib. Ancaq təəssüflər olsun ki, Azərbaycan bu gün də Ermənistanın mina terroruna qarşı təkbaşına mübarizə aparmaqdadır. İndiyədək ölkəmizin erməni terroruna qarşı birgə mübarizə çağırışlarına əməli cavab verilməyib. Və nə qədər ki, bu təhlükəyə qarşı qlobal mübarizə yoxdur, mina terroru can almaqda davam edəcək, minlərlə ailənin faciəsinə çevriləcək.

***Seymur ƏLİYEV***

**“Azərbaycan idmanının veteranları ölkəmizdə idmanın inkişafı üçün çox işlər görüblər, yaxşı ənənələr yaradıblar, gənclərimiz üçün yaxşı yollar açıblar... Bugünkü gənclərimizin idman sahəsindəki nailiyyətləri veteranların zəhməti sayəsindədir, gənclərin məşqçilərinin, müəllimlərinin, onlara rəhbərlik edən idman ustalarının fəaliyyətinin nəticəsidir. Ona görə də mən idman sahəsində müəllimlik edənlərin, məşqçiliklə məşğul olanların, gənclərimizdən idman ustaları hazırlayanların hamısına hörmət və ehtiramımı, onlara təşəkkürümü bildirirəm”.**

# İdman jurnalistikasından bədən tərbiyəsi müəllimliyinə

Bu mülayim may günlərində 100 illik yubileyini fəxrlə, böyük qürurla, minnətdarlıq hissi ilə qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin çıxışlarından birində ifadə etdiyi və indi diqqətinizə çatdırdığımız fikirdən göründüyü kimi, Azərbaycan idmanının təbliğində və inkişafında veteran mütəxəssislərimiz mühüm rol oynamışlar və əldə olunmuş uğurlarda onların xidmətləri danılmazdır. Veteranlar uzun illər ərzində qazandıqları zəngin təcrübə sayəsində öz bilik və bacarıqlarını səbrlə, təmkinlə gənc davamçılarına vermiş, onların püxtələşməsinə, möhkəmlənməsinə, həyatda vacib olan nəcib keyfiyyətlərə yiyələnmələrinə töhfələrini vermişlər.

Belə veteranlardan biri də Prezident İlham Əliyevin sərəncamı ilə 2008-ci ildən Əməkdar jurnalist adı daşıyan, həmçinin Fəxri bədən tərbiyəsi və idman işçisi Yaqub Nuriyevdir. Demək olar, bütün fəaliyyətini idmana həsr etmiş həmkarım bu gün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedrasında baş müəllimdir.

Yadımdadır, 2003-cü ilin yayında Y. Nuriyevi 50 illik yubileyi ilə əlaqədar olaraq qəzetimizin səhifələrində təbrik edib, idman jurnalistikasında keçdiyi yol barədə danışmış, ünvanına xoş sətirlər həsr etmişdik. O vaxtdan artıq iyirmi il keçib. İndi Yaqub müəllim seçdiyi yolda ilk addımlarını atıb, 33 il ərzində əməkdaşı olduğu Azərbaycan radiosunun idman verilişləri redaksiyasında ştatdankənar müxbir, böyük redaktor, şöbə müdiri deyil, şərhlərini, reportajlarını da dinləmirik. Amma hərdən xatırlayırıq. Bu zaman yada düşür ki, o vaxtlar səbrsizliklə gözlədiyimiz hər hansı bir idman xəbərini, xüsusən də futbol oyunlarının nəticələrini Azərbaycan radiosunda ilk olaraq onun və həmkarlarının dilindən eşidirdik.

Azərbaycanda otüstü xokkeyin çox yaxşı inkişaf etdiyi, respublikamızda bu növ üzrə istər kişilərdən, istərsə də qadınlardan ibarət bir neçə güclü komandanın olduğu (AzNKİ --Azərbaycan Neft və Kimya İnstitutu, "Rabitəçi" Bakı, "İnşaatçı" Sumqayıt) və onların SSRİ çempionatlarında uğurla çıxış etdikləri, hətta qadınlardan ibarət yığma komandamızın az qala Olimpiya oyunlarına lisenziya qazanacağı illərdə isə Y.Nuriyev həm də həmin federasiyanın ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri kimi səmərəli fəaliyyət göstərirdi.

Yaqub müəllimin jurnalistikada adının hörmətlə çəkilməsini, sayılıb-seçilən həmkarları sırasında olmasını belə bir fakt da təsdiq edir ki, o, dəfələrlə ilin ən yaxşı idman jurnalistlərindən biri kimi Gənclər və İdman Nazirliyinin, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının mükafatlarına layiq görülmüşdür. Çünki radio dinləyiciləri onun müxtəlif yarışlardan reportaj və şərhlərini, mütəxəssislərlə idmanımızın uğurları və problemləri barədə söhbətlərini maraqla qarşılayırdılar.



Həmkarımın bir jurnalist və müəllim kimi idman həyatının mənalı keçməsi təsadüfi deyil. O, hələ yeniyetmə yaşlarından idman hadisələrinə böyük maraq göstərmişdir. İki ali məktəbin-- Azərbaycan Politexnik İnstitutun (indi Texniki Universitet) və Dövlət Bədən Tərbiyəsi İnstitutunun ( hazırda Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) məzunudur. Özünün dediyi kimi, idman mövzusunda ilk yazısı tələbəlik illərində çilingər işlədiyi Yeni Bakı Neftayırma Zavodunun çoxtirajlı "Çilingər" qəzetində dərc olunmuşdur. Bununla da onun bir növ idman jurnalistikasında fəaliyyətinə start verilmişdir.

Bizim tanışlığımızın da təxminən 45-50 illik tarixi var. Mən ötən əsrin altmış-- doxsanıncı illərində "İdman" qəzetinin əməkdaşı olarkən Yaqubun da hərdən redaksiyamıza gəldiyini, yazılar gətirdiyini görürdüm.

Budur, tale Yaqub müəllimi bir daha "Xalq qəzeti" səhifələrinə çıxarmaq imkanı yaratmışdır. Özü də onun 70 yaşının astanasında. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi indi tələbələrinə idman elmini öyrədir, təcrübəsini onlarla bölüşür, birlikdə məqalələr yazırlar. Elə bu yaxınlarda onların ulu öndər Heydər Əliyevin bədən tərbiyəsi və idmana qayğısından bəhs edən növbəti məqaləsi də ümummilli liderin 100 illik yubileyi ərəfəsində "Mütərcim" jurnalında nəşr olunmuşdur.

İdmanımızın veteranına da, onun tələbələrinə də yeni yaradıcılıq uğurları arzusu ilə.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Türkiyədə seçkilərə son hazırlıq

## 14 maya 3 gün qalır

**Qardaş Türkiyədə səs vermək hüququ olan vətəndaşlar cəmi üç gündən sonra "sandıq başı"na keçərək prezidentliyə bu və ya digər layiq bildiyi namizədin lehinə səs verəcəklər. Hər bir seçim böyük dəyər kəsb edir. Bütövlükdə, xalqın doğru və ədalətli seçimi sayəsində qazanan Türkiyə olacaq!**



Bu seçkilər təkcə Türkiyə üçün deyil, bütün region, eləcə də geniş bir coğrafiyada yerləşən böyük türk dünyası üçün taleyüklü əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, ölkə mediası 14 may seçkilərini "Əsrin seçimi" adlandırır. Zərrə qədər




şübhə etmirik ki, müdrik türk xalqı seçkilərdə ən doğru seçimini edəcək.

İndi ölkədə son dərəcə həssas durum yaranıb. Hamı məhz öz seçimini ən doğru və alternativsiz hesab edir. Bu, ona dəlalət edir ki, cəmiyyətdə siyasi cəhətdən qütbləşmə yaranır. Bu, təhlükəli tendensiyadır. Çünki təxribatçı ünsürlər gərginlikdən sui-istifadə edə bilərlər. Lakin iqtidar lazımi təhlükəsizlik tədbirləri həyata keçirir.

Təhlilçilər bildirirlər ki, ölkədə seçkisonrası mümkün qarşıdurmalara ciddi zəmin yoxdur. Türkiyədə sivil, fəal vətəndaş cəmiyyəti formalaşıb. Özəl seçim hər kəsin təməl haqqıdır. Bu haqqı heç kəs onun əlindən ala bilməz. Türk xalqı heç vaxt seçki saxtakarlığına qol qoymayıb. Burada çox yüksək seçki mədəniyyəti formalaşıb.

Ankaradakı Bilkənd Universitetinin professoru, tanınmış politoloq Əmrulla Məmmədli qeyd edir ki, 14 may seçkilərində yüksək seçici fəallığı hiss olunacaq. Son bazar günü "Cümhur İttifaqı"nın lideri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən toplantıya bir milyondan çox insan qatılıb. "Millət İttifaqı"nın rəhbəri Kamal Kılıçdaroğlunun da seçicilər ilə görüşləri izdihamla keçir.

Prezidentliyə namizədlər əvvəlcədən nəzərdə tutulan cədvəl üzrə ölkənin ictimai televiziyası -- TRT vasitəsilə seçicilərə müraciət edir, bu zaman öz proqramlarını şərh edir, arzu və təkliflərini dilə gətirirlər. Namizədlər son bazar axşamı telekanalın tribunasından növbəti dəfə çıxış ediblər. Bu çıxışlar ölkə və qlobal mediada geniş müzakirə edilir.

Hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğan seçiciləri AKP-nin "Güvən və sabitlik" proqramına səs verməyə çağırıb. O, iqtidarın hazırda bütün sahələrdə, o cümlədən iqtisadi, müdafiə, insan haqları və s. istiqamətlərdə həyata keçirdiyi geniş islahatlardan da danışıb.

Deyib ki, seçicilər özlərinin və övladlarının xoşbəxt gələcəyi naminə doğru seçim etməlidirlər. AKP son 21 ildə 15 dəfə seçkilərdə qalib gələrək insanların etimadını qazanıb. R.T.Ərdoğanın fikrincə, iqtidar bundan sonra da bütün çətinliklərin və çağırışların öhdəsindən gəlməyi bacaracaq.

Natiq çıxışında sonra vurğulayıb ki, onun hakimiyyətinin ən böyük uğuru insanların şüur və düşüncə tərzlərini dəyişdirməyi bacarmasıdır. Bu, şüurlarda baş verən inqilabdır. Bu gün Türkiyədə heç kim dini inancına və etnik mənsubiyyətinə görə təqib olunmur, özünü cəmiyyətdə unudulmuş və təcrid edilmiş hiss etmir.

R.T.Ərdoğan deyib: "Heç kim Əziz Səncərin, Uğur Şahinin, Rza Kayalpın, yaxud Səlcuk Bayraqdarın etnik mənsubiyyəti ilə bağlı sual etmir. Məhz şüurlarda baş verən inqilab sayəsində Türkiyə yaxın gələcəkdə daha möhtəşəm uğurlar qazanacaq!"

Qeyd edək ki, yuxarıda adları çəkilən məşhur isimlər müvafiq olaraq Nobel mükafatı laureatı, COVİD-19 peyvəndinin yaradıcısı, güləş üzrə dünya çempionu və insansız uçuş aparatının yaradıcısıdır. Reallıq budur ki, Türkiyə bu gün böyük və güclü dünya dövlətidir!

CHP lideri Kamal Kılıçdaroğlu isə çıxışında TRT-ni "hakim partiyanın yayımçısı" adlandırıb. Ana müxalifətin lideri seçicilərə müraciətlə deyib: "Qarşıdakı seçkilər bütün 85 milyon insanın seçkisidir. Siz 14 mayda mənə yox, ədalətə səs verəcəksiniz".

"Məmləkət" Partiyasından prezidentliyə namizəd Məhərrəm İncə də çıxışında TRT-yə ittihamlar yağdırıb. O, hökuməti dövlət qurumlarının işinə müdaxilə etməkdə, bununla da həmin idarələrin öz funksionallığını itirməsinə səbəb olmaqda suçlayıb. Bildirib ki, ölkədə nəzarətdən çıxan kəskin qaçqın problemi yaranıb ki, bu da Türkiyənin ictimai-siyasi həyatı üçün böyük təhdiddir.

M.İncə həmçinin bildirib ki, onun rəhbərlik etdiyi partiya nə sağçı, nə də solçudur. Bu partiya Böyük Atatürkün müəyyən etdiyi yolla gedir: "Atatürk ölkəni necə idarə edibsə, eləcə də biz idarə edəcəyik!". O, terrora qarşı güzəştsiz mübarizə aparacağını, PKK-dan tutmuş FETÖ-yə qədər hər kəsi yerində oturdacağını bildirib. Xarici siyasətdə isə Avropa İttifaqı ilə üzvlük danışıqlarının davam etdirilməsinin vacibliyini söyləyib.

ATA İttifaqından prezidentliyə namizəd olan Sinan Oğan isə çıxışı zamanı bildirib ki, onun seçki platformasında bir prioritet var. O, qalib gələcəyi təqdirdə ilk növbədə suriyalı və bütün qaçqınların geri qayıtmaları üçün əmr imzalayacaq. Belə ki, Türkiyənin daxili nizamını pozmaq olmaz! S.Oğan sonra bildirib ki, 14 may seçkiləri Türkiyənin gələcək taleyini həll edəcək. O, seçicilərə müraciətlə deyib: "Siz qarşıdakı bazar günü 13 milyon qaçqının Türkiyədə qalıb-qalmamasına səs verəcəksiniz!".

Sonda bildirək ki, prezidentliyə namizədlər TRT-də son dəfə iki gün sonra, mayın 13-də axşam çıxış edəcəklər.

***M.HACIXANLI, "Xalq qəzeti"***

# Ermənistan Qərbdə siyasi müttəfiqlər axtarır

## Rusiyadan iqtisadi asılılıq isə getdikcə güclənir

**Ermənistan iqtisadiyyatında qəribə və təzadlı proseslər baş verir. Rəsmi statistikaya inansaq, bu ölkənin Rusiya ilə ticarət əlaqələri sürətlə genişlənir, reallıqda isə yerli sahibkarlar öz məhsullarını Rusiya bazarlarına çıxarmaqda çox da maraqlı deyillər. Sual oluna bilər ki, bu ziddiyyət nədən qaynaqlanır?**



Bu günlərdə "Eurasia.net" informasiya saytı həmin məsələni araşdırmağa çalışıb. Bu barədə təqdim olunan yazıda qeyd olunur ki, hazırda Rusiya Ermənistan üçün ən böyük ixrac bazarına çevrilib. Belə ki, ötən il iki ölkə arasında ticarət dövriyyəsi birdən-birə iki dəfə artıb. 2022-ci ildə bu göstərici konkret rəqəmlə ifadədə 5 milyard dollar ekvivalentində olub.

Lakin Ermənistan ilə Rusiya arasında ticarət dövriyyəsinin böyük hissəsi qeyri-leqal yolla baş verir. Rusiya Qərbin ona qarşı tətbiq etdiyi iqtisadi sanksiyalardan yayınmaq üçün bir çox zəruri malları Ermənistan vasitəsilə idxal edir. Yəni mal və əmtəələr ilk baxışda Ermənistana, faktiki olaraq isə Rusiyaya satılır.

Bəs, Qərbin siyasi dairələrinin bundan xəbəri varmı? Var! Hətta qlobal mediaya sızan məlumatlara görə, bu yaxınlarda Vaşinqtonda ABŞ-ın dövlət katibi Entoni Blinken Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ilə görüşərkən həmin məsələ ilə bağlı ona ciddi xəbərdarlıq edib. Rəsmi Brüssel də Ermənistanın "gizli oyunlar"ından narazıdır.

Ermənistan iqtisadiyyatının Rusiyadan asılı vəziyyətə düşməsi Nikol Paşinyan hökumətinin Qərblə hərtərəfli əlaqələri gücləndirmək səylərini zərbə altına qoyur. Digər tərəfdən İrəvanın Moskvadan iqtisadi, siyasi və təhlükəsizlik sahələrində asılılığı daha da güclənir.

Lakin Rusiya ilə ticarət əlaqələrinin artması Ermənistan iqtisadiyyatı üçün gözlənilən səmərəni vermir. Məsələ burasındadır ki, Ermənistan ilə Rusiya arasında əmtəə mübadiləsi hazırda yalnız rublla aparılır. Rusiyanın Ukraynada başladığı və hələlik sonu görünməyən münaqişə səbəbindən rubl dollar qarşısında dəyər itirməkdə davam edir.

Hazırda rubl qeyri-sabit və riskli valyuta hesab olunur. Ermənistanın milli valyutası – dram isə zəifləyən rubl qarşısında dəyər qazanır. Rusiyadan Ermənistana gələn miqrantlar özləri ilə xeyli dollar gətiriblər. Bu vəziyyət ölkədə milli valyutaya tələbatı artırıb.

Ermənistanın iqtisadiyyat naziri Vahan Kerobyan bildirib ki, Rusiya ilə Ermənistan arasında əmtəə mübadiləsinin yalnız rublla aparılması yerli istehsalçıları çətin vəziyyətdə qoyur. Belə ki, onlar mal və materialların bir hissəsini xarici ölkələrdən dollar və avro ilə əldə edirlər. Beləcə, Ermənistanda istehsal edilən məhsulların maya dəyəri artır, Rusiyaya zəifləmiş rublla satılan mallara görə mənfəət isə azalır.

Ermənistanın Rusiyadan başqa digər ölkə bazarlarına çıxış imkanları çox məhduddur. Çünki yüksək rəqabətyönlü məhsul istehsal edilmir. V.Kerobyan bildirib ki, Rusiya uzun müddət Ermənistan üçün əsas satış bazarı olaraq qalacaq. Ermənistanda istehsal olunan mal və məhsulların hazırda 45 faizi məhz Rusiyaya ixrac olunur. Xatırladaq ki, bu, ümumi ticarət dövriyyəsinin 35 faizini təşkil edir.

İki ölkə arasında mal alqı-satqısının yalnız rublla aparılması erməni sahibkarları çox narahat edir. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, rubl zəifləyir və qeyri-sabitdir. Rusiyanın başçılıq etdiyi Avrasiya İqtisadi İttifaqı isə dollar və avrodan tamamilə imtina etməyi planlaşdırır. Ermənistan bu ittifaqa 2013-cü ildə qoşulub və Rusiyanın diktəsi ilə oturub-durmağa məhkumdur.

Təhlilçilər bu qənaətdədirlər ki, Ermənistanın Rusiyadan artan iqtisadi asılılığı İrəvanın Avropa İttifaqı ilə daha sıx əlaqələr qurmaq şanslarını kəskin azaldır. Moskva İrəvanın Qərbə meyl göstərməsini görür və bunu qəbul etmək istəmir. Rusiya hökuməti artıq siyasi məqsədlər naminə Ermənistanı iqtisadi cəhətdən də cəzalandırmaq haqqında siqnallar göndərir.

Onu da qeyd edək ki, bir müddət əvvəl Ermənistan tərəfindən Rusiya Prezidenti Vladimir Putinin həbsinə qərar verən Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma statutunun imzalanması Moskvada ağır xəyanət kimi dəyərləndirilib. Kreml İrəvana BCM ilə "sıx əməkdaşlığın kəskin mənfi nəticələr verəcəyi" barədə xəbərdarlıq edib.

Xarici siyasət əslində daxili siyasətin davamıdır. Rusiyadan iqtisadi cəhətdən tam asılı olan Ermənistanın manevr imkanları artıq tükənib. Görünür, İrəvanda bu həqiqəti hələ də başa düşmək istəmirlər.

***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***

**Türkiyə Silahlı Qüvvələri 640 min nəfərlik hərbi, mülki və yarımhərbi şəxsi heyəti ilə NATO-nun tərkibində ABŞ Silahlı Qüvvələrindən sonra ikinci ən böyük hərbi güc hesab olunur. Qardaş ölkə Belçika, Almaniya, İtaliya və Niderlandla birlikdə NATO-nun nüvə paylaşımı proqramına daxil olan beş dövlətdən biridir. Bu proqrama uyğun olaraq 90 ədəd "B61" nüvə bombası İncirlik aviabazasında saxlanılır. Bu bombalardan 40-ı potensial nüvə münaqişəsi zamanı Türkiyə Hərbi Hava Qüvvələrinin istifadəsi üçün nəzərdə tutulub. Lakin bunlardan istifadə etmək üçün mütləq NATO-nun icazəsi lazımdır.**

Bütün bunlar isə Türkiyənin hərbi gücü ilə nəyə qadir olduğunundan xəbər verir. Yeri gəlmişkən, qardaş ölkənin Müdafiə Sənayesi Nazirliyi cari il ərzində müdafiə sənayesi sahəsində həyata keçiriləcək layihələrlə bağlı siyahı yayımlayıb. Layihələr sırasında hava, quru və dəniz platformaları yer alıb. Belə ki, hava platformalarındakı ilklər sırasında yer alan reaktiv

# Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biridir



mühərrikli "Hürjet" təlim təyyarəsinin sınaq prototipinin və "TCG Anadolu" amfibiya hücum gəmisində xidmət göstərəcək "Bayraktar– TB3" pilotsuz uçuş aparatının ilk uçuşunun reallaşdırılacağı nəzərdə tutulub. Habelə Türkiyə Jandarma Baş Komandanlığına "GÖKBEY" helikopterlərinin və Hərbi Hava Qüvvələrinə "Özgür" layihəsi əsasında modernləşdirilən "F-16" döyüş təyyarələrinin ilk partiyasının təhvil veriləcəyi qərara alınıb. Eyni zamanda, "Meltem-3" layihəsi çərçivəsində hazırlanan sonuncu (6-cı) "P-72" dəniz patrul təyyarəsinin də Hərbi Dəniz Qüvvələrinin istifadəsinə təqdim ediləcəyi planlaşdırılıb.

Dəniz platformalarına gəldikdə isə burada "İstif" ("İ") sinfinə aid "İstanbul" adlı freqat, "Derya" təminat gəmisi, habelə yeni tipli sualtı qayıq olan "Piri Reis" Türkiyə Hərbi Dəniz Qüvvələrinin silahlanmasında fəal surətdə xidmət göstərməyə başlayacaq.

Quru vasitələrində zirehli amfibiya hücum maşını ZAHA-nın, yerli mühərriklə təchiz edilən "Vuran" nəqliyyat vasitəsinin, 8×8 təkər formullu evakuatorların və "Amazon" zirehli avtomobillərin ilk partiyası da Silahlı Qüvvələrə təhvil veriləcək. Həmçinin embarqolar ilə üzləşməməsindən ötrü xaricdən alınan bəzi alt sistemləri milliləşdirilən "Altay" tankının ilk seriyalı istehsalı da tamamlanacaq.

Bütün bunlarla yanaşı, "Şimşək" hədəf dronunun süzən sursat konfiqurasiyasının, uzun mənzilli "Siper" hava hücumundan müdafiə sisteminin, "Hava-hava" tipli "Bozdoğan" və "Gökdoğan" raketlərinin, habelə "KARAOK" tank əleyhinə idarəolunan raket kompleksinin ilk partiyasının da Türkiyə Silahlı Qüvvələrinə təhvil veriləcəyi planlaşdırılıb. Eləcə də "Gökdeniz" yaxın məsafəli hava hücumundan müdafiə sisteminin Türkiyə Hərbi Dəniz Qoşunlarının döyüş gəmilərinə inteqrasiya edilməsinə və sualtı qayıqlar üçün hazırlanan "AKYA" torpedosunun seriyalı istehsalına başlanılacaq.

"ASELSAN" şirkətinin istehsal etdiyi "AESA" radarı ilk dəfə "Akıncı" PUA və "Özgür" layihəsi ilə modernləşdirilən "F-16" döyüş təyyarələrinə quraşdırılacaq. "ERALP" erkən xəbərdarlıq radarı və "MERT" daşınabilən elektron müharibə sisteminin də ilk partiyası Silahlı Qüvvələrin arsenalına daxil ediləcək.

Sonda onu da qeyd edək ki, hazırda Türkiyə dünyanın otuzdan artıq ölkəsinə silah ixrac edir. Azərbaycan Ordusu da öz arsenalını qardaş ölkədə istehsal olunan silahlarla, hərbi texnika və sursatlarla daha da zənginləşdirib. Ordumuzun silah arsenalında olan "Bayraktar TB2", "Kargu" PUA-ları, "Kobra" zirehli maşınları, "Qasırğa", "Sakarya" raket sistemləri, həmçinin digər müasir texnika və silahlar Türkiyədən tədarük edilib.

***"Xalq qəzeti"***

# İmran Xan 8 günlük həbsdə

**Pakistan məhkəməsi keçmiş Baş nazir İmran Xan barəsində 8 günlük həbs qərarı çıxarıb. Məlumatı Rusiya KİV-i yayıb.**



Sabiq hökumət başçısının həbsinə etiraz edən naməlum şəxslər ölkənin Peşavar şəhərində "Pakistan Radiosu"nun binasına hücum edib, ofisini yandırıblar.

Qeyd edək ki, İmran Xan mayın 9-da saxlanılıb. Bundan sonra ölkənin İslamabad, Peşavər, Haripur, Abottabad, Sialkot, Faisalabad, Ravalpindi, Lahor və başqa bölgələrində etiraz aksiyaları başlayıb.

Eks baş nazir xarici ölkə liderlərindən 630 min dollarlıq hədiyyə almaqda ittiham olunur. Ona qarşı martın 19-da terrorçuluq ittihamı da irəli sürülüb.

***"Xalq qəzeti"***

# ABŞ-da defolt dağıdıcı ola bilər

**Milli borc tavanının artırılması ilə bağlı danışıqlar uğursuz olarsa, potensial defolt ölkə iqtisadiyyatı üçün dağıdıcı olar. "Amerikanın səsi" radiosunun məlumatına görə, bu barədə ABŞ Prezidenti Cozef Bayden bildirib.**



Ağ Ev rəhbəri, həmçinin respublikaçıların nəzarətində olan Nümayəndələr Palatasının lideri Kevin Makkartinin bununla bağlı narahatlığını anladığına əminliyini ifadə edib. Prezident defoltun qarşısını almaq üçün milli borc tavanının qısa müddətə artırılmasının mümkünlüyünü istisna etməyib.

Eyni zamanda, Bayden bildirib ki, potensial defoltla bağlı vəziyyətə baxmayaraq, o, hələ də mayın 19-21-də Xirosimada keçiriləcək G7 sammitində iştirak etmək niyyətindədir.

Bundan əvvəl ABŞ Senatının Respublikaçılar Partiyasından olan 43 nəfərlik qrup üzvü Vaşinqton administrasiyasını dövlət xərclərini azaltmayacağı təqdirdə, borc tavanının artırılması ilə bağlı razılığa gəlməyəcəklərini bildirmişdi.

Onların fikrincə, iqtisadiyyat dayanıqlı olmayan fiskal siyasət səbəbindən hazırda "sərbəst enişdədir".

***"Xalq qəzeti"***

## “Sumqayıt Sənayetikinti Avtonəqliyyat” ASC -nin 2022-ci il dekabrın 31-nə mühasibat balansı

*manatla*

| AKTİVLƏR | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 102137.41 | 120190.29 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | 102137.41 | 120190.29 |
| Ehtiya tlar | 2089.88 | 2089.88 |
| Qısamüddətli debitor borcları | 258209.29 | 257316.70 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3877.02 | 147.64 |
| Sair qısamüddətli aktivlər | 29359.60 | 29320.71 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | 293535.79 | 288874.93 |
| **CƏMİ AKTİVLƏR** | 395673.20 | 409065.22 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 214881,20 | 214881.20 |
| Kapital ehtiyatları | 87907,67 | 87907.67 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 5643.70 | 364.38 |
| **CƏMİ KAPİTAL** | 308432.57 | 303153.25 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 731.42 | 428.56 |
| Qısamüddətli kreditor borcları | 84259.06 | 99817.17 |
| Qısamüddətli öhdəliklər | 2250.15 | 5666.24 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 87240.63 | 105911.97 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | 87240.63 | 105911.97 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 395673.20 | 409065.22 |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyəti üzrə)**

| | | |
|---|---|---|
| Satış | 63926.99 | 35971.70 |
| Sair əməliyyat gəlirləri | 38853.60 | 19647.00 |
| İşçi heyəti üzrə xərclər | 15414.00 | 15000.00 |
| Amortizasiya xərcləri | 18052.88 | |
| Sair əməliyyat xərcləri | 63372.97 | 40235.14 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 5940.74 | 383.56 |
| Mənfəət vergisi | 297.04 | 19.18 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 5643.70 | 364.38 |
| Bazis hər bir səhmin mənfəəti | 0.0525288 | 0.003391 |

**Qeyd –** 2022-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövr üzrə maliyyə hesabatlarının düzgünlüyünün auditi sərbəst auditor Ş.Y.Gülməmmədov tərəfindən 2023-cü il fevralın 20-dən 23-dək aparılmış və müvafiq rəy verilmişdir.

Əlaqə telefonu- 051-271-32-45.

## Gəncə Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi

### Gəncə şəhərində yolların əsaslı təmiri işlərinin satın alınması üçün

# AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs- Hüseynalı Mehtizadə, telefon +994 55 400 94 89 ; e-mail: office@mktib.az).

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**H/h- AZ58AZRT38060019440017830004**
**VÖEN-2300336431**
**Bank – “AZƏRTÜRK BANK” ASC-nin Gəncə filialı**
**Kod - 210005**
**VÖEN - 9900006111**
**M/h - AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: AZRTAZ22**

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış ( 2023-cü il aprelin 26-dan sonrakı dövr);
- iddiaçının fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - müvafiq orqan tərəfindən təqdim edilməklə əvvəlki il üzrə olmalıdır;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- nizamnamənin notarial qaydada təsdiq olunmuş surəti (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- qeydiyyatdan keçdiyi ölkənin notarial qaydada təsdiq olunmuş sənədlərinin surətləri (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- Rekvizitlər;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd (2023-cü il aprelin 26-dan sonrakı dövr) ;
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasının notarial qaydada təsdiq olunmuş sənədinin surəti (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məktubun əsli və ya notarial qaydada təsdiq olunmuş surəti (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması barədə imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmrinin surəti;
- iddiaçının işlərin həyata keçirilməsi üçün maliyyə imkanlarının olması barədə audit hesabatı (əgər varsa);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son 3 il ( 2019 –cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 2 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər, son üç il (2019 –cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ən azı 2 milyon manat dövriyyə tələb olunur;
- digər tələblər;
- malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi (lot üzrə son 3 müqavilə və işlərin təhvil verilməsi ilə bağlı təhvil-təslim aktı və ya ən sonuncu forma 3);
- malgöndərənin texniki imkanları ( icra olunacaq işlər üzrə işlərin görülməsinin standartlara cavab verə biləcək avadanlıqları).

1. Özüboşaldan-10 ədəd, 2.Ekskavator-2 ədəd , 3.Yükləyici-1 ədəd , 4.Avtoqreyder-2 ədəd, 5.Yol basan-2 ədəd, 6.Asfalt yayan-2 ədəd,

7. Bitumsəpələyici -1 ədəd , 8. Avtobetonqarışdırıcı – 2 ədəd, 9. Yol basan -2 ədəd, 10. Su maşını -1 ədəd texnikaların olması vacib şərtdir.

Həmçinin təqdim ediləcək texnikaların 20 faizi öz balansında olmalıdır. Texniki pasportların surətləri təqdim olunmalıdır; (podratçının) özününkü deyilsə, onların icarəyə götürüləcəyi və ya satın alınacağı haqqında əldə olunmuş razılıq sənədinin (müqavilə və ya niyyət protokolu) nüsxəsi təqdim olunmalıdır. Təqdim olunan sənəddə maşın və mexanizmlərin hazırki sahiblərinin adları, ünvanları və əlaqə yaradılması üçün məlumatlar.

İşin adına uyğun olan beynəlxalq səviyyəli sertifikat ( zəruridir).

1. İşlərin keyfiyyətinin idarə olunması ilə bağlı ISO 9001:2015 sertifikatı.
2. Keyfiyyət İdarəetmə-Müştəri Məmnuniyyəti ilə bağlı İSO 10002:2018 sertifikatı.

Asfalt işlərinin görülməsi üçün sahəyə gətiriləcək asfalt (asfalt zavodu tikinti aparılacaq sahə ilə 60 km məsafəyədək) yerləşməli və yaxud mobil tipli asfalt zavodu quraşdırılmalıdır. (qeyd-podratçının özününkü deyilsə, icarəyə götürəcəyi asfalt zavodu və ya mobil tipli asfalt zavodunun icarəyə götürüldüyü ilə bağlı icarə müqaviləsi, həmçinin təsdiqedici sənədlər).

Lot üzrə minimum işçi sayının on (10) nəfər olması (yol mühəndisi-5 il təcrübə -3 nəfər, iş icraçısı-2 il təcrübə-3 nəfər, təhlükəsizlik mühəndisi (SƏTƏM) -2 il- 1 nəfər , geodez-topoqraf-3 il təcrübə-1 nəfər , mühəndis-mexanik- 2 il təcrübə-1 nəfər olması mütləqdir) təqdim edilən işçilərin portaldan bildirişləri,iş təcrübəsi və digər məlumatlar.

Son 3 il ərzində asfalt örtüklərinin tikintisi 1 000 000 kvadratmetr, torpaq layının tikintisi 220 000 kubmetr, qum-çınqıl layının tikintisi – 80 000 kubmetr çox olması və bununla bağlı podratçı tərəfindən rəsmi blankda arayış.

İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb ediləcəyi təqdirdə).

Satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatı (müqavilənin ümumi məbləği 100.000,00 (bir yüz min) ABŞ dollarının manat ekvivalentindən çox olarsa, o zaman satınalma müqaviləsinin 2 faizi miqdarında müqavilənin yerinə yetirilməsi təminatı təqdim edilməli və qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən 30 bank günü çox olmalıdır.

İddiaçıların son iki il ərzində digər təşkilatlarla iş birliyi haqqında qısa məlumat barədə arayış tam şəffaf şəkildə təqdim edilməlidir (sifarişçi tərəfindən verilmiş təqdimat).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 may 2023-cü il saat 18.00-a, bank təminatını və tender təklifini isə 25 may 2023-cü il saat 12.00-a qədər Gəncə şəhəri, Heydər Əliyev meydanı, inzibati binada 410-cu otağa təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 26 may 2023-cü il saat 12.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Bakelektromaşın”ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 17.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. “Bakelektromaşın”ASC-nin 2022-ci il üçün hesabatı.
2. Səhmdar cəmiyyətin direktorlar şurasının 2022-ci il üçün hesabatı.
3. Təftiş komissiyasının hesabatı.

Səhmdarların iştirakı vacibdir.

Telefon-012-459-72-30.

Ünvan- Bakı, Qala qəsəbəsi, Qala stansiyası.

***İdarə heyəti***

## “Goranboy ƏT” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da Goranboy şəhəri, S.Vurğun küçəsi 92 nömrəli ünvanda səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2022- ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinə aid hesabatın müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***İdarə heyəti***

## “Goranboy Tikinti – Quraşdırma” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da “Goranboy Tikinti - Quraşdırma” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2022-ci il üçün maliyyə -təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatın müzakirəsi və təsdiqi.
2. Mənfəət və zərərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Ünvan-Goranboy şəhəri, V.Bayramov küçəsi 13.

***İdarə heyəti***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

### tələb olunan yuyucu vasitələrin satın alınması məqsədilə

# MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 17-si saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1242.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

## “Neftmaştəmir” ASC səhmdarlarının nəzərinə !

30 iyun 2023- cü il saat 11.00-da Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Oktyabr küçəsi 52 nömrəli ünvanda “Neftmaştəmir” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı ASC-nin iclas zalında keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin 2022-ci ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və cəmiyyətin 2022-ci il üzrə illik hesabatlarının təsdiqi.
2. Müəssisənin zərəri haqqında məlumat.
3. Müəssisədaxili nizam-intizam qaydalarının daha da möhkəmləndirilməsi barədə.
4. ASC-nin nizamnaməsində qismən dəyişikliklər edilməsi.
5. Təşkilati məsələ- ASC-nin idarəetmə orqanlarının seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Eyni zamanda bildirilir ki, nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikası qanununun 3.4.4-cü bəndinə uyğun olaraq bank rekvizitlərinin, şəxsiyyət vəsiqəsinin surətini “Neftmaştəmir” ASC-nin mühasibatlığına bilavasitə, yaxud neftmashtemir@mail.ru elektron ünvanına göndərmək xahiş edilir.

Əlaqə telefonları- (012) 550- 27 86; (012) 550- 33 -00.

***İdarə heyəti***

## “Qazanbulaq Mədəni Məişət” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da” Qazanbulaq Mədəni Məişət” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Goranboy rayonu, Qazanbulaq Şəhər Tipli Qəsəbədə keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatın müzakirəsi və təsdiqi.
2. “Qazanbulaq Mədəni Məişət” ASC-nin ləğv edilməsi.
3. “Qazanbulaq Mədəni Məişət” ASC-nin idarə heyəti sədrinin və üzvlərinin vəzifədən azad edilməsi və ləğvetmə komissiyasının (təsviyyəçinin) təyin edilməsi.
4. “Qazanbulaq Mədəni Məişət” ASC-nin ləğv edilməsi ilə əlaqədar qanuna uyğun tədbirlərin həyata keçirilməsi haqqında qərarın qəbul olunması.

Telefon-051-513-52-90.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarlar şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirak edə bilərlər.

***İdarə heyəti***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun tabeliyindəki idarələrə tələb olunan əskinin (vetoşun) satın alınması məqsədilə

# MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1176.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## “Suraxanı Bazar” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da Bakı, Suraxanı rayonu, Əmircan qəsəbəsi, M.Mustafayev küçəsi 7 nömrəli ünvanda “Suraxanı Bazar” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat.
2. Cəmiyyətin illik dividend paylarının bölünməsi haqqında.
3. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Telefon - 055-491-78-87.

***İdarə heyəti***

## “Rasifoğlu ASC” səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da “Rasifoğlu ASC” səhmdarlarının XVII ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin idarəetmə orqanlarının 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyəti barədə yekun hesabatının müzakirəsi.
2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon-(02224) 5-26 -99.

Ünvan- Goranboy şəhəri, C.Cabbarlı küçəsi 5.

***İdarə heyəti***

## “Kəpəz Mehmanxana” ASC səhmdarlarının nəzərinə!

“Kəpəz Mehmanxana” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2023-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Seçkili orqanların yenidən formalaşdırılması.
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirə edilən məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu- 022 - 266 – 60 – 13.

Ünvan- Gəncə şəhəri, Cavadxan küçəsi 1.

***Müşahidə şurası***

## “İnşaat Konstruksiyaları Zavodu” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2023-cü il saat 11.00-da “İnşaat Konstruksiyaları Zavodu” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.
2. Digər məsələlər.

Telefon- 077-320-03-70.

Ünvan: Bakı, Nizami rayonu, K.Balakişiyev küçəsi 2.

***İdarə heyəti***

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 97 (30213) 11 may 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

*Texnologiya yenilikləri*

## “Twitter”: Köhnə hesablarınız silinə bilər



**İlon Mask “bir neçə il” fəaliyyətsiz qalan “Twitter” hesablarını silmək planlarını açıqlayıb.**

İnsanlar artıq dünyasını dəyişən qohumlarının hesablarına girə bilmək şansını itirməkdən qorxduqları üçün atılan bu addımı tənqid ediblər.

Bütün bu tənqidləri nəzərə alaraq Mask köhnə hesabları silmək əvəzinə onların arxivləşdiriləcəyi barədə məlumat verib.



Məlumatda həmçinin bildirilir ki, istifadəçilər özlərinin və ölən qohumlarının “Twitter” hesablarına ən azı 30 gündən bir daxil olmalıdırlar. Lakin bu qaydalara əməl olunmazsa, hərəkətsiz qaldıqları təqdirdə hesablar daimi olaraq silinə bilər.

***M.QƏRİBOV, “Xalq qəzeti”***

*İdman xəbərləri*

## Tanınmış şahmatçıların 100 lövhədə seansları



**Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan şahmat üzrə seans təşkil edilib. Dənizkənarı Bulvarda tanınmış şahmatçılar eyni anda 100 lövhədə seansda iştirak ediblər.**

Seans zamanı üçqat Avropa çempionu, gənclər arasında ikiqat dünya çempionu Şəhriyar Məmmədyarov, üçqat Avropa çempionu, Dünya kubokunun qalibi Teymur Rəcəbov, üçqat qitə çempionları Rauf Məmmədov, Qədir Hüseynov, eyni zamanda, müxtəlif yaş qrupları üzrə dünya, Avropa çempionatının qalib və mükafatçıları Abdulla Qədimbəyli, Zeynəb Məmmədyarova və Gülnar Məmmədova balaca və yeniyetmə şahmatçılara qarşı mübarizə aparıblar. İki saata yaxın davam edən seansda 15 partiya heç-heçə başa çatıb, iki oyunda yeniyetmələr qələbə qazanıblar.

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan eyni anda 100 lövhədə seanslar növbəti aylarda digər regionlarda da təşkil olunacaq.

***Leyla QURBANOVA, “Xalq qəzeti”***

## Komandamız Portuqaliyada bürünc medal qazanıb

**Avropa çempionatına sayılı günlər qalmış bədii gimnastika üzrə qrup hərəkətlərində yığmamızın üzvləri ölkəmizə medal sevinci yaşadıblar. Portuqaliyanın Portimao şəhərində keçirilən “Challenge” seriyasına aid dünya kuboku yarışlarında ölkəmizi təmsil edən qrup hərəkətləri üzrə yığma komandamızın üzvləri - Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokina çoxnövçülük proqramında bürünc medal qazanıblar.**



“Trend” Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, beş halqa, üç lent və iki topla hərəkətlərin icrasında finalda mübarizə aparan təmsilçilərimiz ümumilikdə 61 xal toplayaraq fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

Fərdi proqramda ən yaxşı nəticəni isə Zöhrə Ağamirova göstərib. Belə ki, topla (31.100 xal) və halqa (28.300 xal) ilə hərəkətlərin icrasında finala yüksələn idmançımız müvafiq olaraq 6-cı və 7-ci yerləri tutub.

***Aytən NƏCƏFOVA, “Xalq qəzeti”***

*Sosial şəbəkələrdən seçmələr*

## Sabahlarınız xoş niyyətlərə açılsın!



Tanınmış jurnalist Şəmsiyyə Kərimova özünün “Facebook” səhifəsində gözəl bir təbiət mənzərəsi yerləşdirərək yazıb:

***“Yaxşı niyyətlə,***
***Gözəl baxan,***
***Gözəl görən,***
***Gözəl düşünən***
***Hər kəsə salamlar və xeyirli sabahlar!”***

**P.S.** Düşünürəm ki, sosial şəbəkələrdə insanlara pozitiv enerji bəxş edən paylaşımlar nə qədər çox yer alsa, bir o qədər yaxşıdır. Hörmətli Şəmsiyyə xanımın bu istiqamətdəki fəallığı sadəcə alqışa layiqdir! Bir sözlə, sabahlarınız xoş niyyətlərə açılsın!

***Təqdim etdi: M.HACIXANLI, “Xalq qəzeti”***

*Sağlamlıq guşəsi*

## Xiyarın suyu çox olsa da...

**Tərkibinin böyük hissəsinin su olduğunu bildiyimiz xiyar, əslində, orqanizm üçün çox xeyirli imiş. Mütəxəssislər xiyarın sümüklər üçün də faydalı olduğunu deyirlər.**

Xiyar, xüsusilə, osteoporoz, çat və sınıqlara meyilli kövrək sümük problemi ilə qarşılaşan yaşlılar üçün faydalıdır. Bu məhsulun zəngin olduğu vitaminlərdən biri də sümük toxumasını gücləndirməyə kömək edən K vitaminidir.



Bir xiyarda təxminən 50 mikroqram K vitamini var ki, bu da gündəlik tələbatın 40 faizindən bir qədər çoxdur.

**Nəfəsi təravətləndirir.** – Xiyar tərkibindəki su, lif və polifenollar və kimi fotokimyəvi maddələrlə ağız qoxusuna qarşı mübarizə aparır. Bu birləşmələr antioksidant xüsusiyyətlərə malikdir və ağızda bakteriyaların miqdarını azaltmağa kömək edir.

**Diabetin qarşısını alır.** – Xiyarın aşağı glikemik indeksi cəmi 15-dir. Belə qidaları yemək insulin müqavimətini azaltmağa kömək edir və bu da 2-ci tip diabet riskini azaldır.

**Bədənin nəmləndirilməsini təmin edir.** Xiyarın 95 faizi sudan ibarətdir. Bədənin optimal işləməsi üçün kifayət qədər maye qəbulu və nəmləndirmə vacibdir.

**Artıq çəkidən xilas edir.**– Yüksək su tərkibinə görə, xiyar son dərəcə doyurucu və çox aşağı kalorilidir - arıqlamaq istəyənlər üçün ən yaxşı qəlyanaltılardan biridir.

**Qəbizliyin qarşısını alır.**– Qabıqları ilə birlikdə yeyilən xiyar bədəni bol su və liflə təmin edir, bu, bağırsaq hərəkətliliyini stimullaşdırmaq və qəbizliyin qarşısını almaq üçün ən yaxşı birləşmədir.

**Şişkinliyi azaldır.** – Yüksək təzyiq üçün faydalıdır. Xiyarda yüksək miqdarda kalium var. Kalium, bədəndən artıq natriumun xaric edilməsinə kömək etməsi ilə məşhurdur, duzun yığılması suyun bədəndə qalmasına, ödemə səbəb olur və qan təzyiqini artırır.

***Z.HÜSEYNOVA, “Xalq qəzeti”***

## Şəkərli içkilərin acı nəticəsi

**İspan alimlərinin araşdırmasına görə, tərkibində şəkər olan sərinləşdirici içkilər qablaşdırılmış sudan 100 dəfə çox plastifikatora malikdir.**



Plastifikatorlar elastiklik və davamlılığı təmin etmək üçün plastik qablara əlavə edilən kimyəvi birləşmələrdir. Bu maddə zaman keçdikcə insan sağlamlığına çox ciddi ziyan vurur. Həmçinin nevroloji zəhərlənmə, endokrin pozğunluq, xərçəng xəstəliklərinə səbəb olur.

Bu birləşmələrin ən yüksək konsentrasiyası şəkərli sərinləşdirici içkilər və şəkər əlavə edilmiş digər şirələrdə mövcuddur. Belə ki, bu maddələrin həcmi orta hesabla bir litrdə 2,876 və 2,965 nanoqram təşkil edir.

***F.SALMANOVA, “Xalq qəzeti”***

## Bakı Musiqi Akademiyasında konsert proqramı

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert proqramı keçirilib.**

Tədbiri giriş sözü ilə açan sənətşünaslıq üzrə fəlsəfə doktoru Minəxanım Babayeva çıxışında Heydər Əliyevin Azərbaycan musiqisinə və mədəniyyətinə verdiyi töhfələrdən danışıb, bu dahi şəxsiyyətin milli-mənəvi irsin qorunmasında və inkişaf etdirilməsində müstəsna rolunun olduğunu deyib:

“Heydər Əliyev istənilən musiqi əsəri və onun müəllifi haqqında dərin biliklərə sahib bir şəxs idi. İncəsənət sahəsində fəaliyyət göstərən bütün insanlarla söhbətində onun incəsənətə, mədəniyyətə verdiyi dəyər aydın hiss olunurdu. Həyatdan köçən incəsənət xadimlərinin yaradıcılıq gecələrinin keçirilməsi, onların ev muzeyinin yaradılması, həmçinin onların adına küçə və prospekt adlarının verilməsi də məhz ulu öndərin daim diqqət mərkəzində olmuşdur”.



Sonra “Konsertmeyster ustalığı” və “İxtisas fortepiano” kafedralarının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Hüseynovanın rəhbərlik etdiyi “Sabah” qrupunun IV kurs tələbələri, respublika və beynəlxalq müsabiqələr laureatları Fidan Yunus, Nigar Hüseynzadə və digər solistlərin ifasında müxtəlif operalardan musiqi nömrələri səsləndirildi.

***Fidan HÜQUQQIZI, “Xalq qəzeti”***

## HAVA PROQNOZU

✓ ***Mayın 11-də***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, axşama doğru arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 9-14°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 24-29° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 10-15°, bəzi yerlərdə 18° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 8-13°, bəzi yerlərdə 15-20° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 9-14°, gündüz 21-26° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 20-25°, dağlarda gecə 2-7°, gündüz 10-15° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Gecə 11-16°, gündüz 23-28° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 9-12°, gündüz 15-20° isti olacaq.

## Ferstappen “Formula 1” üzrə Mayami Qran prisinin qalibi olub



**“Red Bull” komandasının Niderlandlı pilotu Maks Ferstappen bazar ertəsinə keçən gecə Formula 1 üzrə dünya çempionatının beşinci turu olan Mayami Qran prisinin qalibi olub.**

Trend-in məlumatına görə, ikinci yeri onun komanda yoldaşı meksikalı Serxio Peres tutub. “Aston Martin” komandasının üzvü Fernando Alonso üçüncü olub

Hazırkı dünya çempionu M.Ferstappen bu mövsüm üçüncü qələbəsini qazanıb. “Red Bull” komandasının yarışçıları bu mövsüm dördüncü, tarixdə isə 26-cı dəfə bir yarışda iki ilk yerləri tutublar.

***Səadət RZAYEVA, “Xalq qəzeti”***

✓ **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Abdullayev Əli Tofiq oğlunun adına verilmiş PX seriyalı, 2878 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5282
SİFARİŞ 1078
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00